Xalqın qəzeti!

# Xalq qəzeti

№ 28 (30432) 9 fevral 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Ukrayna Ali Radası AŞPA-nı və Milli Məclisi dialoqa çağırıb

Səhifə ⇨ 4



# Azərbaycan seçkilərə Qarabağ Zəfəri və suverenliyin bərpası öyüncü ilə getdi



## Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Baş katibini qəbul edib



**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedevi qəbul edib.**

Sergey Lebedev Prezident İlham Əliyevə seçkilərdə inamlı qələbə münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Sergey Lebedevə və MDB müşahidə missiyasının bütün üzvlərinə bu seçkiləri müşahidə etdiklərinə görə təşəkkürünü bildirdi, MDB müşahidə missiyasının Azərbaycanda bu və daha əvvəlki seçkilərdə də müşahidələrdə fəal şəkildə iştirak etdiyini vurğuladı.

Sergey Lebedev qeyd etdi ki, Azərbaycanda seçki prosesini müşahidə etmək onlar üçün böyük şərəf və eyni zamanda məsuliyyətdir. Vurğuladı ki, bu, Azərbaycan xalqı üçün tarixi bir gün və tarixi seçkilər idi. Ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, regionda uzunmüddətli və davamlı sülh üçün yaxşı imkanların yarandığını deyən qonaq bu seçki prosesində sadə insanlarla, seçicilərlə, müşahidəçilərlə geniş söhbətlərinin olduğunu, Azərbaycan xalqının bu seçkilərdə xüsusi rəğbət hissi ilə öz seçki hüququndan istifadə etdiklərini bildirdi.

Müstəqil Dövlətlər Birliyinin Baş katibi Azərbaycan xalqının ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunandan sonra ilk dəfə seçkilərin keçirilməsi prosesində iştirak etdiyini dedi, həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərini, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmasını və həmin ərazilərdə seçki hüquqlarından istifadə etdiklərini vurğuladı.

Sergey Lebedev MDB müşahidə missiyasının 170-ə yaxın müşahidəçi ilə seçki prosesində təmsil olunduğunu dedi. Qonaq hər bir seçkinin ölkələrin qanunvericiliyinə uyğun və Seçki Məcəlləsi əsasında keçirilməli olduğunu qeyd etdi və bu seçkilərin də Azərbaycan Respublikasının müvafiq qanunlarına uyğun qaydada açıq, demokratik şəkildə təşkil olunduğunu bildirdi.

*(ardı 2-ci səhifədə)*

# "Dəmir yumruq"lu və Zəfər bayraqlı lider

**Bu gün artıq böyük qürur hissi ilə, demək olar ki, 7 fevral 2024-cü ilin növbədənkənar prezident seçkiləri Azərbaycan tarixinə Zəfər seçkisi kimi daxil olmuşdur. Xalqımızı 2020-ci ildəki 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabr ayındakı bir günlük lokal xarakterli antiterror tədbirlərində qazandığı tarixi Zəfəri böyük birlik və mütəşəkkillik şəraitində başa çatdırdığı 7 fevral prezident seçkiləri ilə qəti şəkildə möhkəmləndirmişdir.**

XXI əsrin dünya liderləri arasında xüsusi yeri və mövqeyi olan, öz xalqına tarixi zəfərlər qazandırmış cənab İlham Əliyevin 2024-cü il fevralın 7-də yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə müstəqil dövlətimiz həm də Zəfərdən – Zəfərlərə doğru yeni və etibarlı təminat almışdır. Bu mənada xalqımız və ölkəmiz 7 fevral 2024-cü ilin növbədənkənar prezident seçkiləri ilə müstəqillik tariximizin indiyə qədərki möhtəşəm tarixi inkişaf yoluna yekun vurmuş və daha böyük inkişafın geniş üfüqlərini nümayiş etdirən yeni dövrə qədəm qoymuşdur.

*(ardı 5-ci səhifədə)*

# Baş nazirin islahat məntiqi: Ermənistanı "sıfırdan yığmaq" zərurəti

*Erməni baş nazir Azərbaycanla sülhə gəlmək məsələsində nələri vurğulayır?*

**Şübhəsiz ki, Ermənistanda yaşananların Azərbaycanda doğurduğu maraq Bakı-İrəvan sülh gündəliyi ilə bağlıdır. Baş nazir Nikol Paşinyanın ölkə parlamentində səsləndirdiyi fikirlər də bu baxımdan vacibdir. Məsələn, hazırda Ermənistanda konstitusiya islahatları mövzusu gündəmdədir və daxili ictimai rəydə belə düşüncə var ki, bu, Bakının diktəsidir.**



"Bakının diktəsi" ritorikası isə özlüyündə reallıqlarla barışmamaq, onlara qarşı müqavimət formalaşdırmaq istəyidir. Ancaq rəsmi İrəvanın irəli sürdüyü prinsiplərin qeyri-məqbulluğu ayrıca vurğulanmalıdır. Deməli, Ermənistanda yaşanan ziddiyyətlər və gərginliklər fonunda Paşinyanın öz hakimiyyətinə bəraət qazandırmaq üçün hansı məqamlardan söz açdığına nəzər salmalıyıq.

Başlayaq erməni baş nazirin Azərbaycanla sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasının dəyişdirilməsi tezisinə münasibətindən. Ölkənin ana qanunun yenilənməsi xüsusundakı müzakirələrin Bakının diktəsi kimi qiymətləndirildiyini vurğuladıq. Paşinyanın mövqeyi belədir ki, rəhbərlik etdiyi iqtidar Bakı ilə anlaşmanı konstitusiya dəyişikliyi xüsusunda görmür. O deyib ki, Azərbaycanla sülh müqaviləsinin mətnindəki razılaşdırılmış maddəyə görə, tərəflər öz öhdəliklərini yerinə yetirmədikdə, daxili qanunvericiliklərini əsas saya bilməzlər.

Əlbəttə, Paşinyan fikirləri ilə ölkə konstitusiyasının dəyişdirilməsinin bəşəri məqsəd daşıdığını vurğulamağa çalışır. Yəni, demək istəyir ki, mövcud istiqamətdə Bakının hansısa diktəsinin olduğunu önə çəkmək düzgün deyil. Onun belə münasibəti daxili ictimai rəyə hesablanıb, söylədikləri isə söz oyunundan o yana keçmir.

*(ardı 7-ci səhifədə)*

## Beynəlxalq müşahidəçilər: Azərbaycan xalqı xoşbəxt gələcəyinə səs verdi



Səhifə ⇨ 5

## Türkiyənin Naxçıvanda xilaskarlıq missiyası



Səhifə ⇨ 9

# Azərbaycan iqtisadiyyatının 2,3 faiz artacağı gözlənilir




**Bu gün beynəlxalq reytinq agentlikləri tərəfindən respublikamızın gələcək inkişaf gözləntisini ifadə edən müsbət göstəricilərin vurğulanması təsadüfi deyil. Çünki hazırda Azərbaycanın malik olduğu resurslar iqtisadi yüksəlişin dinamikliyini şərtləndirir və bu potensial böyük miqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinə, xüsusilə işğalçıdan təmizlənən ərazilərdə bərpa-quruculuq işlərinin sürətlə davam etdirilməsinə imkan verir.**

Prezident İlham Əliyev ölkəmizin nail olduğu inkişaf səviyyəsi haqqında bildirib: "Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, heç kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil".

*(ardı 8-ci səhifədə)*

## "İranı bombalamaq, ya bombalamamaq?"



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Baş katibini qəbul edib

(əvvəli 1-ci səhifədə)

Baş katib bu gün mətbuat konfransı keçirəcəklərini və seçki müşahidə missiyasının fəaliyyəti haqqında hesabatlarını geniş ictimaiyyətə təqdim edəcəklərini dedi.

Dövlətimizin başçısı seçkilərin ilk dəfə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü təmin olunmuş şəkildə ölkəmizin bütün ərazisində, o cümlədən Xankəndidə, Şuşada və digər rayonlarda keçirildiyini qeyd edərək bunun Azərbaycan xalqı üçün xüsusi tarixi əhəmiyyət daşıdığını vurğuladı.

Keçmiş məcburi köçkünlərin artıq bir hissəsinin işğaldan azad olunmuş ərazilərə qaytarıldığını və bunun üçün Böyük Qayıdış Proqramı əsasında məcburi köçkünlərin geri qayıdışına dair layihələrin icra edildiyini deyən Prezident İlham Əliyev birinci mərhələnin 2026-cı ildə başa çatdırılacağını, bundan sonrakı mərhələlərdə də məcburi köçkünlərin geri qayıtmalarının təmin olunacağını diqqətə çatdırdı.

Söhbət zamanı MDB-nin aidiyyəti strukturları ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunuldu, Azərbaycanın MDB çərçivəsində əlaqələrə və müzakirələrə töhfə verdiyi, MDB ölkələri arasında siyasi, mədəni, iqtisadi və digər sahələrdə əməkdaşlıq layihələri barədə fikir mübadiləsi aparıldı.

# Azərbaycan TDT-nin möhkəmlənməsinə daim öz töhfəsini verir



**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.**

Seçkilərdə inamlı qələbəsi münasibətilə Prezident İlham Əliyevə Türk Dövlətləri Təşkilatı adından təbriklərini çatdıran Kubanıçbek Ömüralıyev təşkilatın geniş müşahidə missiyası ilə bu seçkiləri müşahidə etdiklərini, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şuşada, Xankəndidə və azad edilmiş digər ərazilərdə olduqlarını, TDT ailəsinə daxil olan başqa təsisatlarla əlaqələndirilmiş şəkildə bu seçki prosesini müşahidə etdiklərini vurğuladı. Qonaq seçkilərin çox mükəmməl və peşəkarlıqla təşkil olunduğunu qeyd etdi.

TDT-nin Baş katibi şanlı Qarabağ Zəfəri və ölkəmizin ərazi bütövlüyünün tam təmin olunması ilə əlaqədar Azərbaycan xalqının bu seçkilərdə xüsusi əhvali-ruhiyyə ilə seçki hüquqlarından istifadə etdiklərini dedi.

Kubanıçbek Ömüralıyev qeyd etdi ki, bu gün TDT-nin müşahidə missiyasının mətbuat konfransı olacaq və missiya seçkilərlə bağlı müşahidələrinin nəticələrini bəyan edəcək.

Prezident İlham Əliyev TDT-nin müşahidə missiyasının bütün üzvlərinə seçkiləri müşahidə etdiklərinə görə minnətdarlığını bildirdi.

Kubanıçbek Ömüralıyev qeyd etdi ki, Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya prosesinə və tərəfdaşlığın daha da yüksəlməsinə daim öz töhfələrini verir.

Görüşdə bu il Azərbaycanda TDT-nin qeyri-rəsmi Zirvə toplantısının keçiriləcəyi məmnuniyyətlə qeyd edildi. Təşkilatın bundan sonra da inkişafının, əməkdaşlığı və tərəfdaşlığı daha da gücləndirəcək yeni layihələrlə çıxış etməsinin vacibliyi diqqətə çatdırıldı.

# Ölkəmiz Şanxay Əməkdaşlıq Təşkilatının fəal tərəfdaşıdır



**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mini qəbul edib.**

Prezident İlham Əliyev müşahidə missiyasında iştirakına görə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibinə, müşahidə qrupunun üzvlərinə və üzv dövlətlərə minnətdarlığını bildirdi.

Can Min Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının fəal tərəfdaşlarından biri olduğunu və Azərbaycan ilə əlaqələrin hərtərəfli inkişafına əhəmiyyət verdiklərini bildirdi. Ölkəmizlə müxtəlif sahələrdə yaxın tərəfdaşlıq əlaqələrinin olduğunu deyən Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Heydər Əliyev Fondunun xətti ilə qurulan mədəni-humanitar əməkdaşlığı xüsusilə qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin hərtərəfli inkişafı üçün böyük imkanların olduğunu bildirdi, ölkəmizin eyni zamanda Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə də ikitərəfli qaydada çox sıx əlaqələrini vurğuladı. Bu xüsusda dövlətimizin başçısı prezident seçkilərində qələbə münasibətilə ilk təbrikləri Təşkilata üzv ölkələrdən aldığını qeyd etdi. Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirakını məmnunluqla xatırladı.

Qonaq Azərbaycanın COP29-a ev sahibliyi münasibətilə təbriklərini çatdırdı, bunun Azərbaycanın insaniyyətə və bəşəri inkişafa verdiyi töhfənin bariz nümunəsi olduğunu bildirdi. Can Min COP29 çərçivəsində də Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq məsələlərini qeyd etdi.

# Qarabağ Zəfəri Türk dünyasına özünəinam gətirib



**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Mehmet Süreyya Eri və TÜRKPA beynəlxalq seçki müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mesteni qəbul edib.**

Prezident İlham Əliyev seçkilərdə müşahidəçi qismində iştirakına görə TÜRKPA nümayəndə heyətinə və müşahidə missiyasının bütün üzvlərinə təşəkkürünü bildirdi.

Müşahidə missiyasının üzvləri prezident seçkilərində inamlı qələbə münasibətilə dövlətimizin başçısını təbrik etdilər. Onlar həm Şuşada, həm də Xankəndidə səsvermə prosesini müşahidə etdiklərini məmnunluqla bildirdilər və bunu tarixi məqam kimi qiymətləndirdilər.

Prezident İlham Əliyev bu seçkilərin tarixi hadisə olduğunu deyərək ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində təşkil olunmuş səsvermə prosesində iştirak etdiyini xüsusi vurğuladı.

Qonaqlar bildirdilər ki, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan xalqının Qarabağ Zəfəri bütün Türk dünyasının zəfəridir və bu, Türk dünyasının özünəinamını daha da gücləndirib.

Söhbət zamanı Türk dünyasının bir ailə olduğu və bu çərçivədə əməkdaşlığın bütün sahələrdə daha da dərinləşdirilməsinin və genişləndirilməsinin vacibliyi qeyd edildi.

# Türkiyə daimi dəstəyi ilə xalqımızın yanındadır



**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan–Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev seçkiləri müşahidə etdiklərinə görə nümayəndə heyətinə minnətdarlığını bildirdi.

Şamil Ayrım nümayəndə heyəti adından çıxış edərək dövlətimizin başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi.

Qonaq Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səmimi dostluğunun və qardaşlığının ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rolunu vurğuladı.

Dövlətimizin başçısı seçkilərdə qazandığı qələbə münasibətilə Rəcəb Tayyib Ərdoğanın ona təbrik məktubu göndərdiyini və Türkiyə Prezidenti ilə telefonla danışdıqlarını məmnunluqla qeyd etdi.

Şamil Ayrım Prezident İlham Əliyevin və ailə üzvlərinin Xankəndidə səs vermələrinin böyük əhəmiyyət daşıdığını bildirdi.

Dövlətimizin başçısı da Xankəndidə səsvermənin böyük siyasi və rəmzi mənasının olduğunu vurğuladı.

Şamil Ayrım 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında Prezident İlham Əliyevin və Azərbaycanın dünyaya bir nümunə göstərdiyini qeyd etdi. Ümummilli lider Heydər Əliyevin vəsiyyətinin dövlətimizin başçısı tərəfindən yerinə yetirildiyini deyən qonaq vurğuladı ki, Azərbaycan xalqı ilk dəfə olaraq bu seçkilərdə ərazi bütövlüyü və suverenliyi təmin olunmuş şəkildə qürurla iştirak edib.

Azərbaycan Prezidenti Vətən müharibəsində Qələbədə Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş Türkiyənin mənəvi-siyasi dəstəyinin yüksək qiymətləndirildiyini bir daha qeyd etdi.

Görüşdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə qarşı ədalətsizlik vurğulandı, Türkiyə Böyük Millət Məclisinin bunun əleyhinə olduğu və Türkiyə parlamentində də bununla əlaqədar müvafiq bəyanatların və müraciətlərin qəbul olunacağı qeyd edildi, Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməsinin vacibliyi bildirildi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı və Türk Dövlətləri Parlament Assambleyası çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Türk Dövlətləri Təşkilatında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşdirilməsinin önəmi qeyd olundu.

Nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının daha da inkişafı üçün fəaliyyətini yüksək qiymətləndirdiklərini dedilər.

***AZƏRTAC***

## "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.24-cü bəndində "məişət və istehsalat tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**2.** "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 26 dekabr tarixli 61 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1528 (Cild I) 2.1-ci bəndində və 4-cü hissəsində "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 613 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.17-ci yarımbənddə "sənaye və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

3.2. 3.2.8-ci yarımbənddə "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**4.** "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 3.0.45-ci yarımbəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə" üzrə:

4.2.1. 2.0.2-ci yarımbənddə "məişət və istehsalat tullantılarının," sözləri "tullantıların, o cümlədən" sözləri ilə əvəz edilsin;

4.2.2. 3.0.10-cu yarımbənddə "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nin 3.1.17-ci yarımbəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə"nin 7.4.11-ci yarımbəndinə "dövlət rüsumları" sözlərindən sonra ", habelə utilizasiya haqları" sözləri əlavə edilsin.

**6.** "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 oktyabr tarixli 774 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1239 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bənddə "istehsalat və məişət tullantılarından" sözləri "tullantılardan" sözü ilə əvəz edilsin;

6.2. 4-cü hissədə "istehsalat və məişət tullantıları" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 fevral 2024-cü il**

# Prezident seçkilərində namizədlər dövlətimizin başçısını qazandığı parlaq qələbə münasibətilə təbrik ediblər

**Fevralın 8-də Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd olmuş Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, həmçinin namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülmüş Zahid Oruc və Fuad Əliyev seçkilərdə Azərbaycan xalqının böyük etimadını qazanaraq qalib gəlmiş Prezident İlham Əliyevə zəng ediblər.**

Namizədlərin hər biri demokratik, şəffaf və ədalətli şəkildə keçirilmiş seçkilərdə yenidən parlaq qələbə qazanması münasibətilə Azərbaycan Respublikasının Prezidentini səmimiyyətlə təbrik edib, səsvermənin nəticələrinin Azərbaycan xalqının dövlət başçısına olan inam və etimadının ifadəsi, ölkəmizin sosial-iqtisadi inkişafı və xalqımızın rifahı yolunda həyata keçirdiyi qətiyyətli siyasətə verilən yüksək qiymətin və dəstəyin əyani təzahürü olduğunu bildiriblər.

Namizədlər budəfəki seçkilərin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkəmizin bütün ərazisində keçirilməsinin mühüm tarixi hadisə olduğunu qeyd ediblər. Bunun əyani göstəricisi olaraq Prezidentin ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində yerləşən seçki məntəqəsində səs verməsinin böyük siyasi və rəmzi məna daşıdığını vurğulayıblar.

Namizədlər Prezident İlham Əliyevə möhkəm cansağlığı, Azərbaycanın firavanlığı, yüksəlişi və qlobal aləmdə nüfuzunun daha da güclənməsi yolunda qarşıya qoyduğu bütün hədəflərə çatmağı arzulayaraq, xalqımızın əmin-amanlığı, rifahı və tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar və nailiyyətlər diləyiblər.

Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı prezident seçkilərində iştirak edən namizədlər arasında konstruktiv dialoqa əsaslanan siyasi mədəniyyətin nümayiş etdirilməsini müsbət qiymətləndirərək seçkiqabağı təşviqat prosesi zamanı namizədlər tərəfindən səsləndirilmiş bir sıra təkliflərin nəzərə alınacağını qeyd edib.

Prezident İlham Əliyev seçkilərdə iştirak etmiş namizədlərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq dəstəyini tam təsdiq edir.

Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, bütün sahələrdə səmərəli ikitərəfli əməkdaşlığın, beynəlxalq gündəliyin aktual məsələlərinin həllində tərəfdaşlıq qarşılıqlı əlaqələrinin genişləndirilməsi üzrə fəal birgə işi davam etdirəcəyik. Şübhəsiz ki, bu iş dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin, təhlükəsizliyin gücləndirilməsi istiqamətində gedir.

Hörmətli İlham Heydər oğlu, dövlət başçısı vəzifəsində məsuliyyətli fəaliyyətinizdə Sizə səmimi-qəlbdən uğurlar, möhkəm cansağlığı və əmin-amanlıq arzu edirəm.

**Hörmətlə,**

*Vladimir PUTİN,*
*Rusiya Federasiyasının Prezidenti*

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu münasibətlə ən xoş arzularımı qəbul edin.

Qardaş Azərbaycanın ali dövlət vəzifəsinə yenidən seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir inamlı təsdiqidir və ölkənin ardıcıl sosial-iqtisadi inkişafına, həmçinin dövlətinizin beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş strateji kursunuzun xalqınız tərəfindən geniş şəkildə dəstəklənməsinin göstəricisidir.

Sizin Tacikistan-Azərbaycan dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və dərinləşməsinə sanballı şəxsi töhfənizi vurğulayaraq bu əlaqələrin gələcəkdə də hərtərəfli inkişafına marağımızı ifadə edirəm.

Əminəm ki, biz gələcəkdə də birgə səylərlə iki ölkənin çoxplanlı qarşılıqlı münasibətlərini inkişaf etdirəcəyik, xalqlarımızın rifahı naminə bu əməkdaşlığı yeni praktiki məzmunla zənginləşdirəcəyik.

Əziz İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və təşəbbüslərinizin reallaşdırılmasında yeni böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

**Səmimiyyətlə,**

*Emoməli RƏHMON,*
*Tacikistan Respublikasının Prezidenti*

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümumxalq səsverməsinin yekunları Sizin çoxşaxəli islahatlar kursunuza tam etimadın və xalqın birliyinin, dövlətin ərazi bütövlüyünün və dinamik inkişafının təmin edilməsi işində xidmətlərinizin təsdiqinin parlaq sübutuna çevrildi.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan uğurla inkişaf etməkdə, beynəlxalq birliyin nüfuzlu üzvü və regional dövlət kimi güclənməkdə davam edəcəkdir.

Qazaxıstanda Siz qardaş ölkələrimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinin əzmkar tərəfdarı kimi böyük hörmətə maliksiniz.

Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın zəngin potensialının reallaşdırılması naminə sıx məhsuldar işimizin davam etdirilməsinə hazır olduğumu təsdiq edirəm.

Əminəm ki, bizim Bakıda keçirəcəyimiz tamformatlı görüş Qazaxıstan-Azərbaycan münasibətlərinin gələcəkdə dərinləşməsi məqsədilə qarşılıqlı səmərəli əməkdaşlığın yeni üfüqlərini müəyyənləşdirməyə imkan yaradacaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizə qardaş Azərbaycanın rifahı və firavanlığı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər diləyir, nəzərdə tutduğunuz bütün planların uğurla reallaşmasını arzu edirəm.

**Hörmətlə,**

*Kasım-Jomart TOKAYEV,*
*Qazaxıstan Respublikasının Prezidenti*

***

**Hörmətli İlham Heydər oğlu, əziz Qardaşım!**

Azərbaycan Respublikasında yüksək səviyyədə keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi - əziz Qardaşımı səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirməkdən sonsuz məmnunluq duyuram.

Bu seçkilərdə Sizin namizədliyinizin əhali tərəfindən hərtərəfli dəstəklənməsi xalqınızın irəli sürdüyünüz strateji proqram və planlara sonsuz inamının əyani təzahürüdür. Bu, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün tam bərpası və tarixi ədalətin bərqərar olması, ölkənizdə bütün sahələrdə aparılan genişmiqyaslı islahatlar və böyük quruculuq işləri ilə bilavasitə bağlıdır desəm, əsl həqiqəti ifadə etmiş olaram.

Bu gün Sizin - öz xalqının həqiqi müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan dövləti şanlı zirvələri fəth edir və onun beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artmaqdadır. Heç şübhəsiz, Sizin bu yüksək vəzifədə fəaliyyətiniz dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmlənməsinə və cəmiyyətin müasirləşməsinə, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasına xidmət edəcəkdir.

Əziz qardaşım, bu məqamda xüsusi qeyd etmək istərdim ki, son illərdə bizim ali səviyyədə fəal təmaslarımız və aramızda olan sıx qardaşlıq münasibətlərimiz, həyata keçirilən konkret layihələr və "yol xəritələri" qarşılıqlı faydalı əlaqələrimizə güclü təkan verir.

Sizinlə razılaşdığımız kimi, Özbəkistan və Azərbaycan arasında çoxtərəfli əlaqələrin sürətli inkişafı ili elan edilən cari il ərzində daha on yeni sahə üzrə, o cümlədən kimya, neft-qaz, mədənçıxarma, energetika, elektrotexnika, zərgərlik, maşınqayırma, əczaçılıq, tikinti materialları və bank-maliyyə sahələrində əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş böyük planlarımızın tam şəkildə həyata keçiriləcəyinə inanıram.

Əminəm ki, qəti siyasi iradəmiz və birgə səylərimiz sayəsində uzunmüddətli strateji tərəfdaşlığımız qardaş xalqlarımızın ümumi rifahı naminə bundan sonra da səmərəli şəkildə inkişaf edəcəkdir.

Heç şübhəsiz ki, Zati-alinizin gələcəkdə ölkəmizə həyata keçiriləcək səfəri mövcud potensialımıza və imkanlarımıza uyğun olaraq çoxşaxəli və dostluq əlaqələrimizi tamamilə yeni səviyyəyə ucaldacaqdır.

Hörmətli İlham Heydər oğlu, bu mühüm qələbə münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz güc-qüvvət, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

**Ehtiramla,**

*Şavkat MİRZİYOYEV,*
*Özbəkistan Respublikasının Prezidenti*

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasında keçirilmiş Prezident seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Azərbaycan xalqının Sizin dövlətçiliyin möhkəmləndirilməsinə və ölkənin sosial-iqtisadi inkişafına istiqamətlənmiş siyasi kursunuza yüksək səviyyədə etimadının və dəstəyinin göstəricisidir. Əminəm ki, bu mühüm hadisə Azərbaycan Respublikasının gələcəkdə də inkişafına və onun vətəndaşlarının rifahının yüksəldilməsinə kömək edəcəkdir.

Türkmənistan ilə Azərbaycan Respublikası arasında qardaşlıq münasibətlərinin səmərəli xarakterini qeyd etmək sevindiricidir. Əminik ki, bu münasibətlər gələcəkdə də inkişaf edəcək və iki ölkənin xalqlarının rifahı naminə dərinləşəcəkdir. Ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinə şəxsi diqqətinizə və böyük dəstəyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, səadət və dövlət başçısı vəzifəsində məsuliyyətli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

*Sərdar BERDİMƏHƏMMƏDOV,*
*Türkmənistanın Prezidenti*

***

**Hörmətli İlham Heydər oğlu!**

Müstəqillik dövründə ilk dəfə ölkənizin bütün ərazisində keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Səsvermə zamanı seçicilərin nümayiş etdirdikləri güclü dəstək cəmiyyətin birliyini və Sizin Azərbaycan xalqı arasında yüksək nüfuzunuzu bir daha çox aydın şəkildə təsdiq etdi.

İyirmi il ərzində Sizin qətiyyətiniz, yüksək siyasi mədəniyyətiniz, xalqınızın səsini eşitmək bacarığınız sayəsində dünyada rəyi ilə hesablaşılan güclü, müstəqil dövlət qurulmuşdur. İqtisadi tərəqqi və vətəndaşların rifahının yüksəlməsi, ölkənin suverenliyinin möhkəmlənməsi və beynəlxalq aləmdə rolunun artması haqlı olaraq Sizin adınızla bağlıdır. Belarusun timsalında Sizin ədalətli və bərabərhüquqlu dövlətlərarası münasibətlərin qurulmasına, təhlükəsizliyin, dialoqun və etimadın möhkəmləndirilməsinə yanaşmaları bölüşən etibarlı dostunuz vardır.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və dost Azərbaycan xalqının rifahı naminə bütün planlarınızı həyata keçirmək üçün tükənməz enerji arzulayıram.

Sizi qonaqpərvər Belarus torpağında salamlamaqdan həmişə məmnunam.

**Hörmətlə,**

*Aleksandr LUKAŞENKO,*
*Belarus Respublikasının Prezidenti*

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan zamanla ayaqlaşan, iqtisadi və sosial həyatda sürətli artım nümayiş etdirən ölkədir. Bu isə, öz növbəsində, əsas etibarilə uzun illər ərzində xalq tərəfindən geniş şəkildə dəstəklənən və rəğbətlə qarşılanan uzaqgörən dövlət siyasətinizin nəticəsidir. Bunu keçirilmiş prezident seçkilərinin nəticələri də sübut edir.

Biz Sizin Türkmənistana səmimi dostluq münasibətinizi yüksək qiymətləndiririk. Qəti əminəm ki, Türkmənistan-Azərbaycan əməkdaşlığı iki ölkə xalqlarının rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifədə bütün məqsədlərə nail olmağı, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və davamlı rifah arzu edirəm.

**Dərin hörmətlə,**

*Qurbanqulu BERDİMƏHƏMMƏDOV,*
*Türkmən xalqının Milli Lideri,*
*Türkmənistan Xalq Məsləhətinin sədri*

***

**Hörmətli cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu məsul vəzifənin həyata keçirilməsində Sizə uğurlar arzulayıram. İnanıram ki, Siz dövlətinizin ümumi inkişafı və vətəndaşlarınızın firavanlığı naminə fədakarlıqla işləməyə davam edəcəksiniz.

Son 30 il ərzində Xorvatiya ilə Azərbaycan arasında dostluq münasibətləri inkişaf etməkdədir. Əminəm ki, Sizin yeni prezidentliyiniz dövründə biz ümumi münasibətlərimizin möhkəmlənməsi və dərinləşməsi istiqamətində fəaliyyətimizi davam etdirəcəyik. Bizim iqtisadi əməkdaşlığımız xüsusi əhəmiyyət daşıyır və bunun daha da inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. İnanıram ki, Azərbaycan və Xorvatiya şirkətləri arasında sıx əməkdaşlığı daha da təşviq etmək, eləcə də qarşılıqlı sərmayələrə marağı artırmaq üçün səylərimizi əsirgəməyəcəyik.

Cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

*Zoran MİLANOVİÇ,*
*Xorvatiya Respublikasının Prezidenti*

***

**Hörmətli cənab Prezident!**

Xorvatiya Respublikasının Hökuməti adından və şəxsən öz adımdan yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Ötən otuz il ərzində Xorvatiya və Azərbaycan yüksək səviyyəli ikitərəfli əməkdaşlığa nail olub. Mən şadam ki, 2023-cü ilin noyabrında Bakıda keçirdiyimiz görüş zamanı əlaqələrimizi, xüsusilə ticarət və enerji təhlükəsizliyi sahələrində ümumi əməkdaşlığımızı müzakirə etmək fürsətimiz oldu.

Qarşıdakı illərdə Sizinlə və Azərbaycan Respublikasının Hökuməti ilə siyasi, iqtisadi və mədəni münasibətlərin daha da inkişafına nail olmaq üçün sıx işləməyə sadiqliyimizi bildirirəm.

Azərbaycan xalqının rifahı naminə gələcək fəaliyyətinizdə Sizə böyük uğurlar arzu edirəm.

Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

**Dərin hörmətlə,**

*Andrey PLENKOVİÇ,*
*Xorvatiya Respublikasının Baş naziri*

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf hissi duyuram.

Azərbaycan xalqı Zati-alinizin müdrik liderliyinə olan etimadı ilə parlaq və inkişaf etmiş gələcəyə doğru daha sürətlə irəliləyəcəkdir.

Bu fürsətdən istifadə edərək İqtisadi Əməkdaşlıq Təşkilatının Azərbaycana verdiyi əhəmiyyəti bir daha qeyd edir, təşkilatın birgə işlənib hazırlanmış iqtisadi gündəliyinin irəliyə aparılmasında ölkənizin daim artan rolunu və töhfəsini xüsusi vurğulayıram.

İqtisadi Əməkdaşlıq Təşkilatının daha fəal olmasını və inteqrasiyasını təşviq etmək üçün məqsədlərimizin həyata keçirilməsində Zati-alinizin davamlı dəstəyini və himayəsini səbirsizliklə gözləyirəm.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

*Xusrav NOZİRİ,*
*İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi*

***

**Möhtərəm İlham Heydər oğlu!**

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin yenidən bu vəzifəyə seçilməyiniz Azərbaycan xalqı arasında malik olduğunuz böyük nüfuzu tam şəkildə təsdiqləyir. Əminəm ki, Sizin yüksək liderlik keyfiyyətləriniz Azərbaycan Respublikasının siyasi sabitliyinin qorunmasına və gələcək iqtisadi inkişafına töhfə verməkdə davam edəcəkdir.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikasını birləşdirən dostluq əlaqələrini yüksək qiymətləndirir, Sizə bizim regionla çoxplanlı qarşılıqlı faydalı əlaqələrin möhkəmlənməsinə göstərdiyiniz davamlı dəstəyə görə minnətdarlığımı bildirirəm.

Möhtərəm İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, səadət, əmin-amanlıq və Azərbaycan Respublikası naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm.

**Dərin hörmətlə,**

*İqor BABUŞKİN,*
*Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru*

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində parlaq qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu qələbə cəmiyyətin sıx birliyinin və Azərbaycan xalqı arasında Sizin çox yüksək nüfuzunuzun parlaq sübutudur. Bu nəticə Sizin liderliyinizə Azərbaycan xalqının hüdudsuz etimadının sübutudur, əsası dahi Heydər Əliyev tərəfindən qoyulmuş və Sizin davam etdirdiyiniz siyasi kurs sayəsində bir çox sahələrdə, eləcə də regional və beynəlxalq müstəvidə əldə etdiyiniz heyrətamiz uğurlara verilən qiymətdir.

Mən Sizin qətiyyətinizə, yüksək siyasi mədəniyyətinizə və xalqınızın səsini eşitmək bacarığınıza həmişə heyran olmuşam. Bu liderlik keyfiyyətləri nəticəsində güclü, müstəqil, rəyi ilə bütün dünyada hesablaşılan dövlət qurulub, mənim sevimli Azərbaycanımın ərazi bütövlüyü bərpa edilib, Sizin ölkənizdə bütün sahələrdə genişmiqyaslı islahatlar və quruculuq işləri aparılır.

Əziz İlham Heydər oğlu, Sizə bütün təşəbbüslərinizin reallaşmasında yeni böyük uğurlar, rifah və firavanlıq arzulayıram.

Əminəm ki, Sizin və mənim sevimli Azərbaycanımın başı üzərində səma hər zaman dinc və aydın olacaq.

Ən yüksək ehtiramımı qəbul edin.

*Tatyana ANODİNA,*
*Dövlətlərarası Aviasiya Şurasının prezidenti*

***

**Möhtərəm cənab Prezident!**

İcazə verin, Sizi böyük qələbə, Azərbaycan xalqının Sizə - görkəmli dövlət xadimi və zəmanəmizin müdrik siyasətçisinə, dahi valideynlərin – Heydər Əliyevin və Zərifə Əliyevanın dahi oğluna ölkənizə rəhbərliyi yenidən həvalə etmək kimi düzgün seçimi münasibətilə təbrik edim. Seçkilərdə Sizin qələbə qazanmağınız təbiidir, çünki Siz valideynlərinizdən nümunə götürərək xeyirxahlıq, insanlıq, ölkənizin və xalqınızın tərəqqisi naminə fəaliyyətinizi şərəflə davam etdirirsiniz.

Zati-aliləri, qoy, ölkəniz Sizin müdrik rəhbərliyinizlə gündən-günə daha gözəl və güclü olsun! Qoy, Böyük Allah Sizi bütün təşəbbüslərinizdə dəstəkləsin, qorusun və doğma Azərbaycan xalqının rifahı naminə yeni zəfərlərə aparsın!

İcazə verin qeyd edim ki, seçkilərdən əvvəlki günlərdə mən Sizin üçün, qələbəniz üçün dua edirdim. İstəyirəm biləsiniz ki, həmişə, ömrümün sonuna qədər Sizin qəlbinizin mərhəmətinə, uşaqlarımızın - Zərifə Əliyeva adına liseyin şagirdlərinin rifahı naminə köməyinizə görə minnətdar olacağam.

Möhtərəm cənab Prezident, Azərbaycan, Bakı, Naxçıvan həmişəlik mənim qəlbimdədir.

Sizi prezident seçkilərində qələbə münasibətilə böyük sevinclə təbrik edirəm. Qoy, Böyük Allah Sizi qorusun və bu çox məsuliyyətli vəzifədə hələ uzun illər köməyiniz olsun!

Sizə və doğmalarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, şəxsən Sizə böyük qələbələr, mənəvi güc, əmin-amanlıq, səadət arzulayıram.

**Zati-alinizə böyük hörmət, minnətdarlıq və sevgi ilə,**

*Valentina ANTONENKO,*
*Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni laureatı*

***

**Zati-aliləri, cənab Prezident!**

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırırıq. Sizin liderliyiniz və Azərbaycanın inkişafına sadiqliyiniz həqiqətən də yüksək təqdirə layiqdir. Xalqınızın firavanlığı və dinc gələcəyi üçün göstərdiyiniz fədakarlığı yüksək qiymətləndiririk.

Azərbaycan xalqı demokratiya, institusional və iqtisadi inkişafa sadiqliyini bir daha nümayiş etdirərkən biz bu tərəqqi yolunda inamlı mübarizənin şahidi olmaqdan şərəf duyuruq.

Sizin Azərbaycanın gələcək inkişafı ilə bağlı planlarınız bizim hər birimizi ilhamlandırır. Sizin həmin planları həyata keçirməyə qadir olduğunuza əminik. Sizin prezidentliyiniz dövründə Azərbaycan uğurların və sabitliyin parlaq nümunəsinə çevrilmiş, regionda və onun hüdudlarından kənarda öz rolunu və əhəmiyyətini gücləndirmiş, ərazi bütövlüyünü bərpa etmişdir.

Müstəsna nailiyyətlərinizə, həm regional, həm də qlobal sülhə və sabitliyə olan sarsılmaz sədaqətinizə görə Sizi alqışlayırıq.

Biz daha sabit, dinc və qaydalara əsaslanan beynəlxalq nizamın təşviqinə birgə səylərimizlə töhfə verməkdən şərəf duyuruq.

Bu əlamətdar hadisə münasibətilə Sizi və Azərbaycan xalqını bir daha təbrik edirik. Biz inkişaf yolunda birlikdə davam etməyə ümidlə baxır və Qəyyumlar Şurasının üzvləri olaraq bu ilin mart ayında

XI Qlobal Bakı Forumunda Sizinlə görüşməyi səbirsizliklə gözləyirik.

Hörmətlə,

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri:*
*Vayra Vike-FREYBERQA,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,*
*1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti*
*İsmail SERAGELDİN,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,*
*1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti*
*Eka TKEŞELAŞVİLİ,*
*2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini*
*Rosen PLEVNELİYEV,*
*2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti*
*İvo YOSİPOVİÇ,*
*2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti*
*Zlatko LAQUMCİYA,*
*Bosniya və Herseqovinanın BMT-də daimi nümayəndəsi, 2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri*
*Kolinda Qrabar-KİTAROVİÇ,*
*2015-2020-ci illərdə Xorvatiya Respublikasının Prezidenti Tzipi LİVNİ,*
*2006-2009-cu illərdə İsrailin Baş nazirinin müavini, xarici işlər naziri*
*Milisa Pjanoviç-DURİSİÇ,*
*2012-2016-cı illərdə Monteneqronun müdafiə naziri,*
*2006-2012-ci illərdə xarici işlər naziri*
*Petar STOYANOV,*
*1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti*
*Mladen İVANİÇ,*
*2014-2015, 2016-2017-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri*
*Boris TADİÇ,*
*2004-2012-ci illərdə Serbiyanın Prezidenti*
*Ekmələddin İHSANOĞLU,*
*2004-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi*
*Kirill QABURİÇİ,*
*2015-ci ildə Moldovanın Baş naziri*
*Ana BİRÇAL,*
*2018-2019-cu illərdə Rumıniyanın Baş nazirinin müavini və ədliyyə naziri*
*Valdis ZATLERS,*
*2007-2011-ci illərdə Latviyanın Prezidenti*
*Peter MEDEŞİ,*
*2002-2004-cü illərdə Macarıstanın Baş naziri*
*Petru LUÇİNSKİ,*
*1997-2001-ci illərdə Moldovanın Prezidenti*
*Coys BANDA,*
*2012-2014-cü illərdə Malavinin Prezidenti*
*Emil KONSTANTİNESKU,*
*1996-2000-ci illərdə Rumıniyanın Prezidenti*
*Volkan BOZKIR,*
*BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri*
*Əmr MUSA,*
*2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi Şövkət ƏZİZ,*
*2004-2007-ci illərdə Pakistanın Baş naziri*

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Seçkilərin yüksək nəticələri Sizin rəhbərliyinizlə aparılan, başlıca məqsədi Azərbaycanın birliyinin və ərazi bütövlüyünün möhkəmləndirilməsi, vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, sülhün və təhlükəsizliyin, ölkədə millətlərarası və konfessiyalararası münasibətlərin gücləndirilməsi olan düşünülmüş siyasi və iqtisadi dövlət kursuna ümumxalq dəstəyini bütün aşkarlığı ilə göstərdi.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsində müvəffəqiyyətlər, Azərbaycan xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

*Ruslan AUŞEV,*
*Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı*

# Liderlər İlham Əliyevi prezident seçkilərində qələbə münasibətilə təbrik ediblər

***Fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Vladimir Putin İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Vladimir Putinə minnətdarlığını ifadə edib.

Dövlət başçıları müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

*

***Fevralın 8-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Şarl Mişel fevralın 7-də Azərbaycan Respublikasında keçirilmiş seçkilərdə qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edib və yeni mandatın icrasında dövlətimizin başçısına uğurlar arzulayıb.

Telefon danışığı əsnasında Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin müxtəlif aspektləri, xüsusilə energetika və nəqliyyat sahəsində əməkdaşlıq məsələləri geniş müzakirə olunub. Şarl Mişel nəqliyyat və bağlantılar sahəsində Avropa İttifaqının region ölkələri ilə əlaqələri inkişaf etdirmək üçün konkret layihələrlə çıxış etdiyini vurğulayıb.

Tərəflər COP29-un Azərbaycanda keçirilməsi və bu çərçivədə Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunublar.

Şarl Mişel üçtərəfli formatda Brüsseldə Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında görüşlərin bərpa edilməsi ilə bağlı Prezident İlham Əliyevdən mövqeyini bildirməsini xahiş edib.

Prezident İlham Əliyev Azərbaycanın həmişə Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən üçtərəfli görüşləri dəstəklədiyini bildirib.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparılıb, Azərbaycan Respublikasının Prezidenti Administrasiyası və Ermənistanın baş nazirinin aparatı arasında dekabrın 7-də ikitərəfli əsasda qəbul edilmiş birgə bəyanatın irəliyə doğru mühüm addım olduğu vurğulanıb.

*

***Fevralın 8-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Qazaxıstan dövlətinin başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi naminə fəaliyyətində uğurlar arzulayıb. Kasım-Jomart Tokayev dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə böyük uğurlar qazanmasının və ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinin önəmini qeyd edib.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan–Qazaxıstan dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

*

***Fevralın 8-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Qırğızıstan Prezidenti dövlətimizin başçısı İlham Əliyevə prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb. Sadır Japarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının önəmini bir daha qeyd edərək, ölkəmizdə sürətli inkişaf proseslərinin getdiyini və dövlətimizin beynəlxalq mövqelərinin daha da gücləndiyini vurğulayıb.

Qırğızıstan dövlətinin başçısı ikitərəfli münasibətlərimizin əsasının Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu ehtiramla qeyd edib.

Sadır Japarov Prezident İlham Əliyevə Azərbaycanın tərəqqisi naminə fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı Azərbaycan və Qırğızıstan prezidentləri ikitərəfli dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da hərtərəfli inkişaf edəcəyinə əminliklərini bildirib və əlaqərimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

*

***Fevralın 8-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Emoməli Rəhmon İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar arzulayıb.

Tacikistan dövlətinin başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illər bütün sahələrdə böyük nailiyyətlər qazanmasının və Azərbaycanın dünyada nüfuzunun daha da artmasının əhəmiyyətini vurğulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Azərbaycan və Tacikistan prezidentləri dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əmin olduqlarını bildirərək əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

*

***Fevralın 8-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Bayram Beqay dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Albaniya ikitərəfli münasibətlərinin inkişafından məmnunluqlarını ifadə ediblər, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliklərini bildiriblər.

*

***Fevralın 8-də İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Neçirvan Bərzani prezident seçkilərində qələbə qazanması münasibətilə İlham Əliyevə təbriklərini çatdırıb, ona fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Neçirvan Bərzani keçirdikləri görüşləri məmnunluqla xatırlayaraq, bunun əməkdaşlığın genişlənməsi işinə xidmət etdiyini vurğulayıblar.

*

***Fevralın 8-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Ersin Tatar prezident seçkilərində inamlı qələbə münasibətilə dövlətimizin başçısını təbrik edib, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın önəminə toxunularaq bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminlik bildirilib.

*

***Fevralın 8-də Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

Dövlət Bağçalı İlham Əliyevə prezident seçkilərində qazandığı qələbə münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Qələbənin və suverenliyimizin tam bərpa olunmasının önəmini bir daha vurğulayıb.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan–Türkiyə dostluq və qardaşlıq əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf edəcəyi vurğulanıb.

***Prezidentin Mətbuat Xidməti***

# İlham Əliyevin yenidən prezident seçilməsi xaricdə məmnunluqla qarşılanıb

**Ukrayna Prezidenti Volodimir Zelenski İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

Bununla bağlı Volodimir Zelenski “X” sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımında Volodimir Zelenski İlham Əliyevə Azərbaycan xalqının rifahı naminə bundan sonra da uğurlu və məhsuldar fəaliyyət arzulayıb.

“Mən ölkələrimizin suverenliyi və ərazi bütövlüyünə qarşılıqlı dəstəyi yüksək qiymətləndirirəm. Dövlətimizin azadlıq mübarizəsinin tarixi dövründə humanitar və digər yardımlara görə Azərbaycana minnətdarıq”, - deyə Ukrayna Prezidenti bildirib.

“Prezident Əliyevlə şəxsi konstruktiv və etibarlı münasibətimi, razılaşmaların həyata keçirilməsini və komandalarımız arasında səmərəli qarşılıqlı fəaliyyəti yüksək qiymətləndirirəm. Əminəm ki, Ukrayna və Azərbaycan arasında strateji əlaqələr yalnız möhkəmlənəcək”, - deyə Volodimir Zelenski təbrikində vurğulayıb.

*

**Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

Nikolas Maduro bununla bağlı sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir: “Azərbaycan xalqını və onun yenidən seçilmiş Prezidenti İlham Əliyevi təbrik edirəm. Liderliyiniz, müdrikliyiniz və humanistliyiniz sayəsində nəcib xalqınızı inkişaf və tərəqqi yolunda irəliyə aparmaqda davam edəcəksiniz. Daha yeni zirvələrə doğru irəli! Yaşasın Azərbaycan!”

*

**Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudes Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

Kuba Prezidenti X sosial şəbəkəsindəki hesabında bununla bağlı paylaşım edib.

Paylaşımda deyilir: “Azərbaycan Prezidenti İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə təbrik edir, ona yeni mandatında uğurlar və xalqına firavanlıq arzulayıram. Hər iki ölkə arasında dostluğu və əməkdaşlığı bundan sonra da möhkəmləndirməyə hazır olduğumuzu bir daha bildirirəm”.

# Əcnəbi heyətlər XİN-də



**Fevralın 8-də xarici işlər naziri Ceyhun Bayramov İordaniya Haşimilər Krallığının Nümayəndələr Palatasının birinci vitse-spikeri Əbdürrəhim Əl-Maayah və İordaniya Senatı sədrinin köməkçisi, İordaniya-Azərbaycan Qardaşlıq Komitəsinin rəhbəri Müflih Ər-Rəhimi ilə görüşüb.**

Qeyd olunub ki, iki ölkə liderləri arasında yüksək səviyyəli əlaqələrin, qarşılıqlı səfərlərin dinamikasında müşahidə olunan artım əlaqələrin daha da inkişafına təkan verir.

Görüşdə diplomatik münasibətlərin əsasının qoyulmasından keçən 30 ildən artıq müddətdə ölkələrimiz arasında siyasi, iqtisadi, ticarət, turizm, təhsil və s. sahələr üzrə ikitərəfli əməkdaşlığın, habelə regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və s. çoxtərəfli platformalar çərçivəsində qarşılıqlı dostluq və həmrəyliyə əsaslanan dəstəyin nümayiş etdirilməsinin təqdirəlayiq olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov cari ildə ölkəmizdə keçiriləcək COP29-la bağlı görülən təşkilati tədbirlər barədə qarşı tərəfə məlumat verib.

Qarşı tərəf növbədənkənar prezident seçkilərinin uğurlu təşkili, habelə nəticələri ilə bağlı təbriklərini çatdırıb, ölkəmizə və xalqımıza davamlı inkişaf və rifah arzu edib.

**Fevralın 8-də xarici işlər naziri Ceyhun Bayramov Braziliya Federal Senatında Braziliya–Azərbaycan dostluq qrupunun rəhbəri, senator Nelsinyo Tradın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Braziliya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi perspektivləri, artan siyasi təmaslar, ikitərəfli məsləhətləşmələr mexanizmi üzrə planlar müzakirə olunub.

Azərbaycan Hökuməti ilə Braziliya Hökuməti arasında Ticarət və investisiya əməkdaşlığı üzrə birgə işçi qrupunun növbəti görüşünə hazırlığın əhəmiyyəti diqqətə çatdırılıb.

Söhbət zamanı, həmçinin bu il ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ikitərəfli əlaqələrin inkişafı, habelə COP30-u keçirən ölkə kimi Braziliya ilə əlaqələndirmə işlərinin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

***XQ***

# Milli Məclisdə beynəlxalq müşahidəçilərlə görüşlər

**Milli Məclisin Sədri Sahibə Qafarova prezident seçkilərini müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan beynəlxalq parlament təşkilatlarının nümayəndə heyətləri ilə görüşlər keçirib. Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyası, Ərəb Parlamenti və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin nümayəndə heyətləri ilə keçirilən görüşlərdə 7 fevral – növbədənkənar prezident seçkilərinin yüksək beynəlxalq standartlara uyğun və demokratik şəraitdə keçirildiyi qeyd olunub.**



Spiker bu seçkilərin 30 ilə yaxın işğaldan sonra ilk dəfə bütün ərazilərimizdə keçirildiyini, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri nəticəsində öz evlərinə qayıdan vətəndaşlarımızın ilk dəfə öz doğma torpaqlarında səs verdiyini diqqətə çatdırıb.

S.Qafarova prezident seçkilərinin yüksək beynəlxalq standartlara uyğun, azad və ədalətli şəkildə keçirildiyini bildirib. O, prosesin tam şəffaf təşkili üçün ümumilikdə, 90 min müşahidəçi qeydiyyatdan keçirildiyini vurğulayıb. Onlardan 790 nəfəri beynəlxalq müşahidəçilərdir. Bu müşahidəçilərin mütləq əksəriyyəti seçkilərlə bağlı müsbət fikirlərini ifadə ediblər. Eyni zamanda, prosesin media nümayəndələri tərəfindən hərtərəfli işıqlandırılması üçün hər cür şərait yaradılıb.

Görüşlərdə beynəlxalq parlament təşkilatlarının nümayəndə heyətlərinin üzvləri prezident seçkilərinin yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırıblar. Qonaqlar bir sıra seçki məntəqələrində səsvermə prosesini canlı izlədiklərini, həm seçkilərə hazırlığın yüksək səviyyədə həyata keçirilməsindən, həm də səsvermə günü prosesin beynəlxalq standartlara uyğun təşkilindən məmnunluqlarını ifadə ediblər. Seçicilərin yüksək fəallığı əsas məqamlardan biri kimi qeyd olunub.

*

Dünən Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Şurasının və Belarus Respublikası Milli Məclisi Respublika Şurasının nümayəndə heyətləri ilə görüşlər keçirib.

Görüşlərdə Azərbaycanda prezident seçkilərinin beynəlxalq normalara uyğun keçirilməsi üçün yaradılan şərait və prosesin yüksək səviyyədə baş tutması barədə məlumat verilib. Qeyd olunub ki, Azərbaycan gənc müstəqil dövlət olmasına baxmayaraq, kifayət qədər zəngin demokratik seçki təcrübəsinə malikdir. 7 fevral - növbədənkənar prezident seçkilərinin də demokratik, azad, ədalətli və şəffaf şəkildə keçirilməsi üçün bütün müvafiq tədbirlər görülüb. Seçkiləri müşahidə edən yerli və xarici müşahidəçilər də bu faktları təsdiq ediblər.

Bununla yanaşı, ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair qarşılıqlı maraq doğuran məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*

Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün ölkəmizdə səfərdə olan İtaliya parlamentinin və Serbiya Milli Assambleyasının müşahidə missiyalarının üzvləri ilə görüşlər keçirib.

S.Qafarova prezident seçkilərini müşahidə etdikləri üçün qonaqlara minnətdarlığını bildirərək, qeyd edib ki, bu seçkilər ölkəmiz üçün xüsusi əhəmiyyətə malikdir. İlk dəfə olaraq, seçkilər Azərbaycanın bütün suveren ərazilərində, o cümlədən işğaldan azad olunmuş ərazilərində keçirilib. Spiker işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsinin qurulduğunu və seçki məntəqələrində bütün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

***Ə.BƏDƏLOV***
***XQ***

# Ukrayna Ali Radası AŞPA-nı və Milli Məclisi dialoqa çağırıb

**Ukrayna Ali Radasının Xarici siyasət və parlamentlərarası əməkdaşlıq komitəsi Avropa Şurası Parlament Assambleyasını və Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsini dialoq və əməkdaşlığa çağırıb.**

Ali Radanın Xarici siyasət və parlamentlərarası əməkdaşlıq komitəsi bununla bağlı rəsmi müraciət qəbul edib.

Müraciətdə qeyd olunub ki, AŞPA-nın 2024-cü il qış sessiyası zamanı yaranmış vəziyyəti və Azərbaycan parlamentinin nümayəndə heyətinin səlahiyyətlərinin təsdiq edilməməsini nəzərə alaraq, Ukrayna Ali Radasının Xarici siyasət və parlamentlərarası əməkdaşlıq komitəsinin 2024-cü il 7 fevral tarixli iclasında hər iki tərəf üçün müraciət qəbul edilib.

Komitə müraciətində AŞPA-nı və Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsini danışıqlar prosesinə qayıtmaq və konstruktiv dialoq yolu ilə fürsət tapmağa çağırır. “Bu gün nə qədər kəskin görünsə də, hər iki tərəfi problemləri demokratiya və qanunun aliliyi prinsiplərini rəhbər tutaraq həll etməyə çağırırıq”, - deyə müraciətdə vurğulanıb.

# Xocalıda kütləvi məzarlıq aşkar edilib



**İşğaldan azad olunan Xocalı rayonunda kütləvi məzarlıq aşkar edilib.**



Əsgəran qalasının yaxınlığında aşkarlanan məzarlıqda azı 8 insan qalığı var. Qalıqların Xocalı faciəsi zamanı qətlə yetirilən sakinlərə məxsus olması ehtimal edilir.

Müvafiq qurumların nümayəndələri yerli və xarici jurnalistlərin iştirakı ilə kütləvi məzarlığa baxış keçiriblər.



# "Dəmir yumruq"lu və Zəfər bayraqlı lider

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasına uğurla rəhbərlik edən, ölkəmizi və xalqımızı yeni tarixi inkişaf mərhələsinə çatdırmış, 7 fevral seçkilərində qazandığı möhtəşəm qələbə ilə tariximizə silinməz izlər salmış, 20 illik inkişafın möhtəşəm hesabatını təqdim edən İlham Əliyev həm də daha böyük gələcəyə təminat verə bilən lider olduğunu da təsdiqləmişdir.

Azərbaycan tarixində xüsusi mərhələ olan 2003-2023-cü illər Prezident İlham Əliyevin siyasi hakimiyyətinin birinci dövrünün epopeyası, 7 fevral 2024-cü il seçkilərində qazanılmış tarixi qələbə isə Ali Baş Komandanın daha böyük gələcəyə çağırışlarını ifadə edən manifestidir. Bu, müstəqil dövlətçilik manifestinin ideya müəllifi uzaqgörən dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev, baş qəhrəmanı və böyük sükançısı isə müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir. Bütün bunlara görə 7 fevral 2024-cü il prezident seçkiləri müstəqillik tariximizin möhtəşəm yekunu, yeni tarixi epoxanın böyük başlanğıcı və paroludur. Dünyanın gözü qarşısında 7 fevral seçkilərində mühüm tarixi qələbə qazanmış Azərbaycan xalqı böyük qürur hissi ilə İlham Əliyevə səs verməklə özünün yeni zəfərlər vəd edən daha böyük gələcəyinə mandat almışdır.

Daşıdığı dərin mənaya və zərurətə görə 7 fevral 2024-cü il prezident seçkilərini Azərbaycan tarixində yalnız ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəldiyi 3 oktyabr 1993-cü il seçkiləri ilə müqayisə etmək olar. Azərbaycanda dərin böhranların yaşandığı, müstəqilliyin itirilmək təhlükəsinin meydanda olduğu həmin məsuliyyətli sınaq dövründə xalqımız birmənalı şəkildə zəngin təcrübəyə malik olan, dünya şöhrətli görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizi xilas edəcəyinə böyük ümid və inam bəsləmişdir. Bu baxımdan 3 oktyabr 1993-cü il seçkilərində xalqımız Heydər Əliyevin simasında öz taleyinə, sabahına səs vermişdi. Tarix Heydər Əliyevin xilaskarlıq missiyasının timsalında xalqımızın nə qədər müdrik olduğunu sübut etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev dövlət müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etmək və inkişafın növbəti mərhələsinin möhkəm təməllərini yaratmaqla tarixin gedişatını dəyişdirməyi bacardığını isbat etmişdir.

Məlum olduğu kimi, hazırkı 7 fevral 2024-cü il seçkiləri isə 3 oktyabr 1993-cü il seçkilərindən fərqli olaraq, müstəqil dövlətimizin böyük sürətlə inkişaf etdiyi, ölkəmizin Qarabağ müharibəsində tarixi Zəfər qazandığı, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təsdiq olunduğu bir şəraitdə keçirilmişdir. Xalqımız 3 oktyabr 1993-cü il seçkilərində dövlət müstəqilliyimizi itirməmək və möhkəmləndirmək üçün Heydər Əliyevlə müqayisə oluna bilən digər bir lider görmədiyi kimi, 7 fevral 2024-cü il seçkilərində də ölkəmizi gəlib çatdığı Zirvədə qoruyub saxlamaq və yeni zirvələrə doğru aparmaq bacarığında da İlham Əliyevdən başqa heç bir alternativ namizəd haqqında fikirləşməli olmamışdır. Bu mənada Azərbaycan xalqı 3 oktyabr 1993-cü ildə hansı böyük inamla prezident seçkilərinə getmişdisə, 7 fevral 2024-cü il seçkilərində də həmin qətiyyətlə və eyni qürur hissi ilə seçkilərdə öz sözünü demişdir. Ona görə də 3 oktyabr 1993-cü il prezident seçkilərində görkəmli dövlət xadimi Heydər Əliyevin ölkə rəhbəri seçilməsi ilə müstəqilliyini itirmək təhlükəsinin aradan qalxmasını bayram edən xalqımız 7 fevral 2024-cü il seçkilərində də müzəffər Ali Baş Komandan İlham Əliyevə mandat verməklə müstəqil dövlətimizin Zəfərdən-Zəfərlərə doğru inkişaf edəcəyinə böyük inamının real təntənəsini yaşamışdır. Bu cəhətdən dövlətçilik baxımından Heydər Əliyevin dəmir iradəsi ilə İlham Əliyevin "dəmir yumruğ"u bir-birini tamamlayır və daha da gücləndirir. Bütün bunlar isə Heydər Əliyev – İlham Əliyev epoxasının Azərbaycan çoxəsrlik tarixində yeni bir tarixi dövr olduğunu əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Prezidenti İlham Əliyev XXI əsrin dünya liderlərindən biridir. Müstəqillik dövründə yaranmış yeni dövlətlərdən heç biri Prezidenti İlham Əliyev qədər öz xalqına böyük tarixi zəfərlər qazandıra bilməmişdir. Belə ki, bəzi ölkələrdə iqtisadiyyat, digərlərində turizm və nəqliyyat, başqa birində aqrar sahə, yüngül sənaye sahələrindən ikisi-üçü üstünlük qazandığı halda, Azərbaycan Respublikasında Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələri yüksək templərlə inkişaf etməkdə davam edir. Qədim neft ölkəsi olan Azərbaycan da bu gün dövlət büdcəsinin formalaşmasında qeyri-neft sahələri: aqrar sektor, nəqliyyat – logistika, turizm, xidmət sahələri xüsusi çəkiyə malikdir. Həm də ölkəmizdə bütün sahələr dəqiq proqnozlaşdırılmış Dövlət proqramları və özəl sektorun birgə iştirakı ilə məqsədyönlü şəkildə inkişaf etdirilir.

Prezident İlham Əliyev uzaqgörən rəhbər kimi bu günün reallıqlarını obyektiv şəkildə qiymətləndirdiyi kimi, sabahın üfüqlərini də doğru-düzgün proqnozlaşdıran liderdir. Ona görə də Azərbaycan Respublikasında bütün sahələr üzrə davamlı və dayanıqlı inkişaf təmin olunmuşdur. Müstəqil Azərbaycan dövlətinin irəliyə doğru inkişafının əsasında Prezident İlham Əliyevin yüksək idarəetmə bacarığı dayanır. Çoxillik uğurlu dövlətçilik təcrübəsi ilə, o, sözün əsl mənasında, böyük siyasətdə olduğu kimi, böyük idarəetmə sahəsində də məharətli bir qrosmeystr olduğunu nümayiş etdirir.

Prezident İlham Əliyev müstəqil siyasət həyata keçirən liderdir. "Sözümüz imzamızdır" devizi İlham Əliyevin sözü ilə özünün, ideyası ilə iradəsinin möhkəm bir vəhdət təşkil etməsinin təsdiq olunmuş tezisidir. Dövlət başçısının möhkəm daxili-mənəvi müstəqilliyi onun siyasi müstəqilliyinin möhkəm bünövrəsidir. Bu mənada Prezident İlham Əliyevin müstəqil siyasət həyata keçirməsi Azərbaycan Respublikasının müstəqil dövlətçiliyinin əsas təminatıdır. Müstəqil Azərbaycan dövləti dünyanın heç bir blokundan və ya dövlətindən asılı deyildir. Prezident İlham Əliyevin hesabat verdiyi yalnız bir ünvan vardır ki, o da dərin sədaqətlə və böyük bacarıqla rəhbərlik etdiyi Azərbaycan xalqıdır. Xalqın dönməz dəstəyini qazanmaq İlham Əliyevin müstəqil dövlətçilik siyasətinin əsasını təşkil edir.

Ölkədaxili siyasətlə xarici siyasəti üzvü surətdə əlaqələndirmək baxımından da İlham Əliyev mahir dövlət xadimidir. Çünki Prezident İlham Əliyevin xarici siyasətdə də, daxili siyasi gedişatda da müqəddəs hesab etdiyi yalnız bir marağı vardır ki, o da Azərbaycan xalqının milli maraqlarından və müstəqil ölkəmizin dövlətçilik mənafelərindən ibarətdir. Ölkəmizin daxili və xarici siyasəti bir yerdə, bütövlükdə, Azərbaycan idealına həsr olunmuşdur. Prezident İlham Əliyev Azərbaycan idealının şərəfini Birləşmiş Millətlər Təşkilatının mötəbər xitabət kürsüsü, beynəlxalq təşkilatların tribunaları, dünya dövlətləri liderlərinin danışıqlar masası səviyyəsinə qaldırmışdır. İlham Əliyevin daxili siyasətinin baş qəhrəmanı, xarici siyasətinin isə əsas strategiyası Azərbaycan idealından ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın gözündə ən uca məqam olan müzəffər Ali Baş Komandan statusu qazanmışdır. Məlum olduğu kimi, müzəffər Ali Baş Komandan statusunu, o, 44 günlük Vətən müharibəsindəki, sözün əsl mənasında, təkrarsız qəhrəmanlığı ilə qazanmışdır. Sərkərdəsi olduğu Azərbaycan Ordusunu hərbi cəhətdən düzgün istiqamətləndirən Ali Baş Komandan İlham Əliyev informasiya cəbhəsində təkbaşına apardığı müharibənin də yenilməz qəhrəmanıdır. Bu mənada "dəmir yumruq" Ali Baş Komandanın həm müharibə cəbhəsindəki və həm də informasiya müharibəsindəki dəmir iradəsinin simvoludur. Ali Baş Komandan İlham Əliyev hər iki cəbhənin: real döyüş cəbhəsinin və həm də informasiya müharibəsinin qalibidir. Prezident İlham Əliyev beynəlxalq münasibətlərdə də, ölkədaxili siyasətdə də qalibdir. Müzəffər sözü – qalib sözünün sinonimidir. Bu vaxta qədər ki, çoxcəhətli fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, 7 fevral 2024-cü il seçkilərində də İlham Əliyev, sözün əsl mənasında, qalibiyyət nümunəsi göstərmişdir. Bu isə artıq Azərbaycan Respublikasının bütün ərazisində dalğalanmaqda olan Zəfər bayraqlarının ədəbiyyət qazanmasının təntənəsidir.

Dünya şöhrətli görkəmli qırğız yazıçısı Çingiz Aytmatov hələ XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdə yüksək liderlik xüsusiyyətlərinin olduğunu aşağıdakı kimi ifadə etmişdir: "İlham Əliyev XXI əsrin lider etalonudur".

Doğrudan da İlham Əliyev özünün çoxcəhətli uğurlu fəaliyyəti, ölkəsinə və xalqına qazandırdığı böyük qələbələri, xarakterindəki müstəqil mövqeyə malik olmaq xüsusiyyəti, möhkəm siyasi iradəsi etibarilə yeni tarixi epoxanın liderlik missiyasına nümunədir. Bu cəhətdən 7 fevral 2024-cü ildə Azərbaycan xalqının dünyaya nümayiş etdirdiyi birlik və mütəşəkkillik qalib liderə bəslənilən möhkəm inamın canlı təntənəsidir. 7 fevral 2024-cü ildə seçki məntəqələrinin qarşısındakı sıralar və növbələr dərin mahiyyəti etibarilə xalqımızın Prezident İlham Əliyevə bəslədiyi sarsılmaz inamla böyük ümumxalq vəhdətinin ifadəsidir.

Prezident İlham Əliyev "dəmir yumruq"lu və Zəfər bayraqlı Azərbaycan lideridir.

Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevi növbədənkənar seçkilərdə qazandığı qanunauyğun növbəti böyük qələbə münasibəti ilə ürəkdən təbrik edir, müstəqil Azərbaycan dövlətinin, xalqımızın daha xoşbəxt gələcəyi yollarında möhtərəm liderimizə yeni-yeni uğurlar arzulayıram.

*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın prezidenti,*
*Milli Məclisin deputatı, akademik*

# Beynəlxalq müşahidəçilər: Azərbaycan xalqı xoşbəxt gələcəyinə səs verdi

**Fevralın 8-də Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının müşahidə missiyası növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı keçirib.**

Qurumun rəsmisi, Qazaxıstan Parlamenti Senatı sədrinin müavini, MDB PA-nın beynəlxalq müşahidəçilər qrupunun koordinatoru Jakip Asanov Azərbaycanda növbədənkənar prezident seçkilərinin ölkə qanunvericiliyinin və beynəlxalq standartların tələblərinə uyğun şəkildə keçirildiyini bildirib.

Bu seçkilərin çox əlamətdar hadisə olduğunu, çünki Azərbaycan tarixində ilk dəfə ölkənin beynəlxalq səviyyədə tanınmış bütün ərazilərində keçirildiyini vurğulayan Jakip Asanov azərbaycanlıların öz xoşbəxt gələcəyinə səs verdiklərini deyib.

*

**Fevralın 8-də Rusiya parlamentinin müşahidə missiyası növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı keçirib.**

Nümayəndə heyətinin rəhbəri Qriqoriy Karasin seçkilərin təşkilinin açıq formatda və məqbul səviyyədə olduğunu qeyd edib. O, Bakıda 9-a yaxın seçki məntəqəsini ziyarət etdiyini bildirib.

"İnsanlar səs vermək üçün öz növbəsini gözləyirdilər və onların üzlərində təbəssüm var idi. Bu da çox vacib məqam idi. Mən yaxşı mənada təəccübləndim ki, seçki prosesi geniş zalları olan binalarda keçirilirdi. Seçkilər məhz məsuliyyətli şəkildə və səlahiyyətli çərçivədə təşkil olunmuşdu. Bütün beynəlxalq müşahidəçilərə müşahidə üçün yaxşı şərait yaradılmışdı", - deyə Q.Karasin deyib.

*

**Azərbaycanda seçki prosesi çox şəffaf keçib, heç bir problemə rast gəlinməyib, demokratik dəyərlər dəstəklənib. Həqiqətən seçicilərin aktivliyi çox yüksək olub. İnsanlar bir daha göstərdilər ki, onlar Azərbaycanda demokratiyanın davamlılığına inanır və etibar edirlər.**

Bunu İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Parlament Assambleyasının heyət rəhbəri Salma Coveira Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində aparılan monitorinqin yekunlarına dair brifinqdə deyib.

Ölkəmizə və xalqımıza ən xoş arzularını və təbriklərini çatdıran Salma Coveria bildirib: "Hesab edirəm ki, Azərbaycanda keçirilmiş bu prezident seçkiləri onun daha çox irəliləməsinə və inkişafına, bu prosesin davamlı olmasına öz töhfəsini verəcək. Pakistan və Pakistanın Milli Assambleyası olaraq biz müxtəlif əməkdaşlıq variantlarını bir daha nəzərdən keçirməyə, araşdırmağa, arzularımızı birgə reallığa çevirməyə daim hazırıq. Ümid edirəm ki, bu əməkdaşlığı birgə genişləndirməklə ölkələrimiz regiondakı sülhə və əmin-amanlığa töhfələrini verə, eyni zamanda, aparıcı rol oynaya bilər".



*

**Fevralın 8-də Türk Dövlətləri Parlament Assambleyasının müşahidə missiyası növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı təşkil edib.**

TÜRKPA-nın nümayəndə heyətinin rəhbəri, millət vəkili Osman Mesten seçki prosesinin beynəlxalq standartlara cavab verən Azərbaycanın qanunvericiliyinin tələblərinə uyğun olaraq aparıldığını bildirib.

Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə seçki prosesinin həyata keçirilməsi həm Azərbaycan, həm də Türkiyə üçün mühüm və əlamətdar hadisədir.

"Müşahidə etdik ki, seçki prosesi çox yüksək səviyyədə təşkil olunub. Bütün məntəqələrdə fiziki məhdudiyyətli və gözdən əlil insanlar üçün əlverişli şərait yaradılmışdı. Həmçinin məntəqəyə gələ bilməyənlər üçün evlərə seçki qutuları aparılıb", - deyə millət vəkili qeyd edib.

*

**Bosniya və Herseqovina parlamentinin nümayəndə heyəti növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı fevralın 8-də mətbuat konfransı keçirib.**

Nümayəndə heyətinin rəhbəri Cemal Smajik seçkilərin insidentsiz, ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun keçdiyini deyib.

Bildirib ki, səsvermə zamanı müşahidə etdiklərindən məmnun qalıblar.

"İnsanların ruh yüksəkliyi və çox rahat şəkildə məntəqələrə gələrək səs verməsi prosesin ədalətli və rahat keçməsini deməyə imkan verir. Hər şey qanunvericiliyə və qaydalara uyğun təşkil edilib", - deyə Cemal Smajik vurğulayıb.

# BAMF-ın yekun müşahidə açıqlaması

**Beynəlxalq Avrasiya Mətbuat Fondu prezident seçkilərində müşahidəçilik fəaliyyəti ilə bağlı yekun mətbuat konfransı keçirib.**



Toplantıda qeyd edilib ki, BAMF Himayəçilik Şurasının 7 yanvar 2024-cü il tarixli iclasında növbədənkənar prezident seçkilərində qurumun 50 nəfər müşahidəçi heyəti ilə təmsil olunması ilə bağlı qərar qəbul edilib. Mərkəzi Seçki Komissiyası isə yanvarın 19-da BAMF-ın Azərbaycan ərazisində müşahidəçilik fəaliyyəti aparmasını təsdiqləyib. Seçkiyə qədərki dövrdə BAMF bir neçə dəfə Bakıda və regionlarda müşahidəçi heyət üzvləri üçün təlimlər təşkil edib.

Bildirilib ki, yerli QHT-lərin birləşdiyi "Mənim səsim - Seçki Monitorinq Koalisiyası", "Sivil Toplum Monitorinq Koalisiyası", Milli QHT Forumu müşahidəçiləri və beynəlxalq müşahidəçi korpusu ilə təmsil olunan ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli müşahidəçiləri BAMF-ın Bakı və Tərtər regional ofislərində görüşlər keçirib. Seçki günü isə BAMF-ın müşahidəçilik fəaliyyəti Bakıda baş ofisdən və Tərtər, Füzuli, Beyləqan regional qərargahlarından idarə olunmaqla, səsvermə yekunlaşanadək izlənilib.

Daha sonra göstərilib ki, qurumun müşahidəçiləri, ümumilikdə, 22 dairəni əhatə edən 38 məntəqənin açılışında iştirak ediblər: "50 nəfərlik heyətin 10 nəfəri işğaldan azad olunmuş ərazilərdə – Xankəndi, Şuşa, Füzuli, Xocalı və Ağdərə rayonlarında müşahidəçilik missiyasını yerinə yetiriblər. Onlar həmin rayonlarda 7 dairənin 19 məntəqəsində olublar. BAMF müşahidəçiləri paytaxtda 10, regionlarda 14 dairədə fəaliyyət göstəriblər. Ümumilikdə, ölkə üzrə 32 dairənin 225 məntəqəsində müşahidəçilik missiyası həyata keçirilib. Müşahidəçilər seçki günü sona qədər prosesləri izləyib və məntəqələr üzrə qeydlərini aparıblar. Seçki prosesindən 1600-dən çox foto və video çəkilib".

Mətbuat konfransında qeyd edilib ki, əvvəlki seçkilərdən fərqli olaraq, seçicilərin fəallığı nəzərəçarpacaq dərəcədə yüksək olub: "Açılışında iştirak etdiyimiz 38 məntəqənin hər birində ilk dəqiqələrdən izdiham müşahidə olunub. Səhər saatlarından başlayan izdiham 2 – 2,5 saat davam edib. Hətta bəzi məntəqələrdə seçicilərin sıxlığı 5–6 saatdan çox olub. Müşahidələr onu göstərir ki, əksər məntəqələrdə 85–90 faiz qseçici fəallığı izlənilib. Məcburi köçkün qəsəbələrində və işğaldan azad olunmuş ərazilərdə yerləşən məntəqələrdə seçici fəallığı daha yüksək olub və müşahidəçilərin qeydlərində öz əksini tapıb. Ümumi təəssürat belədir li, seçki prosesi son dərəcə şəffaf və obyektiv şəkildə keçirilib. Seçicilər arasında qadınların və yaşlı təbəqənin xüsusən fəal iştirakı müşahidə olunub".

Açıqlama o da vurğulanıb ki, müşahidəçilərin, həm də medianın fəaliyyətinə lazımi şərait yaradılıb və hər şey göz önündə olub: "Məntəqələrin açılışını, seçkinin yekunlaşmasını və səslərin hesablanmasını müşahidəçilər rahat, maneısiq izləyiblər. Yalnız bir məntəqədə müşahidəçilər üçün ayrılan yer seçki qutuları və səsvermə prosesindən xeyli aralıda yerləşib. Seçki prosesi zamanı seçkilərin nəticələrinə təsir edəcək heç bir qayda pozuntusu aşkarlanmayıb. Seçkilər son dərəcə ədalətli təşkil olunub və əvvəlki seçkilərdən fərqli olaraq pozuntular minimum səviyyədə olub. Müşahidəçilərin qeydlərinə əsasən seçki prosesinə təsir edən yanlışlıqlara yol verilməyib".

Açıqlmanın sonunda bildirilib ki, BAMF-ın müşahidəçi yekun olaraq Mərkəzi Seçki Komissiyasının fəaliyyətini seçki hazırlığını və təşkilatçılığı yüksək qiymətləndirir: "Qanun pozuntularının əvvəlki illərə nisbətən minimuma endirilməsi isə xüsusi qeyd olunmalı haldır".

***XQ***

# Beynəlxalq müşahidəçilər seçkilərin demokratik və şəffaf keçirildiyini bildiriblər

## “Seçkilərə hazırlıq və səsvermə prosesi mükəmməl idi”

**Bu fikirləri Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedev Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində apardıqları monitorinqin yekunlarına dair brifinqdə söyləyib.**



O deyib ki, seçkiləri müşahidə missiyamızda 160 üzv iştirak edib. Məlum səbəblərə görə missiyaya Ermənistan, Ukrayna və Moldova nümayəndələri daxil edilməyib: “Biz seçici aktivliyini gördük, səs vermək üçün növbələr yaranmışdı. Təşkilatçılar tərəfindən bütün proses səriştəli təşkil edilmişdi. Biz seçkilərin yaxşı səviyyədə keçirildiyini müşahidə etdik. Daha bir müşahidəm ondan ibarətdir ki, insanlar seçkiyə ürəkdən, həvəslə yanaşırdı. Seçki marafonuna qoşulan namizədlər əvvəllər prezident seçkilərində iştirak edən təcrübəli, səriştəli insanlar idi. Yəni, adi insanlar prezidentliyə namizədliyini irəli sürməmişdi. Azərbaycanda bu seçkilərin rəqabət mühitində keçirilməsi təqdirəlayiqdir. Namizədlərin hamısına özlərinin proqramları, ideyaları ilə təşviqat aparmaq üçün bərabər imkanlar yaradılmışdı”.

Azərbaycanda növbədənkənar prezident seçkilərinin azad, şəffaf, demokratik prinsiplərə əsaslanaraq keçirildiyini qeyd edən S.Lebedev 7 fevral seçkilərinin qanunvericilik əsasında baş tutduğunu deyib: “Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri Seçki Məcəlləsinin tələblərinə tam cavab verirdi. MDB müşahidəçiləri də hesab edir ki, seçkilərdə əsas istinad nöqtəsi hansısa amorf təşkilatların normativləri deyil, Seçki Məcəlləsi olmalıdır. Qərbi Avropada, ABŞ-da keçirilən seçkilərdə onların öz prinsipləri var. Onlar hesab edirlər ki, namizədlərdən biri mütləq qadın, biri mütləq qaradərili, biri LGBT, biri isə əlil olmalıdır. Bu, bizim üçün əsas sayıla bilməz. Hər bir dövlətin özünün milli Seçki Məcəlləsi əsas istinad sənədi kimi götürülməlidir. Bu sənəd milli qanunvericiliyin təməli kimi götürülməlidir. Biz heç zaman Azərbaycanın daxili işlərinə müdaxilə etməmişik. Bizim xalqlarımız dost və qonşudur. Ümid edirik ki, bu dostluq münasibətləri uzun müddət davam edəcək”.

Çıxış edən nümayəndə heyətinin üzvləri də bu tarixi hadisə ilə əlaqədar Azərbaycan xalqını təbrik ediblər. Onlar seçki prosesinin demokratik prinsiplər əsasında təşkilində yerli QHT, siyasi partiyalar və KİV-in rolunu da vurğulayıblar. MDB müşahidəçiləri seçkinin texniki təchizat baxımından yüksək səviyyədə təmin edildiyini, məntəqələrdə səsvermənin qanunun tələblərinə uyğun şəkildə baş tutması üçün bütün şəraitin yaradıldığını xüsusi qeyd ediblər.



## “Seçim azad və ədalətli aparıldı”

**Növbədənkənar prezident seçkilərinin şəffaf, azad və ədalətli şəkildə keçirilməsi ilə əlaqədar Qoşulmama Hərəkatının Gənclər Təşkilatı bəyanat yayıb. Bu barədə təşkilatın keçirdiyi mətbuat konfransında məlumat verilib.**

Bəyanatda qeyd edilir ki, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı 2024-cü ildə keçirilən seçkilərdə müşahidə statusuna layiq görülüb. Müşahidə missiyamıza bir çox respublikanın təmsilçiləri qatılıb. Bakıda müxtəlif qruplara bölünərək, bir çox məntəqələrdə müşahidələr aparmışıq. Seçkilər açıq, şəffaf, azad və ədalətli aparılıb. Gedəcəyimiz yerləri də özümüz seçdik, heç kim müdaxilə etmədi. Qoşulmama Hərəkatının Gənclər Təşkilatı seçkilərdə seçici fəallığının yüksək olmasını təqdir edir və alqışlayır.

Həmçinin qeyd edilib ki, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı ilk dəfə seçkilərdə müşahidəçi qismində iştirak etdi. Məncə, biz dünyada birinci gənclər təşkilatıyıq ki, müşahidəçi qismində prezident seçkilərində iştirak etmişik. Bu da onu göstərir ki, Azərbaycan gənclərin dünyanın inkişafında roluna yüksək əhəmiyyət verir.

## “Seçkilər açıq və şəffaf şəkildə keçirilib”

**2024-cü ildə Azərbaycanda Prezident seçkiləri demokratik və ədalətli şəraitdə keçirilib. Bu barədə jurnalistlərə ASEAN Parlamentlərarası Assambleyasının komitə sədri Saniya Praseut bildirib.**



O deyib ki, 2024-cü ildə Azərbaycanda keçirilən prezident seçkiləri uğurlu, azad, ədalətli olub və aktiv seçki hüququna malik 18 yaşına çatmış Azərbaycan vətəndaşlarına öz vətəndaşlıq və siyasi hüquqlarından istifadə etmək imkanı verib. Bununla yanaşı bildirib ki, seçki məntəqələri yaxşı təşkil olunmuş, seçicilərə öz seçimlərini sərbəst və tam şəkildə bildirmək imkanı yaradılmışdı. Siyasi partiyalardan olan müşahidəçilərə, yerli və beynəlxalq müşahidəçilərə bütün seçki prosesini yaxından izləmək imkanı verən şəffaf sistem mövcud idi.

Komitə sədri seçkilərin rahat və dinc şəraitdə keçirildiyini bildirib. Məntəqə bağlandıqdan sonra nümayəndə heyətinin üzvü müxtəlif seçki məntəqələrində səslərin sayılması və nəticələrin hesablanması prosesini müşahidə etməkdə iştirak edib, seçkilər açıq və şəffaf şəkildə keçirilib. Səsvermə prosesi Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun təşkil olunub və texniki cəhətdən səmərəli olub.

## “Bu seçkilər inkişaf etmiş ölkələrdəki kimi idi”



**Bu fikirləri növbədənkənar prezident seçkilərini müşahidə etmiş İraq nümayəndə heyətinin rəhbəri Cabbar Al-Çnani mətbuat konfransında bildirib. O deyib ki, Azərbaycanda olmaqdan şadıq, dəvət edildiyimiz üçün minnətdarıq. Azərbaycanda fevralın 7-də prezident seçkilərinin şəffaf, azad və demokratik şəkildə keçirildiyini müşahidə etdik.**

İraqlı müşahidəçilərin seçki məntəqələrində səsverməyə gələnlər arasında sorğu keçirdiyini bildirən nümayəndə heyətinin rəhbəri ümumilikdə 7 məntəqədə olduqlarını diqqətə çatdırıb: “Seçicilərlə söhbətlər apardıq. Müşahidələr göstərdi ki, Azərbaycanda keçirilən bu seçkilər inkişaf etmiş ölkələrdən elə də seçilmir”.

## “Seçki qanunvericiliyi pozulmayıb”

**Fevralın 8-də Özbəkistan parlamentinin müşahidə missiyası Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərinin ilkin yekun nəticələri ilə bağlı mətbuat konfransı təşkil edib. Tədbirdə çıxış edən Özbəkistan Senatının komitə sədri Odiljon İminov seçki prosesini müşahidə etməyin onlar üçün faydalı olduğunu və müşahidə zamanı seçki qanunvericiliyinə zidd halın aşkarlanmadığını bildirib.**

Şuşa və Xankəndi şəhərlərində yerləşən məntəqələrdə seçki prosesini izlədiklərini deyən komitə sədri qeyd edib ki, həmin məntəqələrdə seçki prosesi vaxtında başlamışdı və qutular möhürlənmişdi. Məntəqələrdə ilk dəfə səs verməyə gələn gəncləri gördük. Onlar öz gələcəklərinə səs verirdilər. Məntəqələr, həmçinin veb-kamera ilə təchiz edilmişdi. Seçkiləri işıqlandırmaq üçün media nümayəndələrinə də şərait yaradılmışdı. Seçki prosesi açıq və şəffaf şəkildə keçirildi.



## “Qarabağ seçiciləri yüksək mövqe nümayiş etdirdilər”

**Fevralın 8-də Belarus parlamentinin müşahidə missiyası Azərbaycanda növbədənkənar prezident seçkilərinin ilkin yekun nəticələri ilə bağlı mətbuat konfransı keçirib. Tədbirdə parlamentin Respublika Şurasının sədr müavini Valeri Belski Qarabağda yerləşən iki seçki məntəqəsində səsvermənin gedişini müşahidə etdiyini bildirib.**



Həmin məntəqələrdə seçicilərin yüksək fəallıq nümayiş etdirdiyini diqqətə çatdırıb.

V.Belski deyib ki, seçkilərin şəffaf keçdiyini müşahidə etdim. İnsanlar xoş mərəmla, bayram əhval-ruhiyyəsində prosesə qoşulmuşdular.

## “Bir çox xalqlar seçkilərin belə keçirilməsini arzu edər”

**Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərini müşahidə etmiş İordaniya parlamentinin müşahidə missiyasının rəhbəri Abdelrahim Faleh Obeidallah dünən seçkilərin ilkin yekun nəticələri ilə bağlı keçirilən mətbuat konfransında deyib. İordaniyalı parlamentar deyib ki, bir çox xalqlar seçkilərin bu cür keçirilməsini arzu edər.**



Ötən gün 14 seçki məntəqəsinə baş çəkdiyini diqqətə çatdıran beynəlxalq müşahidəçi həmin məntəqələrdə seçkilərin demokratik və şəffaf şəraitdə keçirildiyinin şahidi olduğunu bildirib.

O, seçkilərin xalqın azad iradəsini ifadə etdiyini bildirib. Qeyd edib ki, heç bir məntəqədə qanun pozuntusuna rast gəlmədik: “Azərbaycan xalqı bir çox üstün mənəvi keyfiyyətlərə sahibdir. Seçkilərin də bu cür yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqına xas olan xüsusiyyətdir”.

## “Seçkilər beynəlxalq standartlara uyğun təşkil edilmişdi”

**Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri zamanı müşahidə aparan kambocalı deputat Mosine Sos seçkilərin beynəlxalq standartlara uyğun təşkil edildiyini bildirib.**



Prezident seçkilərinin monitorinqinin nəticələrini açıqlayan Kamboca parlamentinin nümayəndə heyətinin üzvü, deputat M.Sos deyib ki, seçkilər tam azad və şəffaf şəraitdə keçirilib. Seçkinin təşkilində müasir texnologiyalardan geniş şəkildə istifadə olunması təqdirəlayiqdir.

Onun sözlərinə görə seçkilər beynəlxalq standartlara uyğun təşkil edilmişdi. Bütün namizədlərə bərabər şərait yaradılmışdı. Baş çəkdiyimiz məntəqələr lazımi şərait və zəruri avadanlıqla təmin edilmişdi. Səsvermə prosesi tam şəffaf idi və biz bu prosesi rahat izləyə bildik. Sonda səslərin sayılması beynəlxalq standartlara uyğun keçirildi. Müşahidələrimiz zamanı seçicilərin vəhdətini gördük. Bütövlükdə, səsvermə prosesinin dinc və sərbəst şəraitində keçdiyini müşahidə etdik. Birmənalı deyə bilərik ki, Azərbaycanda seçkilər azad, ədalətli və şəffaf keçirilib. Proses zamanı demokratik mühit hökm sürürdü. Heç hansı zorakılıq, qanun pozuntusu aşkar edilməyib. Azərbaycan hökumətini və xalqını uğurlu seçkilərlə bağlı təbrik edirik.

## “Seçici fəallığı yüksək idi”



**Prezident seçkilərinin monitorinqinin nəticələrini açıqlayan Pakistan parlamentinin nümayəndə heyətinin rəhbəri Faysal Salim Rəhman deyib ki, Azərbaycan Mərkəzi Seçki Komissiyası fevralın 7-də prezident seçkilərinin təşkilini yüksək səviyyədə həyata keçirib.**

Nümayəndə heyətinin rəhbəri medianın seçkiləri işıqlandırması üçün bütün şəraitin yaradıldığını qeyd edib: “Müşahidələrimizə əsasən deyə bilərik ki, seçkilər demokratik prinsiplərə uyğun şəraitdə baş tutub. Gənclərin seçki prosesində aktivliyi xüsusilə diqqət çəkirdi, o cümlədən seçici aktivliyi yüksək səviyyədə idi. Seçkilərin şəffaf və beynəlxalq standartlara uyğun keçirildiyini deyə bilərik”, - deyə Faysal Salim Rəhman deyib.

## “Şuşa və Xankəndidə səsvermə əlamətdar hadisədir”

**Növbədənkənar prezident seçkilərini müşahidə etmiş Türk Dövlətləri Təşkilatının müşahidəçiləri seçkilərin çox şəffaf mühitdə və qanun pozuntusu olmadan keçirildiyini bildirib. Bu barədə təşkilatın Baş katibi Kubanıçbek Ömüralıyev dünən seçkilərin yekunu ilə bağlı keçirdikləri mətbuat konfransında məlumat verib. O deyib ki, Azərbaycanda seçkilər müvafiq qayda və qanunlara uyğun olaraq təşkil edilib, şəffaf şəkildə və heç bir qanun pozuntusu aşkarlanmadan keçib.**



Baş katib deyib ki, seçki günü missiyamız, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində olub, 22 məntəqəyə baş çəkib. “Müşahidəçilərimiz Şuşa və Xankəndidə səsvermə prosesini izləyiblər. Bu, çox əlamətdar hadisədir. Həm Bakıda, həm də işğaldan azad edilmiş ərazilərdə bütün prosedurlara və səsvermənin gizliliyinə riayət olunub”.

*Səhifəni hazırladı:*
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Baş nazirin islahat məntiqi:

## Ermənistanı "sıfırdan yığmaq" zərurəti

(əvvəli 1-ci səhifədə)

**Aydındır ki, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi konkret mahiyyət daşıyan təmayüldür. Bunun qiymətləndirilməsi baxımından zəruri sənəd elə sülh sazişinin özü olmalıdır. Hansısa tərəf qüvvəyə minmiş müqavilənin şərtlərini daxili qanunvericiliyə uyğunsuzluq baxımından əsaslandıra bilməz. Çünki sənəd imzalanırsa, onun ölkələrin nəinki qanunlarına, o cümlədən, maraq və mənafelərinə uyğunluğu əvvəlcədən nəzərə alınır. Prinsipial məqam budur.**

Bəs Azərbaycan nə üçün İrəvanla sülh məsələsində Ermənistan konstitusiyasının dəyişdirilməsi üzərində dayanır? Çünki Bakı sülh mühitinin etibarlılığına əmin olmaq istəyir. Daha doğrusu, əmin olmaq üçün vasitələr axtarır. Ermənistan Konstitusiyasında qonşu dövlətlərə qarşı ərazi iddiaları varsa, istənilən müqavilə gələcəkdə şübhə altına düşə bilər. Deməli, nəinki Ermənistanın hazırkı hakimiyyəti, bütövlükdə erməni xalqı öz mövqeyini bildirməlidir. Nəzərə alınmalıdır ki, hakimiyyətlər gəlib-gedərdir, xalq isə əbədidir. Xalq qəti mövqeyini ortaya qoymalı və bu suallara cavab verməlidir: ona qonşuların ərazisi lazımdır, ya yox? Yaxud, xalq Ermənistanın hazırkı ərazisi ilə kifayətlənirmi?

Paşinyanın vurğuladıqlarının əleyhinə olaraq bildirək ki, hazırda Ermənistan konstitusiyası heç də, ilk növbədə, ölkənin daxili həyatının təşkili traktatı deyil. Nikol yalnız onu düzgün vurğulayır ki, istənilən ölkənin konstitusiyası həm də xarici əlaqələri tənzimləyir. Və deməli, onun iki fikri arasında təzad var. Ancaq bu məqamı keçmək olar, çünki bizim üçün əsas olan nəticədir. Nəticə isə budur ki, Ermənistanda konstitusiya dəyişikliyi mövzusu geniş müzakirə doğurmaqdadır. Müzakirə ölkənin mövcud iqtidarını qınamağa köklənib. Bildirilir ki, Paşinyan hakimiyyəti müasir Ermənistan dövlətçiliyinin əsaslarını sarsıdır, xəyanətkar mövqe tutur və sair və ilaxır. Daha bir nəticə hasil olur ki, erməni xalqı qonşularına münasibətdə yaramaz mövqe tutmaqdan daşınmaq istəmir. Baş nazir və komandası mövcud "düşüncəni" dəyişdirmək əzmindədirsə, buyursun. Amma necə?

Ümid edək ki, N.Paşinyanın indi diqqətə çatdırdığımız fikirləri də haqqında söz açdığımız sərsəm baxışı korrektə niyyəti güdür. Baş nazir vurğulayır ki, Ermənistan yeni şəraitdə xarici dünya ilə münasibətləri barədə düşünməlidir. "Dünyada heç bir şey hazırkı konstitusiyanın qəbulu şəraitində olduğu kimi deyil. Heç bir xarici əlaqələr əvvəlki kimi qalmayıb", – deyən Paşinyan mövcud meyilin təkcə Ermənistana aid olmadığını bildirib. Bu yerdə Nikol son dərəcə vacib məqama keçid alır.

Bəli, Paşinyan, faktiki olaraq, Ermənistanda dövlət təfəkkürünün olmadığını vurğulayır. Onun sözlərinin təhlili göstərir ki, emənilər dövlət milləti adına iddia etməyə layiq deyillər. Həqiqətən



də erməni dövləti adlı məhfum mifdən o yana keçmir. Diqqət yetirək, 1918-ci ildə Ermənistan əzəli Azərbaycan torpaqlarında yaradıldı, yəni özgə torpağının qəsbi üzərində qərarlaşdı. 1991-ci ildə formalaşmış müstəqil respublika da ideoloji xəttini işğalçılıqdan götürdü. Paşinyan isə bir qədər əvvəl haqqında söz açdığımız məqama – xalqın seçiminin zəruriliyinə diqqət yetirir. O, daha bir son dərəcə vacib məsələyə toxunur və bildirir ki, konstitusiya azad fikir əsasında qəbul edilməli, ölkə vətəndaşlarının həyat qaydalarını müəyyənləşdirməlidir. Çünki indiyədək olan ana qanunların heç biri xalqın azad iradəsindən irəli gəlməyib, insanlara necə yaşamağı həmişə elita diktə edib. Konstitusiya dəyişikliyindəki ən ümdə vəzifə isə xarici mühitdə daha möhkəm və təhlükəsiz olmaqdır.

Bəli, Paşinyan hazırkı konstitusiyanın xarici təhlükəsizlik təminatı baxımından qeyri-məqbulluğu amilinə söykənir. Başqa sözlə desək, daxildəki sərsəm düşüncənin xarici zərərlərini anladır. Elə Azərbaycan rəhbərliyinin vurğuladığı məqam da budur. Erməni baş nazir deyir ki, ordu və xariclə münasibətlər dövlətin ərazisində beynəlxalq səviyyədə tanınan qanuni maraqlara xidmət etməlidir. Bu, o deməkdir ki, qonşu ölkələrə ərazi iddiası dövlət marağı hesab edilə bilməz və beynəlxalq səviyyədə tanınmır. Maraqlıdır, olmazdımı ki, Nikol bu fikrə "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verib müharibəyə səbəb olmadan gələydi? Görünür, olmazmış. Həm də ona görə olmazmış ki, hazırda Azərbaycanla sülh gündəliyinin vacib komponenti qismində gündəmə gələn konstutusiya islahatlarından söz açan Paşinyanın söylədikləri onun özünə qarşı səslənmiş ittihamlara cavabdır, müqavimət formalaşdırmaq cəhdidir. Belə bir cəhd varsa, erməni düşüncə tərzində destruktivlik hökm sürməkdədir. Deməli, konstitusiya dəyişikliyi ilə bağlı referendumun gözlənilən şüurlu nəticəni doğurmama ehtimalı da aktualdır. Amma başqa bir məqam da var ki, onu yazının sonunda bildirəcəyik...

Müqavimətdən söz düşmüşkən, N.Paşinyan Ermənistanın Azərbaycanla sülh müqaviləsi baxımından irəli sürdüyü 1991-ci ilin Alma-Ata Bəyannaməsinə ölkə daxilində formalaşmış əks fikirlərə qarşı da immunitet yaratmağa çalışır. Əlbəttə, Alma-Ata Bəyannaməsi İrəvanın manipulyasiyası, reallıqları nəzərə almamaq istəyidir. Məsələ isə bundadır ki, avantürist erməni cəmiyyətində, belə demək mümkünsə, Paşinyandan daha yaxşı erməni olmaq istəyənlər var. Onlar bildirirlər ki, sözügedən bəyannamə çərçivəsində Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanımaq yolverilməzdir. Çünki vaxtilə həmin sənəd qəbul edilərkən, Ermənistan ona qeyd-şərtlə qoşulub. Nədir bu qeyd-şərt? Əlbəttə ki, Qarabağ.

Məlumdur ki, 1991-ci il dekabrın 21-də qəbul edilmiş Alma-Ata Bəyannaməsindən əvvəl, daha dəqiq desək, dekabrın 12-də Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində qondarma "referendum" keçirilmiş və azərbaycanlıların boykot etdikləri, yalnız ermənilərin qatıldıqları həmin "prosesdə" bölgənin "müstəqilliyi" qərarı çıxarılmışdı. Məlum olur ki, Ermənistan parlamenti Alma-Ata Bəyannaməsini – Sovetlər Birliyi respublikalarının bir-birinin ərazi bütövlüklərini və suverenliklərini tanıması ilə bağlı sənədi keçmiş SSRİ-nin muxtar ərazilərinin öz müqəddəratını müəyyənləşdirməsi şərtilə ratifikasiya edibmiş. Buna görə də Nikolu günahlandıranlar həmin sənəd əsasında Azərbaycanla sülh müqaviləsinin imzalanmasına qarşı çıxır, bunu hüquqa zidd adlandırırlar.

İndi isə Paşinyan bildirir ki, Ermənistan parlamentinin 1991-ci il Alma-Ata Bəyannaməsini imzalayarkən qoyduğu qeyd-şərt depozitariyə verilməyib. Bu, o deməkdir ki, sözügedən məsələ beynəlxalq hüquq baxımından etibarlı deyil: "Beynəlxalq və yerli qanunlara görə, ölkə Vyana Konvensiyasına uyğun olaraq, qeyd-şərt qoyduğu zaman bunu depozitariyə bildirilməlidir. Biz uzun müddətdir ki, məsələni araşdırırıq və qeyd etmişik ki, Ermənistan bu barədə depozitariyə heç bir məlumat verməyib. Ona görə də beynəlxalq münasibətlər baxımından qeyd-şərtin heç bir hüquqi qüvvəsi yoxdur. 1991-ci il Alma-Ata Bəyannaməsinin ratifikasiyası faktı və sonradan depozitariyə məlumat verilməməsi ilə Ermənistan Respublikasının ərazi bütövlüyünün nə olduğu aydın və birmənalı şəkildə təsbit edilir".

Deməli, N.Paşinyan əvvəllərdə olduğu kimi, Alma-Ata Bəyannaməsini ehkamlaşdırmaqda qərarlıdır. Ermənistan iqtidarının məqsədi həmin sənəd əsasında Azərbaycanla sərhədlərin demarkasiyasının və delimitasiyasının gerçəkləşdirilməsidir. Bəs, bu məntiqdə yolverilməzlik nədən ibarətdir?

Bəli, Paşinyan, bayaq da diqqətə çatdırdığımız kimi, Alma-Ata Bəyannaməsi müstəvisində müxalif daxili qüvvələrin qaldırdıqları oyunların yolverilməzliyini əsaslandırır. İş ondadır ki, sənəd, hər bir halda, manipulyasiya predmetinə çevrilə bilər. Yəni, Nikolun Ermənistan parlamentinin vaxtilə qoyduğu qeyd-şərtin hüquqi mahiyyət daşımadığını bildirməsi heç də keçərli deyil. Paşinyan və komandasının qanunun geriyə işləmədiyini bildirməsi də kifayətdir ki, Alma-Ata Bəyannaməsi heçə sayılsın. Deməli, Qarabağın "müstəqilliyi" qərarının bəyannamədən əvvəl çıxarıldığı məntiqinin əsas götürülməsi də mümkündür. Axı lokal xarakterli antiterror tədbirlərinədək həmin Paşinyan deyirdi ki, Qarabağın özünün seçkili hakimiyyəti var. Deməli, o, separatçı qurumun Ermənistanla bağlılığını inkar edərək, siyasi spekulyasiyaya baş vurmuş adamdır. Və deməli, Azərbaycanla sülh gündəliyinə Ermənistanın, ümumən, Qarabağla bağlı iddiasının olmadığını rəsmi şəkildə bildirməsi əlavə edilməlidir. Bunu dildə demək yetərsizdir. Bütün bu söylədiklərimiz fonunda isə yenə əsas məqam Ermənistanın konstitusiyasıdır. Çünki ölkənin ana qanununun dəyişməsi ölkənin sülh səmimiyyətidir. Hərçənd, bu da tam təminat deyil.

Sonda bir siyasi lətifəni diqqətə çatdırmaqla fikrimizi əsaslandıraq. Deməli, keçmiş sovet rəhbərlərindən olan Stalin, Xruşşov və Brejnev ölkəni necə idarə etdiklərini bilmək üçün Lenini diriltmək və ondan bu barədə soruşmaq qərarına gəlirlər. Sehrbaz tapıb Leninin dirildirlər. Proletariatın ali lideri onlara cavab vermək üçün iki gün möhlət istəyir. Vaxt tamam olur, ancaq Lenini tapa bilmirlər. Nəhayət, onu Moskvanın qırıq-sökük binasının zirzəmisində aşkarlayır və suallarına cavabı öyrənirlər. Leninin cavabı ibrətamizdir: Siz bu ölkəni elə günə qoymusunuz ki, gərək, mən yenidən zirzəmilərdən başlayım.

Əlbəttə, niyyətimiz Paşinyanı Leninə bənzətmək deyil. Ancaq otuz ildən artıq müddətdə Ermənistan elə günə düşüb ki, onu nizama salmaq üçün sıfırdan başlamaq, başqa sözlə, ölkəni söküb yenidən yığmaq lazımdır. Paşinyanın parlamentdəki çıxışının kulminasiya anı da elə bununla bağlıdır. Baş nazir bildirir ki, "Ermənilərin tarixi" fənninin "Ermənistan tarixi" adlandırılması vacibdir və bu, anlayışlar arasındakı əlaqənin başa düşülməsi və öyrənilməsi zərurətindən qaynaqlanır: "Ermənilərin tarixi dövlətçiliyin mövcudluğu epizodları ilə dövlətçiliyin yoxluğu tarixi, Ermənistanın tarixi isə dövlətçiliyin olmaması epizodları ilə dövlətçilik tarixidir. Biz dövlətçiliyin olmaması epizodlarının üstünlüyünü bu gün belə olmayan dövlətçiliyin mövcudluğu epizodlarının üstünlüyü ilə əvəz etmək istəyirik".

Bəli, diqqətə çatdırdığımız lətifənin və qeyd etdiyimiz sitatın fonunda Ermənistandakı konstitusiya islahatları da ölkəni yenidən formalaşdırmaq cəhdidir. Amma əgər bu, göründüyü qədər səmimidirsə. Paşinyan onu da deyir ki, konstitusiya dəyişikliyi ilə bağlı müzakirələr getməlidir. Həqiqətən də erməni ictimai rəyi məsələni düşüncə süzgəcindən keçirməlidir. Ancaq mövcud ritorika çox uzanmamalıdır. Əks halda, məsələ səmimiyyət kontekstindən çıxacaq. Belə nəticə hasil olacaq ki, İrəvan konstitusiya islahatları mövzusunu Bakı ilə sülhdən yayınmaq üçün ortaya qəsdən atıb, məqsədi vaxt udmaq və yeni müharibəyə başlamaq naminə güclənməkdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Paşinyanı ciddi sınaqlar gözləyir

## Konstitusiya müzakirələri fonunda baş nazirin reytinqinin aşağı düşməsi radikalları qane edir

**Ermənistan baş naziri Nikol Paşinyanın reytinqi getdikcə aşağı düşür. Mərkəzi ofisi Vaşinqtonda yerləşən ABŞ-ın "GALLUP International Association" analitika və məsləhət şirkətinin Ermənistan nümayəndəliyinin keçirdiyi sorğunun nəticələri bundan xəbər verir.**

"GALLUP"un Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan keçirdiyi mətbuat konfransında bildirib ki, vətəndaşların baş nazirə inamının səviyyəsi azalıb. Sorğunun nəticələrinə görə, 1000 nəfər arasında keçirilən sorğuda respondentlərin 38,1 faizi Paşinyana, ümumiyyətlə etibar etmədiklərini bildirib. Rəyi soruşulanların cəmi 15,1 faizi hökumət başçısına tam etibar etdiyini vurğulayıb. Respondentlərin 13,9 faizi Paşinyana güvəndiyini, 28,3 faizi isə az güvəndiyini qeyd edib. Sorğuya qatılanların 4,6 faizi cavab verməkdə çətinlik çəkib.

Eyni zamanda, sorğu zamanı son vaxtlar Ermənistan siyasi gündəminin aktual mövzularından olan konstitusiyaya düzəlişlər, yaxud yeni əsas qanunun qəbuluna dair də hayların fikirləri öyrənilib. Beləliklə, iştirakçıların 38,1 faizi konstitusiyanın dəyişdirilməyəcəyini, 34,2 faizi bəzi müddəaların dəyişdiriləcəyini, 13,4 faizi isə yeni əsas qanunun qəbulunun lehinə olduğunu bildirib.

Qeyd edək ki, Ermənistan konstitusiyası 1995-ci il iyulun 5-də referendum yolu ilə qəbul olunub. 2005-ci ilin noyabrında və 2015-ci ilin dekabrında ona düzəlişlər edilib. Sonuncu düzəlişdən sonra ölkə prezident üsul-idarəsindən parlament idarəetməsinə keçib. Həmin vaxt ölkəyə rəhbərlik edən Serj Sarkisyanın düzəlişlərin edilməsində məqsədi var idi. Məsələ onda idi ki, 2018-ci ildə Sarkisyanın prezident kimi (ikinci dönəm) səlahiyyət müddəti başa çatırdı. O isə baş nazir olaraq ölkəyə rəhbərlik etmək xəyalında idi. Hiyləgərlikdə tayı-bərabəri olmayan Sarkisyan məqsədinə addım-addım yaxınlaşdı. Nəhayət, öz partiyadaşı olan baş nazir Karen Karapetyanı, necə deyərlər, aşıraraq baş nazir kürsüsünə yiyələndi. Ancaq onun sevinci uzun çəkmədi. 2018-ci il aprelin 17-də baş nazir "seçilən" Sarkisyan bir neçə gün sonra – aprelin 23-də geniş xalq kütlələrinin təzyiqi nəticəsində istefa verməyə məcbur oldu. Artıq hakimiyyəti əla almış Paşinyan tərəfdarları baş nazir vəzifəsinin icrasını müvəqqəti olaraq, Karapetyana tapşırdılar. Müəyyən hüquqi prosedurlar başa çatdıqdan sonra – mayın 8-də Paşinyan baş nazir oldu.

İlk dövrlərdə Nikolun ölkədə populyarlığı xeyli yüksək idi. Haylar ona "Qarabağ klanı"nın ölkəyə rəhbərlik etdiyi 20 ildən çox dövrdə yığılıb qalmış bütün problemləri – korrupsiya və rüşvətxorluğu, ölkənin təbii sərvətlərinin talanmasını, iqtisadi durğunluğu, məhkəmə sistemindəki özbaşınalığı, ordudakı hərc-mərcliyi, həmçinin Qarabağ məsələsini bir "sehrli toxunuşla" həll edəcək qüvvə kimi baxırdılar.

Ancaq ermənilər zaman keçdikcə xəyal qırıqlığına uğradıqlarını anladılar. Məlum oldu ki, Paşinyan bütün problemləri həll edəcək potensiala malik deyil. Üstəlik, onun mövqeyi üzündən Azərbaycanla danışıqlar kəsildi, 2020-ci ilin yayında Tovuz döyüşləri, həmin ilin payızında İkinci Qarabağ müharibəsi baş verdi. Hər iki halda Ermənistan sarsıdıcı məğlubiyyətə uğradı. 2020-ci il noyabrın 10-dan Ermənistanda kütləvi etiraz aksiyaları başladı. Aksiyalar paytaxt İrəvanla yanaşı, ölkənin digər iri şəhərləri – Gümrü, Vanadzor, İcevan və Qafanda da keçirildi. Nəhayət, Paşinyan 2021-ci ilin martında növbədənkənar parlament seçkilərinin həmin ilin iyunun 20-də keçiriləcəyini elan etdi. O, aprel ayında baş nazir vəzifəsindən istefa verdi, lakin növbədənkənar seçkilər keçirilənə qədər vəzifəsinin icrasını davam etdirdi. İyun ayında keçirilən seçkidə "Mülki müqavilə" partiyası qalib gəldi və Nikol Paşinyan yenidən Ermənistanın baş naziri seçildi.

İndi isə Paşinyanın reytinqi ölkəsində xeyli aşağı düşüb. Bunun da əsas səbəbi şübhəsiz ki, Ermənistanın uğursuzluq seriyasının 2021-2023-cü illərdə də davam etməsi, Azərbaycanın isə yeni-yeni qələbələr qazanması ilə bağlıdır. Məhz 2023-cü ildə Azərbaycan Ordusunun keçirdiyi bir günlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü tam təmin olundu.

Paşinyanın reytinqinin aşağı düşməsinin digər əsas səbəblərindən biri də onun ölkəyə yeni konstitusiyanın gərək olması barədə yanvarın 19-da səsləndirdiyi fikirlərdir. Konstitusiyada ölkənin 1990-ci ildə qəbul olunmuş müstəqillik bəyannaməsinə istinad edilir. Orada isə Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları özünə yer tapıb. Paşinyan fevralın 1-də ictimai radioya müsahibəsində hayları müstəqillik bəyannaməsi ilə münasibətləri tənzimləməyə çağırıb. Baş nazirin əleyhdarları isə Paşinyanın bu təşəbbüsü öz xoşu ilə irəli sürmədiyini, bunun Azərbaycanın tələbi ilə həyata keçirildiyini bildirirlər. Paşinyan isə konstitusiya məsələsində geri çəkilənə oxşamır. Sonuncu dəfə fevralın 7-də bu istiqamətdə fikirlərini parlamentdə çıxışı zamanı açıqlayan baş nazir deyib: "Dağlıq Qarabağ və Ermənistan Respublikasının birləşdirilməsi qərarı nə deməkdir? Gələcəkdə siyasətimizi buna əsaslandıracağıq? Əgər belədirsə, biz hansı dünyadan danışırıq? Bu, o deməkdir ki, sülh mümkün deyil. Bu müzakirənin başqa heç nə ilə əlaqəsi yoxdur, bu, bizim müzakirəmizdir. Biz bu günümüzdən, sabahımızdan, gələcəyimizdən danışırıq".

Beləliklə, Ermənistan baş nazirini il ərzində daha bir ciddi sınaq gözləyir. Bu sınaq öncəsi onun reytinqinin aşağı düşməsi isə radikal revanşist kəsimin işinə yarayır.

**Mövzu ilə bağlı "XQ"nin sualını cavablandıran Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev bildirdi ki,** "GALLUP" şirkətinin



Ermənistan nümayəndəliyi sabiq prezident Robert Koçaryanın oğlu Levona yaxınlığı ilə seçilir. Buna görə də onlar Paşinyanın reytinqinin aşağı göstərməkdə maraqlıdırlar: "Hər halda, Paşinyanın reytinqinin aşağı düşməsi, hətta, doğru, reallıq olsa belə, çox güman ki, bu, onun yeni konstitusiyaya dair səsləndirdiyi fikirlərlə bağlıdır. Məncə, səbəb bu ola bilər".

Müsahibimiz qeyd etdi ki, Paşinyanın reytinqinin aşağı düşməsi bizim üçün müsbət deyil: "Əslində, konstitusiyanın dəyişdirilməsi bizim tələbimizdir. Müstəqillik bəyannaməsində Qarabağla bağlı müddəalar var. Onların qaldığı müddətdə sülh müqaviləsinin imzalanması qeyri-mümkündür".

**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzi direktorunun müavini, politoloq Fuad Çıraqov qəzetimizə açıqlamasında qeyd etdi ki,** ümumiyyətlə, Vətən müharibəsində məğlubiyyətdən sonra Paşinyana etibar ciddi şəkildə zədələnmişdi.



Amma iki məsələdə Nikolun bəxti gətirdi və bunlar onu xilas etdi: "Birincisi, Ermənistan əhalisi məğlubiyyətə baxmayaraq keçmiş cinayətkar "Qarabağ klanı"nın nümayəndələrinə daha çox nifrət edir və heç bir şəkildə onların yenidən hakimiyyətə gəlməsini istəmir. Bunu ən azı 2021-ci ildə Ermənistanda növbədənkənar parlament seçkilərinin nəticələri də göstərdi. Paşinyanın bəxtinin gətirdiyi ikinci məqam isə Ermənistanın siyasi spektrində alternativ siyasi liderin və siyasi platformanın yoxluğu ilə bağlıdır. Məhz buna görə də Ermənistan əhalisinin böyük hissəsi hazırda hamıdan narazı olaraq, heç bir siyasi qrupu aktiv dəstəkləmir. Yəni, apolitikdir".

F.Çıraqov qeyd etdi ki, ötən müddət ərzində bəzi ölkələrin dəstəyi ilə özlərini alternativ siyasi fiqur kimi ortaya atmaq istəyənlər oldu, ancaq heç biri uğur və əhalinin dəstəyini qazana bilmədi: "Bu məqam da Paşinyanın maraqlarına xidmət etməkdədir. Yəni, Paşinyan hazırkı vəziyyətin qalmasında, ondan narazıların da elektoral prosesdə iştirak etməməsində maraqlıdır. Seçkilərdə aşağı iştirak faizi qeydə alındığı üçün Paşinyan administrativ resurslardan istifadə edərək nəticələri öz xeyrinə dəyişə bilir. Ötən ilin sentyabrında İrəvanda mer seçkiləri bunu bariz şəkildə göstərdi.

Eyni zamanda, son sorğular göstərir ki, Paşinyana etimad getdikcə azalır. Bu isə təbiidir. Bütün inqilabi eyforiyalardan sonra küçədən gələnlərə sevgi bir müddətdən sonra nifrətlə əvəzlənir. Bu trend belə də davam edəcək. Ancaq narazılıq kulminasiya nöqtəsinə çatanda və alternativ siyasi fiqur ortaya çıxanda Paşinyan hakimiyyəti üçün təhlükə yarana bilər. Hələlik, belə bir fiqur yoxdur. Hərçənd ki, narazılıq artıqca həmin fiqurun ortaya çıxma ehtimalı da artır".

**Politoloq İlyas Hüseynov isə dedi ki,** Paşinyan nə qədər ziddiyyətli fiqur



olsa da, Ermənistan ictimai rəyində ona inam və etimad yüksək olub. Onun sözlərinə görə, Paşinyan müharibədə məğlub olsa da, növbədənkənar parlament seçkilərində xalq ona yenidən mandat verdi: "Ancaq Paşinyan ona görə qalib gəldi ki, əsas rəqibi "Qarabağ klanı"nın nümayəndələri – Serj Sarkisyan, Robert Koçaryan və "Daşnaksütyun" partiyasının təmsilçiləri idilər. Onlar da bir qayda olaraq, keçmişi təcəssüm etdirir, hər zaman hansısa "qələbələrdən", hansısa "yenilməz ordudan" danışırlar. Erməni xalqı Paşinyana ona görə "yaşıl işıq" yandırdı ki, Azərbaycanla sülh müqaviləsi imzalasın. Dayanıqlı sülh üzərində seçim etsin, sülhün gücləndirilməsi naminə addım atsın. Ermənistan cəmiyyəti yaxşı bilir ki, müharibə, itkilər, qan tökülməsi çıxış yolu deyil. Paşinyan isə xalqı reallıqla barışmağa çağırmaq əvəzinə, Ermənistanın gücləndirilməsinə, onun beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə, eləcə də silah alışına ciddi diqqət yetirdi. Avropa İttifaqının yarımhərbi missiyasını ölkəyə dəvət etdi, geopolitik qarşıdurmaya yol açdı, Fransadan, Hindistandan silah-sursat aldı".

İ.Hüseynov qeyd etdi ki, Paşinyan hər nə qədər sülhmeyilli baş nazir təəssüratı yaratsa da, onun atdığı addımların ölkəni qarşıdurmaya sürüklədiyini erməni xalqı yaxşı başa düşür. Buna görə də Paşinyana etimad ciddi surətdə sarsılıb. Nikol ona etimadın azalmasını göstərən sorğunu ciddi qəbul etməli və sülhə doğru real addımlar atmalıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Elektrik avtomobillərinə "yaşıl kart" verilir

**Azərbaycan qeydiyyatlı elektrik mühərriki ilə hərəkətə gətirilən minik avtomobilləri üçün "yaşıl kart" qiymətləri (sığorta haqları) müəyyənləşib. Bununla bağlı Azərbaycan Mərkəzi Bankının kollegiyası "Yaşıl kart" sistemi çərçivəsində fəaliyyət göstərmək istəyən sığortaçıların İcbari Sığorta Bürosu tərəfindən formalaşdırılan cari öhdəliklər ehtiyatı ilə bağlı hesaba ödədikləri birdəfəlik pul vəsaitinin məbləğinin və "yaşıl kart" hüququ olan sığortaçılar tərəfindən bu sistem üzrə tətbiq ediləcək haqlarının müəyyən edilməsi barədə qərarında dəyişiklik edib.**



Dəyişikliyə əsasən, Azərbaycandan Türkiyə və İrana gedən elektromobillər üçün sığorta haqqı 1 aylıq 15 manat, 3 aylıq 40 manat, 6 aylıq 60 manat və bir illik 80 manat müəyyən edilib. Belarus, Moldova, Rusiya və Ukraynaya gedən elektromobillər üçün 1 aylıq sığorta haqqı 12 manat, 3 aylıq 35 manat, 6 aylıq 60 manat, bir illik sığorta haqqı 70 manat, digər ölkələrə gedən elektromobillər üçün isə 1 aylıq sığorta haqqı 35 manat, 3 aylıq 60 manat, 6 aylıq 80 manat, bir illik sığorta haqqı 150 manat müəyyən edilib.

Bundan əlavə, texnoloji nəqliyyat vasitələri və bu kateqoriyadan olan digər mexaniki avtonəqliyyat vasitələri üçün "Yaşıl kart"ın müddətdən asılı olaraq qiymətləri (sığorta haqları) müəyyənləşib. Belə ki, Türkiyə və İrana gedən nəqliyyat vasitələri üçün 1 aylıq sığorta haqqı 25 manat, 3 aylıq 45 manat, 6 aylıq 75 manat, bir illik sığorta haqqı 100 manat, Belarus, Moldova, Rusiya və Ukraynaya gedən nəqliyyat vasitələri üçün 1 aylıq sığorta haqqı 20 manat, 3 aylıq 40 manat, 6 aylıq 60 manat, bir illik sığorta haqqı 80 manat, digər ölkələrə gedən nəqliyyat vasitələri üçün isə 1 aylıq sığorta haqqı 60 manat, 3 aylıq 110 manat, 6 aylıq 180 manat, bir illik sığorta haqqı 250 manat müəyyən edilib.

Yeri gəlmişkən, son illər dünyanın avtomobil bazarında elektriklə işləyən nəqliyyat vasitələrinə tələbatın getdikcə artması müşahidə olunur. Artıq dünyanın nəhəng avtomobil istehsalçıları ənənəvi yanacaqla işləyən nəqliyyat vasitələrinin ekologiyaya vurduğu zərəri azaltmaq məqsədilə hibrid avtomobillərlə yanaşı, elektromobillərin də istehsalını ildən-ilə genişləndirirlər. Beynəlxalq Enerji Agentliyi (İEA) analitiklərinin hesablamalarına görə, 2020-ci ildə elektrik avtomobillərinin bazarda payı 4 faiz təşkil etdiyi halda, ötən il bu rəqəm 18 faizə çatıb. Başqa sözlə, ötən il dünyada satılan hər 5 avtomobildən 1-i elektromobillərin və hibridlərin payına düşüb.

Azərbaycanda da elektriklə işləyən avtomobillərdən istifadənin genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də təmiz ətraf mühitə nail olmaq və "yaşıl artım" ölkəsinə çevrilmək kimi hədəflər müəyyənləşdirilib. Adıçəkilən sənəddə ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin təşviqini gücləndirmək üçün də bir sıra tədbirlər nəzərdə tutulur.

Artıq həmin tədbirlərin reallaşdırılması istiqamətində mühüm addımlar atılır. Belə ki, 2022-ci ildən elektromobillər və onlar üçün 2-ci və 3-cü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı əlavə dəyər vergisindən azad edilib. Bununla yanaşı, ötən ildən zavod buraxılış tarixindən 3 ilədək ötmüş elektrik mühərrikli avtomobillərin idxalına gömrük rüsumunun tətbiqi dayandırılıb. Eyni zamanda, elektrikdoldurma məntəqələrinin yaradılmasında istifadə olunan cihaz və avadanlıqların idxalının da gömrük rüsumlarından azad edilməsi müsbət məqamlardan biri kimi diqqət çəkir. Bütün bunların nəticəsidir ki, hazırda Azərbaycanda elektriklə işləyən avtomobillərə maraq xeyli artıb. Elə ölkəyə elektromobil idxalının ildən-ilə çoxalması da bunu deməyə əsas verir. Statistikaya əsasən, 2023-cü ildə Azərbaycana 125 milyon 268 min ABŞ dolları dəyərində 3102 ədəd yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələri idxal edilib ki, bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 7,1 dəfə və 6,4 dəfə, 2021-ci illə müqayisədə isə 36,2 dəfə və 19,4 dəfə çoxdur.

Bununla belə, ekspertlər hesab edirlər ki, elektromobillərdən istifadənin təşviqi üçün təkcə idxal və satış qiymətlərinin azaldılması deyil, əlverişli infrastrukturun yaradılması da vacib məsələdir. Yəni ölkədə elektromobillərin kifayət sayda şarj məntəqələri, ehtiyat hissələri anbarları olmalı, onlara keyfiyyətli servis xidməti göstərilməlidir.

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının icraçı direktoru Eyyub Əliyev bildirib ki, artıq rəsmi dilerlər elektromobil alanları lazımi ehtiyat hissələri ilə də təmin edirlər. Onun sözlərinə görə, 2023-cü ildə bir neçə rəsmi diler, xüsusən də Çindən elektromobil gətirənlər öz əməkdaşlarını ixtisasartırma məqsədilə bu ölkənin istehsalçı zavodlarına ezam ediblər. Onlar həmin zavodlarda təlimlərdə iştirak etməklə yanaşı, Çində istehsal edilən Avropa modelləri üzrə də təlimatlar alıblar. Elektromobillərə texniki xidmət göstərilməsi ənənəvi mühərrikli avtomobillərdən tamamilə fərqli olduğunu deyən E. Əliyev, həmçinin deyib ki, artıq ölkəmizdə elektromobillərin usta problemləri də tədricən həll olunur.

Bununla belə, ölkəmizdə elektromobillərin istifadəsi artdıqca onları şarj edən məntəqələrin sayının genişləndirilməsinə böyük ehtiyac olduğunu bildirən Eyyub Əliyevin sözlərinə görə, paytaxtda onların sayı kifayət qədər olsa da, bölgələrdə bu sahədə problemlər mövcuddur. "Rəsmi dilerlər ölkənin müxtəlif yerlərində öz avtomobilləri üçün məhdud sayda pulsuz şarj məntəqələri yerləşdirib. Amma ekoloji avtomobillərin sayını artırmaq istəyiriksə, bu say kifayət deyil. Ümid edirəm ki, ilin 2-ci və ya 3-cü rübündən sonra bu məsələ həllini tapar. Prosesin içində olan bir adam kimi demək istəyirəm ki, bu il ərzində elektromobillərin şarj məntəqələri probleminin müəyyən hissəsi həll olunacaq", – deyə o əlavə edib.

Avtomobil nəqliyyatı üzrə ekspert Eldəniz Cəfərov isə hesab edir ki, qanunvericilikdə elektrik doldurma məntəqələri yaradan sahibkarın elektrik enerjisini dövlətdən alaraq istehlakçıya satmasını təmin edən dəyişikliklər edilməlidir. Onun sözlərinə görə, ölkə ərazisində şarj məntəqələrinin sayının artırılması ilə yanaşı, elektrik avtomobillərini idxal edən şirkətlər onların servisini qurmalı, vətəndaşları həmin avtomobillərin ehtiyat hissələri və ustalarla təmin etməlidirlər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***




## 1 ayın ümumi ixracı – 1,8 milyard dollar

**Cari ilin ilk ayı ərzində Azərbaycanın ümumi ixracı 1,8 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 222 milyon dollar təşkil edib.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın fevral sayının ilkin rəqəmlərinə əsasən, yanvar ayında yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz artaraq 70,4 milyon dollara, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 151,6 milyon dollara bərabər olub.

Hesabat dövründə bitki və heyvan mənşəli piylər və yağların ixracı 31,9 faiz, meyvə-tərəvəz ixracı 21,2 faiz, alüminium və ondan hazırlanmış məmulatların ixracı isə 17,4 faiz artıb.

Nəşrin məlumatına görə, ötən ay aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,5 faiz artaraq 74,1 milyon dollar təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər isə 15,4 milyon dollar olub.

## Sığorta yığımları və ödənişləri artıb

**Azərbaycanda kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası üzrə yığımlar və ödənişlər artıb. Mərkəzi Bankın hesabatına əsasən, 2023-cü ildə bu növ sığorta üzrə yığımlar 12 milyon 943 min manat təşkil edib. Bu da əvvəlki illə müqayisədə 3 milyon 734 min manat və ya 40,6 faiz çoxdur. Xatırladaq ki, 2022-ci ildə bu göstərici 9 milyon 209 min manat təşkil edib.**



Hesabatdan aydın olur ki, ötən il kənd təsərrüfatı bitkiləri məhsullarına görə sığorta ödənişləri 3 milyon 495 min manat təşkil edib ki, bu da illik müqayisədə 1 milyon 815 min manat və ya 2 dəfə çoxdur. Belə ki, 2022-ci ildə 1 milyon 680 min manat sığorta ödənişləri edilib.

## Sahibkarlar üçün zəmanət və subsidiya mexanizmi

**Sahibkarlığın İnkişafı Fondunda "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək mexanizmi" üzrə "Elektron kredit və zəmanət" informasiya sisteminin təqdimatı keçirilib.**



Fondun İdarə Heyətinin sədri Osman Xaliyev tədbirdə qeyd edib ki, fevralın 1-dən etibarən Azərbaycanın düşməndən təmizlənən ərazilərində fəaliyyət göstərən sahibkarlar üçün zəmanət və subsidiya mexanizmi üzrə müraciət imkanı yaradılıb. Belə ki, sahibkarlar "e-gov" portalı və "edf.gov.az" saytı üzərindən "Elektron kredit və zəmanət" informasiya sistemində qeydiyyatdan keçərək mexanizmdən yararlanmaq üçün müraciət edə bilərlər.

Mexanizm çərçivəsində bu ərazilərdə investisiya layihəsi həyata keçirən sahibkarların məbləği 5 milyon manatadək, müddəti 7 ilədək, illik faiz dərəcəsi 15 faizədək olan biznes kreditlərinin 90 faizədək hissəsinə dövlət zəmanəti verilir. Bununla yanaşı, həmin kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır və kreditin müddətinin yarısından çox olmamaqla, 36 aya qədər güzəşt müddəti tətbiq edilir.

***XQ***

# Azərbaycan iqtisadiyyatının 2,3 faiz artacağı gözlənilir

(əvvəli 1-ci səhifədə)

Həqiqətən də, dövlətimizin başçısının rəhbərliyi ilə reallaşdırılan iqtisadi siyasət nəticəsində respublikamızın enerji təhlükəsizliyi təmin edilib, ölkə əhalisinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatının etibarlılığı, eyni zamanda, dayanıqlılığı gücləndirilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilən məqsədyönlü, uğurlu xarici və daxili siyasət sayəsində Azərbaycanın beynəlxalq nüfuzu daha da artıb, iqtisadi fəallığın təmin edilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, düşməndən təmizlənən yaşayış sahələrinin yenidən bərpası, müdafiə və ordu quruculuğu, ərzaq təhlükəsizliyinin diqqətdə saxlanılması istiqamətlərində mühüm layihələr yerinə yetirilib.




Azərbaycanın sosial-iqtisadi sahələrdə əldə etdiyi mühüm uğurlar beynəlxalq reytinq təşkilatlarının sənədlərində də öz ifadəsini tapıb. Məsələn, Beynəlxalq Valyuta Fondunun (IMF) "IMF-nin yaradılması haqqında" Sazişin IV maddəsinə uyğun olaraq təşkilatın Azərbaycan üzrə missiyasının rəhbəri Anna Bordonun 2023-cü ilin noyabr ayında Bakıda keçirdiyi məsləhətləşmələrin nəticələrinə dair hesabatında bu barədə ətraflı bəhs edilib. Sənəddə zəifləyən post-pandemiya təsirlərinin və neft hasilatında azalmanın davam etməsi fonunda respublikamızın ortamüddətli perspektivdə (2024-2028-ci illərdə) iqtisadi artım tempinin 2,3 faiz olacağı proqnozlaşdırılıb.

Hesabatda, eyni zamanda, IMF neft ÜDM-inin 1 il ərzində orta hesabla 0,5 faiz azalacağının, qeyri-neft ÜDM-nin 2024-cü ildə 3,6 faiz, 2025-2028-ci illərdə isə orta hesabla 3,5 faiz artacağının gözlənildiyi vurğulanıb.

IMF iqtisadçıları bildirirlər ki, pandemiyadan sonrakı güclü bərpanın ardınca artım yavaşlayır, inflyasiya isə azalır. İndi ən birinci hədəf müvəqqəti yumşalmadan sonra büdcə konsolidasiyasını gerçəkləşdirmək və bu yaxınlarda hədəf diapazonuna qayıdan inflyasiyanın xarici risklər və daxili təzyiqlər fonunda yenidən yüksəlməməsini reallaşdırmaqdır. Orta və uzunmüddətli perspektivdə Azərbaycanın ən böyük məqsədi karbohidrogen sektorundan asılılığı azaltmaq və özəl sektorun təsiri ilə iqtisadiyyatın diversifikasiyasını təşviq etməkdir.

Hesabatda ortamüddətli perspektivdə ölkədə karbohidrogen hasilatının tədricən azalmaqda davam edəcəyi proqnozlaşdırılır, çünki neft hasilatının gözlənilən struktur azalması qaz hasilatının artması hesabına yalnız qismən kompensasiya olunacaq. Bu baxımdan özəl sektor daha mühüm rol oynayacaq ki, bu da digər məsələlərlə yanaşı, hələ də çox böyük olan dövlət sektorunun problemlərinin həllini, həmçinin idarəetmənin təkmilləşdirilməsini tələb edəcək. Bərpaolunan enerji sektorunun inkişafı, eyni zamanda, Azərbaycanın iqlimlə bağlı öhdəliklərini yerinə yetirməsi ilə yanaşı, diversifikasiyaya da töhfə verəcək.

Hesabata əsasən, iqtisadiyyatın şaxələndirilməsi, idarəetmənin gücləndirilməsi, dövlət müəssisələrinin rolunun məhdudlaşdırılması və iqtisadiyyatın karbonsuzlaşdırılması istiqamətində islahatlara ehtiyac olacaq. Bununla bərabər, məhkəmə sisteminin müstəqilliyinin təkmilləşdirilməsində irəliləyiş, habelə dövlət müəssisələrində özəl sektorun iştirakı və onların maliyyə sağlamlığını yaxşılaşdırmaq üçün davamlı səylər biznes mühitinin yaxşılaşdırılmasına, özəl investisiyaların artırılmasına və məhsuldarlığın yüksəldilməsinə kömək edəcək. Hökumətin iqlimlə bağlı öhdəliklərini yerinə yetirmək səyləri çox təqdirəlayiqdir və əlaqədar maliyyə yükünü hesablamaq,




eləcə də qalıq yanacağa subsidiyaların mərhələli şəkildə dayandırılması kimi əlavə tədbirlər vasitəsilə onu azaltmaq faydalı olacaq.

Beləliklə, IMF-nin proqnozlarına görə, 2024-cü ildə Azərbaycanın ÜDM-i nominal ifadədə 135 milyard 534 milyon manat, o cümlədən qeyri-neft ÜDM-i 86 milyard 323 milyon manat, 2025-ci ildə 140 milyard 72 milyon manat, o cümlədən qeyri-neft ÜDM-i 93 milyard 838 milyon manat, 2026-cı ildə 146 milyard 474 milyon manat, o cümlədən qeyri-neft ÜDM-i 101 milyard 493 milyon manat təşkil edəcək.

Göründüyü kimi, Azərbaycanın sosial-iqtisadi sahələrdə əldə etdiyi uğurlar, eləcə də ölkədə həyata keçirilən iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın aparıcı iqtisadi-maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin, o cümlədən IMF-in diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.

Ümumiyyətlə, beynəlxalq reytinq agentliklərinin proqnozları bir daha təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirləri və kapital xərcləri, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olur və bütün bunlar dövlətimizin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən, Azərbaycanın uğurlu gələcəyindən xəbər verir.

Bu gün dünyada baş verən mürəkkəb siyasi-iqtisadi hadisələr fonunda qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlinməsi, iqtisadi inkişafın sürətləndirilməsinə, xalqın rifahının yaxşılaşdırılmasına yönələn proqramların həyata keçirilməsi qarşıdakı dövr ərzində də yüksək göstəricilərin əldə ediləcəyi əminliyi yaradır.

***Vaqif BAYRAMOV***
***XQ***

Naxçıvan Muxtar Respublikası – 100

# Türkiyənin Naxçıvanda xilaskarlıq missiyası

(əvvəli XQ-nin 2, 6 fefral 2024-cü il tarixli saylarında)

## II. Naxçıvan əhalisinin erməni təcavüzünə qarşı mübarizəsi

AXC hökumətindən gözlənilən yardımları ala bilməyən Naxçıvan əhalisi, Milli Şura ermənilər əleyhinə ümumxalq mübarizəsinə qalxdı. 1919-cu ilin iyulunda Naxçıvanda daşnaklara qarşı geniş xalq üsyanları başladı. Kəlbəli xanın rəhbərliyi ilə xalq qoşunu ermənilərə sarsıdıcı zərbə vurdu, avqustun 30-da Naxçıvan şəhəri ermənilərdən təmizləndi.

Bu azadlıq savaşında Naxçıvandakı azsaylı türk əsgərləri və zabitləri qəhrəmancasına vuruşdular. Hakimiyyəti oturduğu əskəri kazarmadan kənara çıxmayan erməni general-qubernator Varşamyan və erməni qüvvələri Naxçıvandan qovuldular. Xatırladaq ki, hələ 28 fevral 1919-cu ildə AXC Bəhram xan Naxçıvanskinin başçılığında Naxçıvan general-qubernatorluğunu yaratmışdı. Az sonra onu qısa müddətdə Haşımbəyov əvəz etmişdi. (Əliyev, s.62) Ermənilər Naxçıvandan qovulandan sonra AXC hökuməti Səməd bəy Cəmillinskini Naxçıvan bölgəsinin general-qubernatoru təyin etdi. Səməd bəy dərhal idarəetmə strukturları yaratmağa başladı. Xəlil bəyi bölgə qoşunlarına komandan təyin etdi. Kəlbəli xan həm komandan müavini, həm də Naxçıvan qoşun dəstəsinin komandiri oldu.

1919-cu ilin iyul-avqustunda Naxçıvana gələn Amerika polkovniki Rey Cəfərqulu xanla və Xəlil bəylə gizli danışıqlar apararaq burada Amerika general qubernatorluğu yaratmağı irəli sürmüşdü. Avqustun sonunda Amerika polkovniki Paskel Paris Sülh Konfransı və Antanta Müttəfiqlər şurası adından Azərbaycan hökumətinə bildirmişdi ki, Şərur, Naxçıvan və Dərələyəzdə ABŞ general-qubernatorluğu yaradılır. Oktyabrın 23-də polkovnik Edmond Deli qubernator kimi işə başlamalı idi.

Belə bir şəraitdə AXC rəhbərləri ABŞ nümayəndələri ilə fəal danışıqlara girdilər. Polkovnik Paskelin nümayəndəsi general Robinson Naxçıvana gəldi, ardınca general Mozetey, onlar gedəndən sonra polkovnik Rey gəldi. Rey özünün general qubernator təyin edildiyi haqqında xalqa məlumat vermək üçün camaatı yığmağı təkid etdi. Lakin oktyabrın 23-də toplanan Milli Şura qərar verdi ki, xalq azərbaycanlı general-qubernatordan başqa, heç kimi tanımaq istəmir. Belə olduqda Rey polkovnik Delini Naxçıvan hökuməti yanında müşavir təyin edərək bölgəni tərk etməli oldu.

1919-cu ilin noyabrında ermənilər yenidən Naxçıvan torpaqlarına hücumlara başladılar. Ordubadın bir neçə kəndini ələ keçirən ermənilər əhaliyə divan tutdular. Xəlil bəyin göndərdiyi taborlar ermənilərə güclü zərbə vurub geri oturtdu. Ermənilərlə döyüşdə Kəlbəli xan fədakarlıq göstərirdi, lakin onun həm Naxçıvanın general-qubernatoru C.Cəmillinski, həm də Xəlil bəylə ixtilafları hələ qalmaqda idi. AXC nümayəndələri bu gərginliyin götürülməsi üçün səy edirdilər. Sonra Kəlbəli xan Türkiyənin yüksək hərbi ordeninə layiq görüldü. AXC hökuməti də Naxçıvanın müdafiəsindəki xidmətlərinə görə ona general- mayor rütbəsi verdi.

1920-ci ilin əvvəllərində ermənilərin Naxçıvana hücumları yenidən başlandı. Naxçıvanın etibarlı müdafiəsini təmin etmək məqsədilə Xəlil bəy Bəyazit türk diviziyasının komandiri Cavid bəyə müraciət etdi. K.Qarabəkir paşanın tapşırığı ilə Naxçıvanın müdafiəsi üçün tədbirlər hazırlandı. 1920-ci ilin martında XI Qafqaz ordusu komandanı K.Qarabəkir paşanın qərarı ilə Naxçıvandakı türk qüvvələrini gücləndirmək və Xəlil bəyə dəstək üçün Əli Teymur bəyin başçılığı altında 50 nəfərdən ibarət türk bölüyü göndərildi.

Bu tədbirlərin fövqəladə əhəmiyyəti var idi, çünki Naxçıvanın AXC ilə əlaqələri çox zəifləmişdi. AXC hökumətinin daxili və xarici siyasi vəziyyəti olduqca pisləşmişdi. Belə şəraitdə martın 21-də daşnak qoşunları Naxçıvan üzərinə irimiqyaslı hücuma keçdilər. Türk zabiti Zob bəyin, Kəlbəli xanın, Xəlil bəyin, Nuru bəyin, Nəci bəyin, Ədib bəyin başçılığı ilə döyüşən taborlar ermənilərə zərbə vuraraq geri oturtdular.

23 aprel 1920-ci ildə Ankarada Mustafa Kamal paşanın başçılığı ilə Böyük Millət Məclisi keçirildi. K.Qarabəkir paşa Şərq cəbhəsinə komandan təyin olundu və dərhal ermənilərə qarşı döyüşə hazırlaşmağa başladı. 1920-ci il mayın 6-da Naxçıvandakı türk əsgərlərinin işlərini yoxlamaq, həmçinin lazımi köməklik göstərmək üçün ordu zabitləri Veysəl Ünüvar, Kamil bəy və Cəlal bəydən ibarət bir heyət Naxçıvana göndərildi. II Qafqaz tüməninin qərargah rəisi Bakı ilə əlaqə yaradıb oradakı vəziyyəti öyrənmək məqsədi ilə bu heyətə daxil edilmişdi. Şərurun Şahtaxtı kəndində heyəti İbrahim Şahtaxtinski (Behbud Şahtaxtinskinin qardaşı) qarşıladı, qonaq etdi. Heyət mayın 10-da qatarla Naxçıvana gəldi.



Bu vaxtlar AXC-nin təyin etdiyi general-qubernator Naxçıvanda otursa da, bölgə felən Naxçıvanın Milli Şurası (Cəfərqulu xanın başçılığı ilə) və Özünümüdafiə Komitəsi (Kəlbəli xanın başçılığı ilə) tərəfindən idarə olunurdu. Buradakı türk əsgərləri və zabitləri də Naxçıvanın xanı və digər qeyrətli oğulları ilə bərabər bu diyarın ermənilərdən müdafiəsində yaxından iştirak edirdilər.

Veysəl bəy bir hərbi müfəttiş kimi Ordubaddan Dəvəliyə qədər yerləşdirilmiş taborları yoxlayırdı. Sonralar general olmuş Veysəl bəy xatirələrində yazırdı ki, "Xalq rus və erməni təzyiqindən qurtarmış olmasının nəşəsi içində bizi məhəbbətlə salamlayırdı". Şərurun Yengicə kəndində Məşədi Hüseynin evində qonaq qaldığını yazan Veysəl bəy, onu Şərur türklərinin qəhrəmanı kimi, ermənilərlə aparılan mübarizədə malından və canından keçən bir insan kimi təsvir edir. Mayın 16-da Veysəl bəy təftiş işlərini bitirib Şaxtaxtı-Maku yolu ilə Bəyazitə qayıtdı.

1920-ci il aprelin 27-də bolşevik Rusiyası Azərbaycanı işğal edəndən sonra Zəngəzurda və Naxçıvan bölgəsində ermənilər daha da fəallaşdılar. Onlar Naxçıvan da hücumlar edir, əhaliyə divan tuturdular. Zəngəzurda yolları tutub Naxçıvanın Azərbaycanla əlaqəsini kəsmişdilər. Buna görə K.Qarabəkir paşanın əmri ilə Bəyazitdən minbaşı Əli Dəmir bəyin başçılığı ilə iki tabur Naxçıvana göndərildi.

Bu vaxtlar Naxçıvanda ictimai-siyasi vəziyyət olduqca mürəkkəb idi. İndiyədək Naxçıvanda türk əsgərlərinin başında duran, bu bölgənin müdafiəsi üçün xeyli işlər görmüş olan Xəlil bəy Naxçıvanda bəzi dairələrin güdməyə başladığı ermənilərlə anlaşmaq, danışıq yolu ilə sülhə nail olmaq siyasətinə görə istefa vermişdi. Buna görə 5 iyul 1920-ci ildə Veysəl bəy Naxçıvandakı qüvvələrə rəhbərlik etmək üçün yenidən Naxçıvana göndərildi.

Veysəl bəy yuxarıda adı çəkilən xatirələrində yazır ki, naxçıvanlılar türkləri ruslarla müttəfiq olmaqda ittiham edirdilər. Naxçıvanın çox qeyrətli və qəhrəman bir türk kəndi olan Nehrəmdə bir toplantı yapıldı. Azərbaycanın uğradığı fəlakət anladıldı, bolşeviklər lənətləndi. Mitinqdə deyilirdi: "Türkiyə özünü qurtarmaq üçün bizi qurban edir. Əgər bolşeviklərin xatiri üçün təərrüzdən vaz keçməsələrdi, bu gün iki düşmən arasında qalmayacaqdıq". Naxçıvanda eyni zamanda bolşevik təbliğatı aparan qüvvələr də fəallaşmışdı, az sonra Naxçıvan bölgəsi də ruslar tərəfindən işğala məruz qaldı və iyulun 28-də burada Sovet hakimiyyəti qurulduğu elan edildi.



Azərbaycan hökumətinin sədri Nəriman Nərimanovun sərəncamı ilə (Orconikidzenin təzyiqi ilə) 1920-ci ilin avqustunda Tambov kəndlilərinin üsyanının amansız məhv edilməsində rol oynamış Bahadur Vəlibəyov 300 nəfərlik süvari qoşunla Naxçıvana fövqəladə komissar vəzifəsinə göndərildi. İranda mühacirətdə olan Abbasqulu bəy Şadlinski dəstəsi ilə Naxçıvana dəvət edildi və "Qırmızı tabor" adı ilə formalaşdırıldı. Bu tabor daşnak Njdenin quldurlarının dəf edilib qovulmasında həlledici rol oynadı.

Şərur qəzası ermənilərdən tamamilə azad edildi və orada da Qəza İnqilab Komitəsi təşkil olundu. Qırmızı Tabor 1921-ci ilin yanvar-fevral aylarında Dərələyəz-Şərur-Qəmərli də daşnaklara sarsıdıcı zərbələr vurdu. Abbasqulu bəy Şadlinski və onun rəhbərlik etdiyi Qırmızı Taborun qəhrəman mübarizə yolu Əli Əliyevin 1990-cı ildə Bakıda nəşr edilən "Qırmızı Tabor" kitabında ilk dəfə geniş işıqlandırılmışdır.

B.Vəlibəyov və rəhbərlik etdiyi 1920-ci il oktyabrın 5-də yaradılan Naxçıvan Fövqəladə Komissarlığı Naxçıvanın yerli nüfuzlu şəxslərinə – Kəlbəlı xana, atası Cəfərqulu xana, Rəhim xan Naxçıvanskiyə qarşı ədalətsiz repressiya tədbirləri həyata keçirirdi. Fyodorovun başçılıq etdiyi Naxçıvan İnqilab Komitəsi bütün yerli vətənpərvər qüvvələri təqib edir, həbs edir, işgəncələrə məruz qoyurdu. Fyodorov Türkiyə təmsilçisi Xəlil bəyin fəaliyyətini bütün vasitələrlə məhdudlaşdırırdı. O da, Vəlibəyov kimi, türk əsgərlərinin Naxçıvandan çıxarılmasına təkid edirdi.

Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra RSFSR-in milli işlər komissarı İ.Stalin 1920-ci il dekabrın 3-də erməni xalqına göndərdiyi teleqramda bildirir ki, guya: "Sovet Azərbaycanı "mübahisəli" vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzurun, Naxçıvanın və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir". Bu xəbər Naxçıvan əhalisinin kütləvi etirazı ilə qaşlılanır. Naxçıvanda Sovet hakimiyyəti qurulmuş olsa da, ermənilərin özbaşınalığı davam edirdi. Daşnaklar hər cür təcavüzə əl atırdılar.



1920-ci il dekabrın sonlarında Ermənistan İnqilab Komitəsi Naxçıvanın Sovet Ermənistanının bir hissəsi olduğuna dair bəyanat verdi. Bu bəyanata Naxçıvanda əhali kəskin etirazı ilə cavab verdi. Əli Əliyev Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivindəki sənədə istinad edərək yazır ki, Azərbaycan rəhbərliyi İnqilab Komitəsinin üzvü və ədliyyə komissarı Behbud Şahtaxtinskini yaranmış vəziyyəti araşdırmaq üçün Naxçıvana ezam edir.

B.Şahtaxtinski əhali ilə görüşdə deyir: "Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Mən Azərbaycan İnqilab Komitəsinin üzvü kimi Vəlibəyovu vəzifədən azad edib özümlə Bakıya aparacağam. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edəcəyimiz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər".

Şərq cəbhəsində erməni qoşunlarına qarşı uğurlu əməliyyatlar keçirən K.Qarabəkir paşa 1920-ci ilin sentyabrın 29-da Sarıqamışı, oktyabrın 1-də Kağızmanı, oktyabrın 30-da Qarsı ermənilərdən azad etdi. Ultimatumla noyabrın 7-də Gümrünü götürdü, noyabrın 12-də İqdırı azad etdi. Nəhayət, noyabrın 25-də ermənilər təslim olmaq notasını qəbul edərək (bu nota 10-15 gün əvvəl erməni hökumətinə verilmişdi) danışıq stolu arxasına gəldilər və 3 dekabr 1920-ci ildə Gümrü müqaviləsi bağlandı.

Bu, yeni Türkiyənin ilk siyasi zəfəri idi. Təkcə Qarsın fəthində ermənilərin iki generalı, 6 polkovniki, 16 yüzbaşısı, 1500 əsgəri əsir götürülmüşdü. 1110 erməni əsgər-zabiti məhv edilmişdi. Əsirlər arasında Ermənistanın hərbi naziri Araratov, Baş qərargah rəisi Vəkilov, Qarsın komendantı Primov (rus) və bir mülki nazir də var idi.

Qısa müddətdə K.Qarabəkir paşanın qoşunları gürcülər tərəfindən işğal edilmiş bölgələri də geri aldı. 1921-ci il fevralın 23-də danışıq yolu ilə gürcülərin boşaltdıqları Ərdəhana türk bayrağı sancıldı. Türk qoşunları martın 9-da Ahıskanı, 11-də Batumu, 14-də Ahılkələki azad etdilər. Türk qoşunlarının bu zəfərli irəliləyişləri Moskvada həftələrlə gecikdirilən Rusiya Xarici İşlər naziri Çiçerin və onun erməni müavini Qaraxan tərəfindən "ermənilərə Türkiyə torpaqlarından pay verilməsi" ilə əlaqədar çəkçevir müzakirələrini sürətləndirdi.

Qeyd edilməlidir ki, Batum müqaviləsinə görə (4 iyun 1918-ci il) Naxçıvan Türkiyənin himayəsində idi və Türkiyə hərbi sahədə olduğu kimi, diplomatik sahədə də Naxçıvanın heç bir halda Ermənistana verilməməsi üçün ciddi səy göstərmişdi. Buna görə sonrakı illərdə də ermənilərin, ingilislərin, amerikalıların, həmçinin rusların müxtəlif yollarla Naxçıvana yiyələnmək, yaxud Ermənistana vermək kimi cəhdlərinə qarşı Osmanlı Türkiyəsi kimi, MK Türkiyəsi də bütün mümkün olan vasitələrlə mübarizə aparmışdır.

1921-ci ilin dekabrın 13-də Moskva danışıqlarına yola düşməzdən əvvəl Türkiyə nümayəndə heyətinin başçısı Y.Kamal bəy Mustafa Kamal paşa ilə görüşmüş və "Paşam, ruslar Naxçıvan üzərində israr edərlərsə, nə yapalım? – deyə soruşmuşdu. Mustafa Kamal Paşa demişdi: "Naxçıvan türk qapısıdır. Bunu xüsusi nəzərə alaraq əlinizdən gələni yapınız". Həqiqətən, həftələrlə davam edən çətin danışıqlardan sonra Naxçıvan bölgəsinin taleyini müəyyən edən Moskva müqaviləsinin bağlanmasına nail olunmuşdu. Naxçıvanın Türkiyəyə bağlanmasına qəti etiraz edən rus tərəfi bu bölgənin Ermənistana, bu olmazsa, Rusiyaya qatılmasına cəhd etsə də, türk diplomatiyası sonda qoyduğu şərtlə qədim türk diyarının Azərbaycanın himayəsinə verilməsinə nail oldu.

1921-ci il martın 16-da Rusiya ilə Türkiyə arasında bağlanan dostluq müqaviləsi Rusiya-Türkiyə arasında bir çox prinsipial məsələlərlə yanaşı, Naxçıvan bölgəsinin də, taleyini birdəfəlik həll etdi. Müqavilənin üçüncü maddəsinə uyğun olaraq Naxçıvan qoruyuculuq haqqını heç bir zaman üçüncü bir dövlətə buraxmamaq şərti ilə, bir muxtar bölgə kimi Azərbaycanın tərkibinə verildi. Bu maddədən çıxan qəti fikir ondan ibarət idi ki, Naxçıvan bölgəsi üzərində yalnız Azərbaycanın suveren hakimiyyəti olmalıdır və Azərbaycan buradakı hakimiyyətini, bu bölgənin müdafiəsində hansısa təhlükə yaranarsa, Türkiyədən başqa üçüncü dövlətə güzəştə gedə bilməz.

Moskva müqaviləsindən iki həftə sonra, 1921-ci il aprelin əvvəllərində Azərbaycan Sovet hökuməti Naxçıvanın taleyi ilə əlaqədar göstərdiyi milli xidmətlərə görə kiçik bir xatirə olaraq Şərq cəbhəsi komandanı K.Qarabəkir paşaya və TBMM başqanı Mustafa Kamal paşaya 800 əyar gümüşdən, 24 nəfərlik 279 vahiddən ibarət iki yemək servizi dəsti hədiyyə göndərdi.

1921-ci il oktyabrın 13-də Türkiyə ilə Ermənistan, Azərbaycan və Gürcüstan arasında Rusiya nümayəndəsinin iştirakı ilə bağlanan Qars Müqaviləsi Naxçıvan bölgəsi ilə əlaqədar Moskva Müqaviləsinin şərtlərini bir daha təsdiqlədi. Bununla Naxçıvanın taleyi həmişəlik müəyyən edildi. Bu çox mühüm tarixi əhəmiyyətli müqavilə Naxçıvan bölgəsinin qorunması üçün etibarlı siyasi təminat oldu.

Moskva və Qars müqavilələrində Naxçıvanın təsbit olunan statusu Azərbaycanın qədim torpağı olan Zəngəzurun Sovet hakimiyyəti tərəfindən Ermənistan Respublikasına verilməsindən, bununla da Naxçıvanın Azərbaycanın əsas hissəsindən fiziki olaraq ayrı salınmasından sonra xüsusilə aktuallaşdı və 1924-cü ilə elan ediləcək Muxtar Respublika statusu üçün zəmin yaratmış oldu. Sonrakı illərdə bu müqavilə həm də, bu bölgənin bütövlüyünün qismən də olsa qorunub saxlanmasında həlledici rol oynadı. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixində verdiyi dekretlə Azərbaycanın Naxçıvan bölgəsi Muxtar Sovet Sosialist Respublikasına çevrildi.

Akademik İsmayıl Hacıyevin yazdığı kimi, Naxçıvanın tarixi müqəddəratında, onun Azərbaycanın tərkibində saxlanmasında bir sıra amillərlə yanaşı, Moskva və Qars beynəlxalq müqavilələrinin də böyük rolu olmuşdur. Hər iki beynəlxalq müqavilə müddətsiz imzalanmış və bu gün də qüvvədədir. Həmin müqavilələr onu imzalayan dövlətlər tərəfindən birtərəfli qaydada ləğv edilə bilməz.

Azərbaycan 1991-ci ildə öz müstəqilliyinə yenidən qovuşandan sonra hələ SSRİ zamanında, 1980-ci illərin axırlarından ölkəmizə qarşı başlanan erməni separatizmi, ardınca torpaqlarımızın işğalı Ermənistan tərəfindən blokadaya salınan Naxçıvan MR üçün ciddi təhlükə yaratdı. Tarix təkrar olunurdu, yeni şəraitdə də istiqlalını əldə etmiş Azərbaycan Respublikası Naxçıvanın müdafiəsində ciddi səy göstərə bilmirdi. Naxçıvan Muxtar Respublikasında Vətən torpqalarının müdafiəsi uğrunda erməni silahlı qüvvələri ilə aparılan qeyri-bərabər döyüşlərdə onlarla şəhid verilmiş, Sədərək rayonunun Kərki kəndi isə ermənilər tərəfindən işğal edilmişdi.

Bu şəraitdə muxtar respublikaya rəhbərlik edən ulu öndər Heydər Əliyev 1992-ci il may ayının 21-də Londonun "Daily Telegraph" qəzetinə müsahibəsində Ermənistanın təcavüzkar siyasətini kəskin tənqid edib bu hərəkətlərin davam etdiriləcəyi təqdirdə yardım üçün Türkiyəyə müraciət edəcəyini bəyan etmiş, 1921-ci ilin oktyabrında bağlanmış Qars Müqaviləsi ilə Naxçıvanın qorunmasında, onun ərazi bütövlüyünün təmin edilməsində Türkiyənin söz sahibi olduğunu bəyan etmişdi.

1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Prezident Heydər Əliyev demişdi: "Mən hesab edirəm ki, Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz onu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq". Fikrini davam etdirən Ulu Öndər vurğulamışdı ki, Naxçıvanın muxtariyyəti Azərbaycanla Türkiyənin sərhəd əlaqəsi üçün tarixi bir hadisədir. Çox tarixi bir hadisədir ki, o vaxt həm Azərbaycanın tərkibində Naxçıvanda muxtariyyət yaranıbdır, həm də o sərhədlər həmin müqavilələrdə nizamlanarkən Azərbaycanın Türkiyə ilə kiçik də olsa, bir sərhədi yaranıbdır.

Ümummilli lider Heydər Əliyevin 1991–1993-cü illərdə qardaş Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə yaratdığı şəxsi əlaqələrin, həyata keçirdiyi intensiv görüşlərin və müzakirələrin Naxçıvan Muxtar Respublikasının qorunmasında, eləcə də, ölkələrimizin qarşılıqlı münasibətlərinin inkişafı və daha da genişlənməsində xüsusi əhəmiyyəti oldu. Türkiyənin Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə Türkiyə Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Ermənistanın təcavüzü ilə əlaqədar yaranmış vəziyyəti öyrənmək məqsədilə 21 may 1992-ci il tarixində Naxçıvana gəldilər. Naxçıvan MR Ali Məclisində səfir Ömər Ərsunun başçılıq etdiyi heyəti qəbul edən Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin 1992-ci il mayın 18-dən muxtar respublikanın Şərur və Sədərək bölgələrinə silahlı təcavüzü barədə məlumat verərək bu istiqamətdə görülən tədbirləri də bildirdi.

Bu vəziyyətlə əlaqədar Türkiyə Cümhuriyyəti hökumətinin qəti xəbərdarlığından sonra təcavüzkar Ermənistan Respublikası Naxçıvana birbaşa hərbi təcavüzdən çəkinməyə məcbur oldu, lakin blokada siyasətini davam etdirməyə başladı. Eyni zamanda Ali Məclisin Sədri Heydər Əliyevin Naxçıvanın müdafiəsi sahəsində həyata keçirdiyi ardıcıl siyasət, xüsusilə də Qars müqaviləsini gündəmə gətirməsi bu bölgəni həm xarici müdaxilədən, həm də daxili çətinliklərdən xilas etməkdə tarixi rol oynadı. Ulu öndər Heydər Əliyev Qars müqaviləsinin siyasi əhəmiyyətini vurğulayaraq demişdi ki, Naxçıvan Azərbaycanın əsas torpaqlarından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin anadan olmasının 75 illiyi münasibətilə Ankarada, Çankaya köşkündə, 1 noyabr 1999-cu ildə çıxış edən Heydər Əliyev bir daha bildirmişdi: "Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz hissəsidir. Ancaq təəssüf ki, 1920-ci ildə Sovet hökuməti xəritələri böləndə, Azərbaycanın Zəngəzur mahalını alıb Ermənistana verəndə Naxçıvan Muxtar Respublikası Azərbaycanın böyük torpağından ayrı düşübdür".

Ulu öndər daha sonra qeyd etmişdi ki, Ermənistan–Azərbaycan münaqişəsi başlayandan sonra Naxçıvan blokada halına düşdü və orada yaşamaq çox çətin oldu: "Hörmətli Süleyman Dəmirəlin Azərbaycana etdiyi yardımın ən önəmlisi, Naxçıvan Muxtar Respublikasının o illərdə yaşamasını, dayanmasını təmin etməsidir. Araz çayı üzərində qısa bir zamanda həmin o "Həsrət körpüsü" yaranmasaydı bu, mümkün deyildi. O qışın 40 dərəcə şaxtasında Türkiyədən, Naxçıvana elektrik xətti çəkildi, başqa yardımlar edildi. Mən orada yaşadığım dövrdə bunları öz gözümlə görmüşəm".

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi bu qədim diyarın yaxın tarixinə bir daha nəzər salmağa, bu bölgənin, eləcə də, bütövlükdə Azərbaycanın ən yeni tarixində qardaş Türkiyənin oynadığı tarixi rolu daha dərindən dəyərləndirməyə, ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" düsturu əsasında qurulan Azərbaycan–Türkiyə birliyinin gündən-günə artan gücünü və təsirini qiymətləndirməyə imkan yaratmışdır.

***Eynulla MƏDƏTLİ,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri dokroru***

# Sənət hamisinin seçki zəfəri

**ANAR,**
**Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin Sədri:**



– Azərbaycanın dövlət başçısı İlham Əliyevin fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində möhtəşəm qələbə qazanması hər bir ziyalı kimi, məni də ürəkdən sevindirdi. Ölkəmizdə demokratiyanın növbəti təntənəsinə çevrilən bu seçkilərdə hər kəs Azərbaycanın suverenlik təntənəsinə qürurla səs verdi. Cənab İlham Əliyev 4 milyon 281 min 625 seçicinin mütləq əksəriyyətinin səsini toplayaraq, böyük fərqlə qalib gəldi.

Prezident seçkilərində parlaq qələbə münasibətilə dövlətimizin başçısını öz adımdan, ailəm adından ürəkdən təbrik edirəm. Bu qələbə müstəqilliyimizin, sabitliyin, xalq birliyinin, gələcək sağlam inkişafımızın qələbəsidir. Cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində işğal olunmuş torpaqlarımız azad edildi, 23 saatlıq lokal antiterror tədbirlərində isə 200 illik ağrılı probleme son qoyuldu və tam suverenliyimiz bərpa olundu. Dövlət başçımızın, Silahlı Qüvvələrimizin böyük sərkərdəlik məharəti olan Ali Baş Komandanının bu tarixi xidmətləri xalqımız heç vaxt unutmayacaq.

İnanıram ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə daha uca zirvələri fəth edəcəyik!



**Oqtay MİRQASIMOV,**
**Xalq artisti, "İstiqlal" ordenli kinorejissor, ssenarist:**

– Mən çox xoşbəxtəm ki, fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərində İlham Heydər oğlu daha bir qələbəsi ilə xalqın böyük etimadını qazandı.

Yaşımın ixtiyar çağında sonsuz sevincimə səbəb olan odur ki, qarşıdakı dövr ərzində də ölkəmizə mədəniyyət və incəsənətimizin böyük himayədarı, dünyada tanınan və mövqeyi ilə hesablaşılan böyük şəxsiyyət İlham Əliyevin rəhbərlik etməsinə hamılıqla səs verdik. Qədirbilən xalqımız onun firavan həyatını təmin edən, Qarabağ zəfəri ilə milli qürurunu qaytaran xidmətlərini layiq olduğu səviyyədə, yüksək qiymətləndirdi.

Mən Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bitirib Bakıya qayıdandan 1 il sonra ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayıb. Yəni istər o vaxtlar, istərsə də müstəqillik dövründə Ümummilli liderin, yeni əsrin əvvəllərindən isə İlham Əliyevin milli mədəniyyətimizə diqqət və qayğısının canlı şahidiyəm. Biz kino xadimləri üçün ölkəmizdə yaradılan münbit şəraitin sayəsində yaradıcılıq potensialımızı daim inkişaf etdirə bilmişik. Özü də çalışmalarımız daim yüksək qiymətləndirilib. Şəxsən mən 2000-ci ildə Xalq artisti fəxri adına, 2018-ci ildə "Şərəf" ordeninə layiq görülmüşəm. Ötən il isə cənab İlham Əliyevin sərəncamı ilə "İstiqlal" ordeni ilə təltif edilmişəm. Digər həmkarlarım da dövlət tərəfindən hər zaman lazımi diqqət və qayğı ilə əhatə olunublar. Bütün bunlar bizim Vətən naminə, sənət naminə daha böyük həvəslə çalışmağımız üçün stimul olub.

Sevimli Prezidentimizi ürəkdən təbrik edir, dövlət və xalq naminə yorulmaz fəaliyyətində ona yeni uğurlar arzulayıram.

**Siyavuş KƏRİMİ,**
**Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor:**



– Cənab İlham Əliyevin növbədənkənar prezident seçkilərində inamlı qələbə qazanması məni də ürəkdən sevindirdi. Fəxr edirəm ki, seçici kontingentinin çox böyük əksəriyyəti kimi, mən də fevralın 7-də sonsuz fərəhlə, xoş duyğu və düşüncələrlə bütün ölkə ərazisində keçirilən seçkilərdə səsimi səslərə qatmaq üçün səsvermə məntəqəsinə yollanaraq, Qarabağ Zəfərinin banisi, suverenliyimizin bərpasını təmin edən möhtərəm dövlət başçımıza səs verdim.

Mədəniyyətimizin böyük hamisi olan İlham Heydər oğlu yeni əsrdəki möhtəşəm fəaliyyəti ilə dönə-dönə sübut edib ki, o, həqiqətən də, özü dediyi kimi, hər bir azərbaycanlının Prezidentidir. Onun xalqımızın qarşısında ən böyük xidməti isə dahi bir sərkərdə kimi, 44 günlük Vətən müharibəsində Qələbəmizi təmin etməsi, bizi dünyaya qalib millət kimi tanıtması oldu.

Ulu Öndərimizin 23 il öncə imzaladığı sərəncama əsasən Milli Konservatoriyamız fəaliyyət göstərir və bu gün Heydər Əliyevin yadigarı olan bu sənət ocağının kollektivi məhz cənab İlham Əliyevin böyük qayğısından bəhrələnərək, milli-mənəvi dəyərlərimizi zənginləşdirir, dünya musiqisinə layiqli töhfələr verir. Bundan sonra da öz sənətimiz və əməyimizlə xalqımıza sidq-ürəkdən xidmət göstərməyə davam edəcəyik.

Ölkəmizin İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi rifaha, demokratik inkişafa nail olması, rəsmi Bakının bölgədə və dünyada mövqelərinin güclənməsi danılmaz faktdır. İnanıram ki, qarşıdakı dövr də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tərəqqi və inkişafı yolunda parlaq nailiyyətlərlə əlamətdar və zəngin olacaq.

Qoy, ulu Tanrı hər zaman sevimli Prezidentimizin yar və yardımçısı olsun!

# Yazıçılar Birliyinin gözaydınlığı

**Azərbaycan Yazıçılar Birliyi qurumun Katibliyi, Ağsaqqallar Şurası və İdarə Heyəti adından dövlət başçısı İlham Əliyevi növbəti müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:**

**Möhtərəm Prezident!**

Sizi Azərbaycan xalqının müstəqil iradəsinin və seçim haqqının aydın ifadəsi olan 7 fevral prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə səmimi qəlbdən təbrik edirik!

Bu seçkilərin müqəddəs Vətən torpaqlarının hər qarışının işğaldan azad edildiyi, dövlət suverenliyimizin bütün ərazilərimizdə tam bərpa olunduğu bir şəraitdə keçirilməsi xüsusilə əlamətdardır. 7 fevral prezident seçkilərinin digər tarixi cəhəti isə Sizin həmin gün ailə üzvlərinizlə birgə Qarabağda olmağınız və səsvermə hüququnuzu Xankəndidə - işğaldan azad edilmiş əzəli və əbədi Azərbaycan şəhərində həyata keçirməyinizdir.

Vətəndaş fəallığına görə dünyanın diqqətini çəkən və seçicilərin mütləq əksəriyyətinin yenidən Sizə səs verməsi ilə nəticələnən bu seçkilər ötən müddət ərzində dövlətimizə böyük müdriklik və qətiyyətlə rəhbərlik etdiyinizi, qədirbilən xalqımızın isə bunu özünəməxsus nəciblik, layiqincə qiymətləndirdiyini növbəti dəfə yüksək səviyyədə nümayiş etdirdi.

**Möhtərəm Prezident!**

Müzəffər Ali Baş Komandanlığınız altında Böyük Zəfərlə yekunlaşan Vətən müharibəsindən sonra, Sizin qətiyyətlə qeyd etdiyiniz kimi, Azərbaycan özünün yeni inkişaf dövrünə qədəm qoymuşdur. Bu yeni dövrün məhz Sizin yorulmaz rəhbərlik fəaliyyətiniz sayəsində xeyirli-uğurlu olacağına, ölkəmizə, xalqımıza hər bir sahədə mühüm nailiyyətlər qazandıracağına əminik. Eyni zamanda, başlanan bu fərqli tərəqqi mərhələsinin ədəbiyyatımızın və mədəniyyətimizin də inkişafına yeni təkan verəcəyinə inanırıq.

Ölkə yazıçıları adından Sizi əmin edirik ki, müdrik siyasi-dövlətçilik xəttinizi bundan sonra da əzmlə dəstəkləyəcək, Azərbaycanımızın inkişafı, ədəbiyyat və mədəniyyətimizin yüksəlişi, ana dilimizin qorunması və təbliği naminə bütün istedad və bacarığımızı səfərbər edərək çalışacağıq.

Sizi prezident seçkilərində parlaq qələbəniz münasibətilə bir daha ürəkdən təbrik edir, rəhbərlik fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzu edirik!

***XQ***

# Qalib Prezident – qalib Xalq

**Rafael HÜSEYNOV,**
**Milli Məclisin deputatı**



Bu gün – 2024-cü il fevralın 7-si xalqın öz əziz övladına – Prezident İlham Əliyevə məhəbbətinin təntənəsi günüdür.

Azərbaycanda bugünəcən keçirilmiş seçkilərin heç birinə bənzəməyən sevgi seçkisi!

İnsanlar Azərbaycan boyu seşki məntəqələrində növbələrə düzülmüşdülər (yalnız Azərbaycandamı? Müxtəlif xarici ölkələrdəki vətəndaşlarımızın seçki gününün axşamı və gecəsindəki etiraf paylaşımlarını oxuduqca qürur hissi keçirməyə bilmirsən. Özləri yazırlar ki, onlardan hansı birisə qarlı-şaxtalı gündə piyada, hansılarısa ailəlikcə uçaqr şəhərdən Azərbaycanın o ölkədəki diplomatik nümayəndəliyində təşkil edilmiş səsvermə məntəqəsinə yüz kilometrləri aşaraq vicdan borcunu yerinə yetirməyə tələsən kimi həvəslə yollanıb).

Belə fəallıq, belə coşqu heç vaxt olmamışdı.

Səbəb sadədir – İlham Əliyevin bu xalq və bu yurd üçün bugünəcən etdikləri!

Fevralın 7-si seçkisi həm də dərsdir.

Sən xalqınçün böyük olan, bu xalqın tarixində qalacaq işlər görürsənsə, əməyin qiymətsiz qalmır, xalq xidmətlərinin əvəzində sənə bitib-tükənməyən məhəbbətini bağışlayır.

Amma bu gün həm də torpağımızın bayramıdır, həm də Qarabağımızın bayramıdır. Çünki xalqın Prezident İlham Əliyevə belə sonsuz məhəbbət və inamının çox səbəbləri sırasında ilk yerdə dayanan söz yox ki, onun əsas müəllifi olduğu Qarabağ zəfəridir.

Prezident İlham Əliyevə bu gün nümayiş etdirilən el məhəbbəti və sayğısı həm də xalqımızın bu yurdun hər qarış torpağına tükənməz eşqinin ifadəsidir – millət öz qüdrətli oğluna Qarabağ rəşadətinə görə, torpaqlarımızı əsarətdən qurtardığı üçün, bu ölçüyəgəlməz sevinc və iftixar müqabilində öz sevgisini qatdığı səsiylə minnətdarlığını ifadə etdi.

Hər belə səsin dəyəri bir millət rəhbərindən ötrü sərvətlərin alisidir.

Azərbaycan vətəndaşlarını müxtəlif hünərlərinə və nailiyyətlərinə görə mükafatlandıran, orden-medallarla təltif edən Prezident İlham Əliyevə bu gün ordeni xalq verdi.

Birini yox, milyonlarlasını!

Bu cür köksəsığmaz məhəbbət qarışmış hər səsdən daha üstün olan orden varmı?!

Dərəcələrinə, mahiyyətinə görə orden-medalların sinədə asılma sırası və ardıcıllığı var.

Xalqın öz istəkli balasını təltif etdiyi bu MİLLƏT SEVGİSİ ORDENindən daha ucada dayana biləcək bir təltif ola bilərmi?!

Xalqın 7 fevral sevgisini Prezident İlham Əliyev gördü – təbii ki, bəxtiyardır.

Amma bunu həm də vəzifəsi dövlətə və xalqa qulluq etməkdən ibarət hər kəs də gördü.

Hamısı ibrət götürsün!

Zəkanla, qabiliyyətinlə, səriştənlə, peşəkarlığınla, fədakarlığınla belə ola bilirsənsə, yolunu davam et, əməllərinin qarşılığında xalqdan bu cür məhəbbət və ehtiram qazanmağa gücün yoxsa, Rəhbərinə tən gəlmədiyini duyursansa, yer tutma, mane olma!

Bu tarixi gündə həm də unudulmaz Heydər Əliyevi düşünürəm.

Ömrünün bitəcəyində millətinə üz tutaraq insanlarımızı İlham Əliyevə dəstək verməyə, ona arxa durmağa çağırırdı: "Mən ona özüm qədər inanıram" deyirdi.

Bu gün xalq da elə həmin sözü dedi!

Və əlbəttə ki, bu gün Ulu Öndərin də ruhu şaddır!

Bu seçkinin qalibi xalqdır.

MÜZƏFFƏR oğlunu QALİB çıxaran QALİB XALQ!

**Zərifə Hüseynova – 70**

# Sözünə və özünə söykənən jurnalist

## 2, 6, 9 və 70 rəqəmləri onun bəxt yazısı kimi oxunur

**Doğrusu, mən əvvəllər bəxt yazısına o qədər də inanmırdım. Ana dilimizdə olmayan missiya sözü də məni cəlb eləmirdi. Ancaq bu sətirlərin qəhrəmanı elə şəxsdir ki, onun haqqında yazanda adam bəxtə də inanır, missiya məfhumunu da yaxına buraxır.**



Fikrimcə, yuxarıda sadaladığım rəqəmlər mətbuat cameəmizin Zərifə Başırqızı kimi tanıdığı Zərifə Namazova – Hüseynovanın özəl bəxt yazısı olub. Ancaq bu dözümlü və əzmkar həmkarımız bəxt yazısını üzərinə düşən missiyaya çevirməyi bacarıb və öz arzuladığı, bacardığı şəkildə həyata keçirməyə də nail olub.

Bəs, o rəqəmlər haradan götürülmüşdür? Tələbəlik illərində onun qrup yoldaşı, sonralar həyat yoldaşı olmuş Ələkbər Hüseynov bu evin qapısından son dəfə girəndə ailədə 6 nəfər idilər. Yəni 4 övladları var idi. Onda sonbeşik Tural 2, Lamiyə 3, Günel 8, Günay isə 9 yaşındaydı. Gənc ana Zərifənin ömrünün bu məqama qədərki səhifələri alnına yazılmışdısa, əmək fəaliyyətinə "Azərbaycan gəncləri" qəzetində müxbir kimi başlayan, sonradan həyatını komsomol işinə həsr edən, Saatlı Rayon Komsomol Komitəsinin 1-ci katibi olan Ələkbərin o evdən sonuncu dəfə çıxmasından, yəni vaxtsız vəfatından sonrakı proseslər övladları üçün hər zəhmətə qatlaşmağı bacaran Azərbaycan qadınının, bəxtin acığına (Əstəğfürullah) öz üzərinə götürdüyü vəzifələrin məcmusuna çevrilmişdi. Elə xəstəliklərə, cərrahi müdaxilələrə, uzun illər davam edən müalicələrə rəğmən 70 yaşa çatması da onun övladlarına bu sevinci yaşatmaq arzusunun reallaşmasıdır.

Zərifə Başırqızını 1996-cı ildən tanıyıram. Ötən illərdə gəldiyim qənaət budur ki, Zərifə xanım, həqiqətən, yaxşı jurnalist, səmimi insan, hamının problemləri ilə maraqlanan, köməyinə yetən həmkar, ən başlıcası, gözəl söz adamıdır. Mövzuları genişdir. O, ədəbiyyat, musiqi, kino, sosial həyat, hətta mətbəx mədəniyyətinə də dərindən bələddir. Səhiyyəni daha yaxşı bildiyinə görə isə həmkarı və həmyaşıdı Ruslan Rafizadə ona "doktor Hüseynova" deyə müraciət edir. O, uzun müddət sosial həyat şöbəsinin fəaliyyətini təkbaşına davam etdirib, yenə də öz işindədir.

İş yoldaşlarımız bilirlər, mən bir az ovqata bağlı olduğuma görə, əhvalım pisləşəndə yaza bilmirəm. Dəfələrlə olub ki, fasilə zamanı bir az sakitləşmək üçün redaksiyanın eyvanına çıxaraq, astadan hansısa xalq mahnımızı zümzümə etmişəm. Toxtayıb geri qayıdanda isə rəhmətlik Telman Əliyev, İsaq Əmənullayev və Zərifə Başırqızının əyləşdiyi otağın qarşısından keçmişəm. Qapısı yarıaçıq otaqdan xanım həmkarımın "eşq olsun, Mirzəbəyli!"– sözlərini eşitmişəm.

Daha bir xüsusi məqam: 2018-ci ildəki prezident seçkilərindən əvvəl xaricdə yaşayan "söyüş müxalifəti" adlı bədnam dəstə qeyri-adi dərəcədə fəallaşmışdı. Ağızlarına gələni yazır və danışırdılar. O zaman mən həmin qaragüruhun "arqumentlərinin" ifşa edilməsi məqsədilə redaksiyada xüsusi qrup yaratmışdım. Yəni gündəlik fəaliyyətimizdən əlavə, xaricdən gələn bədnam səslərin nə dərəcədə əsassız olduğunu sübut edirdik. Əliqismət Bədəlov, Vaqif Bayramov, Məsaim Abdullayev, Paşa Əmircanov və Leyla Qurbanova kimi təcrübəli həmkarlarımızın da daxil olduğu həmin qrupun ən fəal üzvü məhz Zərifə Başırqızı idi. O, həmin günlərdə milli dövlətçiliyimizə, həqiqətən, əsl sədaqət nümayiş etdirirdi.

Qocaman həmkarımız, indi təqaüddə olan Telman Heydərov bir dəfə demişdi ki, müasir jurnalistdən cəmi 4 keyfiyyət tələb olunur: "Normal yazı hazırlamaq, siyasi ayıqlıq, məsuliyyət və informasiya texnologiyaları ilə işləməyi bacarmaq. Zərifədə bu keyfiyyətlərin hamısı var". Mərhum deputat, parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva onun haqqında şəxsən mənə: "Mən Zərifə ablamın mətbuata, qəzetə, qəzetçiliyə və dövlətçiliyə olan təəssübkeşliyi, ləyaqəti və mədəniyyəti ilə fəxr edirəm", – demişdi.

Elə mən də onun 60 illiyi münasibətilə qələmə aldığım və "Sehirli xalat" filminin qəhrəmanlarının birinin dediyi "Zərifə, gülümsə..." ifadəsini sərlövhə seçdiyim şeirdə xanım-xatın həmkarımızın daha da dözümlü olmasını, gümrah görünməsini, sonbeşik övladının da toyunu görməsini arzulamışdım:

**Sənə zər yaraşır, zərifliyin var,**
**El bilir zər nədir, tül, ya şal nədir.**
**Gülümsə, nəvələr gül açsın bir az –**
**Bu nə görünüşdür, bu əhval nədir?**

**Qələmin silahdır, vərəqin çətir,**
**Gözündə yaş bəlli, sözündə ətir.**
**Qoy, Allah eləsin bir gəlin gətir,**
**Onda bilərsən ki, cah-cəlal nədir.**

Şükürlər olsun ki, Allah "elədi", Zərifə xanım sonbeşiyi Turalın da toyuna bizi dəvət etdi. Üstəlik, ailəyə sonbeşik nəvəsinin gəlməsinin şirinliyini də yedik.

Bu gün onun sevincinə şərik oluruq. 3 qız, 1 oğul böyüdüb onlara yüksək tərbiyə vermək, hamısına el adəti ilə toy-düyün etmək hər qadının işi deyil. Bizim Zərifə xanım bu çətin və şərəfli işi də təkbaşına, bacarıqla həyata keçirib.

Ad günün mübarək, dəyərli həmkar! Cansağlığı və uzun illər boyu sıramızda görünməyin arzusuyla:

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Naxçıvanda interaktiv yubiley dərsi





**Dövlət Bayrağı Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illinə həsr edilmiş interaktiv dərs keçirilib.**

"Naxçıvanın muxtariyyəti: dünən və bu gün" mövzusunda dərsi muzeyin bələdçisi Nərmin Əmirova aparıb. İnteraktiv dərsi muxtar respublikanın 100-dən artıq ümumtəhsil məktəbinin şagirdləri izləyiblər. Onlayn məşğələ zamanı muzeydə Azərbaycanın dövlətçilik tarixinə, o cümlədən Naxçıvanın tarixinə aid dövlət və döyüş bayraqları, xəritələr, sənədlər, fotolar, kitab və jurnallar haqqında ətraflı məlumat verilib.

***S.HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

BEYNƏLXALQ HƏYAT

# “İranı bombalamaq, ya bombalamamaq?”

## Günümüzün Hamlet sualı budur

**Ötən ilin son aylarından artıq bəlli idi ki, 2024-cü il ABŞ-ın qlobal hökmranlığının sona çatmasını sürətləndirən hadisələrlə zəngin olacaq. Qırmızı dənizdən Donbasa, Cənubi Amerikanın cəngəlliklərindən Uzaq Şərqə qədər Amerika təhlükəsizlik xidmətləri guya planetin ən müxtəlif nöqtələrində dünyanın alovlanması təhlükəsini yaradan lokal yanğınları çılğınlıqla söndürməyə çalışırlar. Həqiqət isə əsla belə deyil.**



Analitiklər qeyd edirlər ki, əgər “imperiyanın həddindən artıq qızmasına” (ifadə Paul Kennedinindir) və ABŞ-ın tənəzzülünə etiraz edən yoxdursa, o zaman özlərini müdafiə edən və “yanğınları söndürən” kimi iddialar ciddi fikir ayrılığına səbəb olacaq. Problemin bu şəkildə qoyuluşunda sülhə açıq çağırış var - Birləşmiş Ştatların "asayişi bərpa etməsinə" mane olmayın. Reallıqda isə müasir dünyada baş verən hər hansı ciddi münaqişəyə nəzər saldıqda, əldən çıxmağa başlayan hegemonluğu saxlamaq üçün, hər yerə xaos toxumu səpən, lakin, artıq onu heç bir vəchlə anlaşıqlı bir sonluğa çatdırmağa gücü çatmayan Vaşinqtonun dağıdıcı müdaxiləsini aydın görürük.

Bu gün Qərbin bütün fəaliyyət planlarının əsas ideyası 2024-cü ilin əsas proqnozlarında beynəlxalq aləmdə status-kvonun saxlanılmasıdır. Lakin dünyanın inkişaf dinamikasını dayandırmağa hələ heç kim müvəffəq olmayıb, çünki o, fundamental obyektiv proseslərə əsaslanır. Bu gün ABŞ və Avropa nəhəngləri olmasa belə, digər güclər, ilk növbədə, Çin, Hindistan və bir sıra digər dövlətlər, o cümlədən saysız-hesabsız sanksiyalara baxmayaraq, Rusiya planetin iqtisadiyyatının “inkişaf lokomotivi”nə çevrilir. Çünki bəşəriyyətin qeyri-Qərb hissəsi həm maddi, həm də əqli cəhətdən yetkinləşib və onlar bundan sonra Qərbə hər kəsin borclu olduğu əbədi mentor kimi baxmaq fikrində deyillər. Onlar artıq “mentor” Qərbi yalnız neokolonialist vərdişləri tərgitmiş və iqtisadi problemlərini başqalarının hesabına həll etməyə cəhd göstərməyən, beynəlxalq münasibətlərdə bərabərhüquqlu iştirakçı kimi görmək istəyirlər. İndi “qızıl milyard”ın idarə etdiyi “keçmişin furqonu” çox uzaqdadır və heç yerə belə getmir.

Bu siyasi variasiyaların məramı onu açıqlamaqdır ki, 2024-cü ilin artıq ikinci ayında bəşəriyyət çox qorxulu və son dərəcə təhlükəli hadisələrin astanasına gəlib çatıb. Hegemonluğunu itirmək istəməyən ABŞ-ın işləri çox pisdir. Onların Yaxın Şərqdəki hərbi bazaları sutkanın 24 saatında daim gərginlik içindədir. Hücumların haradan gələcəyi məlum deyil. Ötən ilin oktyabrından bütün Amerika strukturları hədəfdədirlər. 170-ə yaxın bəyan edilmiş hücuma məruz qalıblar.

Yəni ABŞ-ın düşmənləri bu qədər artıb? Açıq demək lazımdır ki, amerikalılar öz itkilərini gizlədirlər. Yaralanan bir ABŞ əsgəri belə həlak olmayıb. Təəccüblü deyilmi?

Bu yaxınlarda İordaniya, Suriya və İraqın sərhədində olan Et-Tanf bazasına hücum nəticəsində 3 amerikan əsgəri həlak oldu, 40 nəfər yaralandı. Vaşinqton sanki özünü itirib. Hələ də məlum deyil ki, bu hücum kimin işidir. Bunu amerikalıların özləri də deyirlər. Ancaq ABŞ siyasi rəhbərliyi dərhal İrana barmaq silkələyir. Prezident Bayden bildirir ki, bunun cavabı olacaq və Birləşmiş Ştatlar bir neçə gün sonra Suriya və İraq ərazilərini bombardman edir. Bəs niyə İranı yox? Axı onlar Tehranı günahlandırır və hədələyirdilər.

Birləşmiş Ştatlar İrana hücum edə bilərmi? Onlar belə ağılsızlığa qadirdirlərmi? Bu, elə də sadə iş deyil...

İraqın işğalında mühüm missiya yerinə yetirən ehtiyatda olan diplomat hadisələrdən dərhal sonra belə bir şərh vermişdi: “Dünyada ABŞ-ın toxunulmazlığı erası başa çatıb. Onlar Əfqanıstanda simalarını itirdilər. Sonra Ukrayna... Tam iflas... Avropanı da oda atıblar. İqtisadiyyat tam fəlakət içindədir. Anti-Amerika əhval-ruhiyyəsi artır. Qafqazda yeni cəbhə açmaq planı iflasa uğradı. Qəzza zolağında baş verənlərə baxın... ABŞ son illərdə ən ağır zərbəni alır. Bu, ölkə daxilində də öz əksini tapdı. Hadisələrin kulminasiyası olan Kapitoliyə hücum kasıb orta təbəqənin üsyanı idi. Texasda vəziyyət silahlı qarşıdurma həddinə çatıb... Böhran getdikcə dərinləşir. Vaşinqton daha bir səhv etməkdən qorxur. Odur ki, süddə əlini yandıran, indi suyu üfürür”.

Axı ABŞ kimdən qorxur, İrandanmı? O ki, dünyanın hegemonudur?! Bu sualın cavabını “The American Conservative” nəşrinin şərhçisi Duqlas Makqreqor “İranı bombalamaq və ya bombalamamaq: bax, əsas sual budur” məqaləsində geniş şərh edərək bildirir ki, ABŞ İranla müharibəyə son dərəcə yaxınlaşıb. Bu, baş verərsə, hadisələrin hansı sürətlə cərəyan edəcəyini demək o qədər də asan məsələ deyil. ABŞ-ın Dövlət katibi Entoni Blinken ötən bazar ertəsi bəyan edib ki, “indi Yaxın Şərqdə inanılmaz dərəcədə qeyri-sabit vaxtlardır”. Blinkenin dediyinə görə, "dünya ən azı 1973-cü ildən bəri və hətta ondan əvvəl də regionda indi qarşılaşdığımız qədər təhlükəli bir vəziyyət görməmişdir."

Blinkenin bu ciddi qiymətləndirməsinə cavab olaraq, prezident Bayden Vaşinqtonun Yaxın Şərqdəki hədəfləri mənasız şəkildə bombalamağa hazır olduğu barədə "siqnal" verir. Vaşinqtonda hesab edirlər ki, əksini etmək özlərini zəif göstərmək olardı, prezidentlər isə tez-tez belə nəticəyə gəlirlər ki, dünya super dövlətinin lideri bunu edə bilməz.

Tehran isə açıq şəkildə bəyan edib ki, onun ərazisinə edilən istənilən hücum “qırmızı xətt”dir və İran ərazisinin istənilən hissəsinin bombalanmasına “lazımi cavab veriləcək”. Burada heç bir yanlış təsəvvür olmamalıdır, İrana qarşı yönələn strateji bombardman kampaniyası açıq və birmənalı mesaj verir: ABŞ İran dövləti, onun xalqı və silahlı qüvvələri ilə müharibə vəziyyətindədir. İndiki halda, Bayden İranı hədəflər siyahısından çıxarsa da, çıxarmasa da, amerikalılar bütün hallarda ehtiyatlı davranmalıdırlar.

Bombardman diplomatiya deyil, ancaq bu, siyasətçilərin xoşuna gəlir, çünki real fəaliyyət təəssüratı yaradır. Bombardman nə strategiya, nə də sadə xeyirxahlıq nümayişidir. Bombardman müharibə aktıdır. Bombalamaq düşməni çəkindirmir. Bombalamaq yalnız gərginliyi artırır və total müharibəyə səbəb olur.

Şərhçi etiraf edir ki, ABŞ bombardmanları düşmən qüvvələrini müvəqqəti susdurmaqdan başqa heç nə vermir, çünki onlar əsasən “düşməni bircə hava zərbələri ilə Vaşinqtonun siyasi tələblərinə tabe etmək olar” kimi şübhəli ehtimala söykənir.

Az ehtimal olunsa belə, İraq, İran və ya Suriyadakı mövqelərə zərbələrin endirilməsi ABŞ-ı Yaxın Şərqdə daha böyük regional müharibəyə cəlb edə bilər. Bu səbəbdən də, hərbi metodların və strategiyanın müəyyənləşdirilməsi üçün həlledici əhəmiyyət kəsb edən bütün suallar əvvəlcədən öyrənilməli və ətraflı cavablandırılmalıdır. Hərbi strateqlərin belə mühüm işin çox erkən mərhələdə tamamilə başa çatdırılması çətin görünür.

Ümumiyyətlə, Amerikanın hədəfləri nədir? İrana zərbə Qəzza zolağında müharibəyə necə son qoyacaq? Niyə İranı bombalamaq ABŞ-ın milli maraqlarına uyğundur? Hava zərbələri gözlənilən nəticələrə, eləcə də gözlənilən itkilərə mütənasib olmalıdır. Raketin atıldığı obyektin vurulması hələ cavab tədbiri sayılmır.

Münaqişəni gərginləşdirə biləcək hava hücumlarına üstünlük verməklə İsrailin varlığını riskə atmağın Vaşinqton üçün bir mənası varmı? Əgər ilkin hücumlar İran, İraq və ya Suriyanın davranışlarında arzu olunan dəyişiklikləri təmin edə bilmirsə, ABŞ ordusu yeni zərbələr endirməyə hazırlaşmalıdırmı? ABŞ ordusunda aylarla davam edə biləcək əməliyyatı həyata keçirmək üçün kifayət qədər sursat, döyüş platformaları və ehtiyat hissələri varmı? ABŞ-ın bölgədəki hərbi qüvvələri vacib infrastrukturu cavab raket zərbələrindən qoruya bilərmi?

Vaşinqton Amerika qoşunlarının hücum edəcəyi təqdirdə, İranın döyüşməkdə qərarlı olduğunu bilir. ABŞ-ın rəhbərliyi altında İranın strateji bombardman edilməsi Yaxın Şərqdə yerləşdirilmiş 57 min ABŞ əsgəri, aviasiya və dəniz piyadasını hədəfə çevirən cavab atəşinə səbəb olacaq.

Pilotsuz uçuş aparatları sistemlərinin istifadəsi zərbələrin endirilməsini Vaşinqton üçün siyasi cəhətdən cəlbedici edir. Bəlkə də pilotsuz sistemlər hava kampaniyasında Amerikanın potensial itkilərini minimuma endirməyi vəd edir. Lakin ABŞ və İranın cavab zərbələri üçün hədəflərinin müqayisəsinə gəldikdə, Vaşinqtonun bölgədə yerləşdirilmiş və onun hərbi əməliyyatları üçün mühüm əhəmiyyət kəsb edən böyük potensial infrastruktur aktivlərini – limanları, aerodromları və ABŞ əsgərlərinin yerləşdikləri məkanları İranın və onun regional müttəfiqlərinin potensial hədəfinə çevirir.

Amerika siyasətçiləri ABŞ-ın hərbi texnologiyasının unikal və ya dünyadakı bütün analoqlarından üstün olduğuna və ya Birləşmiş Ştatların quruda və dənizdəki hərbi qüvvələrinin irimiqyaslı dəqiq zərbələrə qarşı immunitetli olduğuna aldanmamalıdır. Bombardman İrana yeni və daha təkmil hava hücumundan müdafiə sistemləri yaratmağa mane olmayacaq.

Nəhəng dövlətin özü üçün yaratdığı cəhənnəmə düşməsi heç vaxt tez olmur. İngilis yazıçısı, şair, müəllim və ilahiyyatçı Klayv Steyplz Lyuisin qeyd etdiyinə görə, nə qədər ki, Birləşmiş Ştatlar kimi super dövlət öz rəqibini əsla qiymətləndirmədiyini görməyəcək, bu eniş tədricən, yavaş-yavaş və hətta hissə-hissə baş verəcək,

Şərhçi Makqreqorun belə bir fikri ilə tam şərikəm ki, “rəqiblərə qarşı hədə-qorxu, rüşvət, bomba və sanksiyalar heç vaxt yaxşı nəticə verməyib. Əfqanıstan, Liviya, İraq və Ukraynadakı bir sıra strateji hərbi uğursuzluqlar səbəbindən Vaşinqtonun dünya ilə münasibətləri sürətlə cəhənnəmə yuvarlanır”. Bunun qarşısını almaq mümkündürmü?

*Hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

# MŞ: Prezident seçkilərinin informasiya təminatı yüksək səviyyədə reallaşdı

**Azərbaycan Mətbuat Şurası medianın 7 fevral prezident seçkilərində iştirakı ilə bağlı məlumat yayıb. Şuradan XQ-yə daxil olmuş məlumatda bildirilib ki, qurum 7 fevral prezident seçkilərində də medianın fəaliyyətini diqqət mərkəzində saxladı. Şuranın bununla bağlı iş prinsipi əsasən üç istiqaməti əhatə etdi - seçkiqabağı dövrdə media orqanlarının monitorinqi, “qaynar xətt” rejimi və seçki məntəqələrində müşahidə.**



“Seçkiqabağı dövrdə Azərbaycan Mətbuat Şurasının monitorinq qrupu ölkənin müntəzəm yayımlanan media vasitələrinin materiallarını nəzərdən keçirdi. Monitorinqin nəticələri onu deməyə əsas verdi ki, Azərbaycan jurnalistikası seçki kampaniyası müddətində ədalətli rəqabət mühitinin formalaşmasına həssas yanaşdı, cəmiyyətin obyektiv informasiya almaq hüququnun gerçəkləşməsini təmin etdi. Habelə, mediada “qara piar” tendensiyası və digər bu sayaq xoşagəlməz hallar yaşanmadı”, – məlumatda qeyd olunub.

Məlumatda o da bildirilib ki, seçki günü Mətbuat Şurasında yaradılmış “qaynar xətt” rejimi səsvermə başlayan andan bitənədək jurnalistlərin ixtiyarında oldu. Gün ərzində şuranın bu rejimdə fəaliyyət göstərən şəhər və mobil telefon nömrələrinə cəmi bir müraciət edildi. Həmin müraciət üzrə müəyyənləşdirildi ki, xarici media vasitəsi ölkəmizdə akkreditasiyadan keçmədiyindən, onun seçkini işıqlandırması qeyri-mümkündür. Bununla əlaqədar müraciət müəllifi məlumatlandırıldı, ona qanunvericiliyin tələbləri izah edildi.

Məlumatda, eyni zamanda, vurğulanıb ki, Mətbuat Şurası İdarə Heyətinin jurnalist və rəsmi şəkildə müşahidəçi kimi qeydiyyatdan keçmiş üzvləri, eləcə də ayrı-ayrı təmsilçiləri paytaxtdakı və respublikamızın müxtəlif bölgələrindəki seçki məntəqələrində jurnalistlərə prosesi işıqlandırmaq üçün yaradılmış şəraitin monitorinqini apardılar, media təmsilçiləri ilə fərdi təmaslar qurdular. Həm onların müşahidələrindən, həm də “qaynar xətt” rejiminin yaradılmasından məqsəd seçki günü jurnalistlərin fəaliyyəti baxımından baş verə biləcək anlaşılmaz durumların, mümkün maneələrin qarşısını operativ sürətdə almaq idi: “Hər iki istiqamət üzrə görülmüş işlərin təhlili göstərdi ki, jurnalistlər seçki günü özlərinin peşə vəzifələrini heç bir maneə olmadan, tam sərbəst şəkildə həyata keçirdilər. Əlamətdar məqam ondadır ki, istər Mərkəzi Seçki Komissiyası, istər Medianın İnkişafı Agentliyi, istərsə də ayrı-ayrı dövlət qurumları media fəaliyyətinin müxtəlif təzahür formalarına səlahiyyətlərindən irəli gələn həssas münasibət göstərdilər. Onların operativ yanaşmaları yanlış ictimai rəyin formalaşmasının qarşısının alınması, cəmiyyətin düzgün yönləndirilməsi baxımından əhəmiyyətli oldu”.

Mətbuat Şurası yekunda belə nəticəyə gəlib ki, 7 fevral prezident seçkiləri həm təbliğat-təşviqat kampaniyası dövründə, həm də seçki günü medianın prosesi işıqlandırması, onun qanunauyğun fəaliyyətinin, bütövlükdə media azadlığının, informasiya əldə etmək hüququnun təminatı baxımından bütün beynəlxalq standartlara və Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun şəkildə keçirildi: “Ümumən, seçkilərin informasiya təminatı yüksək səviyyədə reallaşdı. Ən əsası, Azərbaycan mediası prosesin müxtəlif aspektlərinin təqdimatında yüksək peşəkarlıq nümayiş etdirdi. Xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət daşıyan bu missiyanın gerçəkləşməsində əməyi keçənlərin hər birinə, jurnalistlərə təşəkkürümüzü bildirir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayırıq”.

***R.AMİN***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti
tabeliyindəki idarələrin gəmiləri üçün müxtəlif növ nəzarət və ölçü cihazlarının satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il fevralın 14-ü saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1047.
Ünvan – AZ1003, Bakı, M.Useynov küçəsi 2.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti
tabeliyindəki idarələrin gəmiləri üçün müxtəlif boruların və polad keçidlərin, dirsəklərin, torların, dairələrin və şvellerlərin satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il fevralın 15-i saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1263.
Ünvan – AZ1003, Bakı, M.Useynov küçəsi 2.

# Niderlandlı deputat: Avropa Şurası “sözəbaxan oğlanlar”ın dostudur

**“Mən bir həqiqəti aydın şəkildə başa düşmüşəm ki, hər şey dövlət və hökumət başçılarının Avropa Şurasının iclaslarında özlərini necə aparmalarından asılıdır. Əgər “sözəbaxan yaxşı oğlan” olsa öz ölkəsində nə istəsə edə bilər. Hətta siyasi rəqiblərini, jurnalistləri təqib etdiyinə, qanunlara məhəl qoymadığına görə nə Avropa Şurası, nə də Avropa Komissiyası ona heç bir söz deməyəcək”.**



Bu sözləri Avropa Şurasında Niderlandı təmsil edən deputat, liberal-demokrat Sofi int Veld “Euronews”a müsahibəsində deyib.

O bildirib ki, müəyyən siyasi xətt yürüdənlər isə Avropa Şurası tərəfindən tənqidlərə məruz qalır və qəbul edilmirlər. Qeyd edək ki, Avropa Şurasında Yunanıstanda demokratik vəziyyət müzakirə olunub. Müzakirələr zamanı bildirilib ki, cinayət hadisələrini araşdırdığı üçün öldürülən jurnalisti qətlə yetirən şəxslər hələ də məsuliyyətə cəlb olunmayıb. Bundan başqa, Yunanıstanda siyasi fəallar, vətəndaş cəmiyyətinin nümayəndələri elektron izlənməyə məruz qalırlar.

Niderlandlı deputat dolayısı ilə bildirib ki, Yunanıstanın və İtaliyanın baş nazirləri Mitsotakis və xanım Meloni “sözəbaxan” olduqları üçün Avropa Şurası tərəfindən tənqid edilmirlər və onların adları insan hüquqları ilə bağlı hazırlanan hesabatlara salınmayıb. Lakin Macarıstanın Baş naziri Viktor Orban Avropa Şurasının iradəsinə tabe olmadan siyasət apardığına görə tənqidə məruz qalıb və qəbul olunmur. Bütün bunlar Avropa Şurasının əsas məqsədinin heç də demokratik ənənələri qorumaq deyil, üzv dövlətləri özünə tabe etməkdən ibarət olduğunu göstərir.

***XQ***

“A-QROUP” Sığorta Şirkəti
yeni ünvanda

2024-cü il yanvarın 29-dan etibarən “A-QROUP” Sığorta Şirkəti öz müştərilərini Bakı şəhəri, Azadlıq prospekti 3 nömrəli ünvanda yerləşən yeni ofisində qarşılayır.
Şirkətin əlaqə nömrələri dəyişilməyib: *0909 / (012) 377 09 09.
“A-QROUP” ” Sığorta Şirkəti 28 il ərzində onlara güvənən və təkrar bərabərlikdən məmnun olan müştərilərinə təşəkkür edir.
“Sizə minnətdar olaraq sizin üçün inkişaf edirik!” – sizin” A-QROUP “ Sığorta Şirkətiniz.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
**Azərbaycan Milli Konservatoriyası**
boş olan ştatlar üçün müsabiqə elan edir

Dirijorluq kafedrası üzrə:
1. Kafedra müdiri.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 28 (30432) 9 fevral 2024-cü il, cümə

# “Tarın sarı simi...”



**Müsahibimiz Xalq artisti, tanınmış tarzən Vamiq Məmmədəliyevdir**

***–Vamiq müəllim, tar qədim dövrlərdən muğamlarımızı, təsniflərimizi müşayiət edən musiqi aləti olub. Ustad muğənniləri müşayiət etmək özü böyük xoşbəxtlikdir.***

–Azərbaycan xalqının mənəviyyatı, ruhu milli musiqimizdə təcəssüm olunur. Buna görə də tarımız bu torpağın hər bir övladı üçün son dərəcə doğma və əzizdir. Hətta deyərdim ki, tar digər alətlərdən bizə bir köynək daha yaxındır. Sovet imperiyası xalqımızı tarixi dəyərlərindən, elləcə də milli musiqisindən ayırmaq istəyirdi. Məlumdur ki, ötən əsrin 30-cu illərində tara qarşı hücumlar başlamışdı. Müşfiqin şeiri belə bir ağır dönəmdə şimşək kimi çaxdı, xalqın ürəyində əks-səda verdi.

Qeyd etmək lazımdır ki, tarı təhlükədən dahi Üzeyir bəy xilas edib. Dahi bəstəkar gənc həmkarı Səid Rüstəmova deyib ki, tarı ayaq üstündə ifa etmək lazımdır. Qoy görsünlər ki, tar heç də Avropa musiqi alətlərindən geri qalmır. Əvvəllər tarda ancaq muğam və təsniflər ifa olunardı. Üzeyir bəy “Leyli və Məcnun”, “Koroğlu” operalarına məqsədli şəkildə tar ifası saldı. O, bu yolla tarın yerini möhkəmləndirdi.

Mən 60 ildən çoxdur ki, tar çalıram. Çörəyim tardan çıxır. Tam əminliklə deyə bilərəm ki, tarın 22 pərdəsi çərçivəsində Qərbin və Şərqin bütün musiqilərini ifa etmək mümkündür.

Yeri gəlmişkən, iki böyük bəstəkarımız – əvvəlcə Səid Rüstəmov və sonradan isə Ramiz Mirişli Müşfiqin “Oxu, tar” şeirinə mahnılar yazıblar. Hər ikisi gözəl əsərdir. R.Mirişlinin bəstəsini İslam Rzayev ilə Şövkət Ələkbərova duet şəklində oxuyublar.

***– Siz gözünüzü açandan evinizdə tarın ecazkar səsini eşidibsiniz...***

– Məndən böyük qardaşlarımın üçü də –Asim, Vasim, Nasim tar məktəbinə gedirdilər. Məni qoymurdular ki, sən balacasan. Boy-buxunca da zəif idim. (Gülümsəyir). Amma həvəsim o qədər çox idi ki, atamın tar çalmağına baxa-baxa öyrəndim. Atam eldə-obada tanınmış həkim idi. Gözəl tar çalırdı, musiqiyə, xüsusilə muğamata böyük sevgisi var idi. Onun hələ 1926-cı ildə aldığı tar indi də məndədir. Əziz bir xatirə kimi qoruyub saxlayıram.

Solaxay idim, tarı düzgün tutmaq üçün sağ əlimi işlətməyə məcbur oldum. Tarı uzun müddət qolumda saxlaya bilmirdim, yorulurdum. İnadımdan isə dönmürdüm. Belə-belə, 1963-cü ildə artıq tarı sərbəst çalırdım. Sonra A.Zeynallı adına Musiqi Məktəbinə qəbul olundum. Kəndimizdə klubda dərnək açmışdım. Axşamlar yığışıb xanəndələri müşayiət edərdim. Bir dəfə dedilər ki, bizim Kürdəxanıya böyük xanəndə Mütəllim Mütəllimov gəlib, gəl onu müşayiət elə.

Bu, gənc tarzən üçün böyük xoşbəxtlik idi. Tələsik tarı götürüb getdim. Çox həyəcanlanmışdım. Ustad müğənni mənə ürək-dirək verdi. Hər şey yaxşı bitdi. Cavan idim, çox forslanmışdım. Sonralar böyük muğam ustadları Yaqub Məmmədovu, Hacıbaba Hüseynovu müşayiət etmişəm.

Həm toylara gedir, həm də məşhur tarzənlərdən dərs alırdım. Rəhmətlik Adil Gəray Məmmədbəyli mənim not müəllimim olub. Böyük tarzənlər – Bəhram Mansurov və Hacı Məmmədovdan tar ifaçılığı sənətinin sirlərini əxz etməyə çalışmışam.



***– Müşayiət zamanı tarzəndən nələr tələb olunur?***

– Müşayiət sənəti, əslində, ayrıca bir elmdir. Bu yolu hər bir tarzən mənimsəyə bilmir. Bunun üçün gərək zəhmət çəkəsən – qəzəliyyatı, muğamatı dərindən mənimsəyəsən. Bununla yanaşı, gərək müşayiət etdiyin müğənninin səs imkanlarını biləsən. Məsələn, böyük sənətkar Yaqub Məmmədovu müşayiət etmək elə də çətin deyildi. Onun həm güclü zili, həm də məlahətli bəmi var idi. Elə müğənni var ki, yüksək notlarda oxuya bilmir. Tarzən bunu nəzərə almalı, müğənnini çətin vəziyyətə salmamalıdır.

Bəzən məndən soruşurdular ki, necə olur ki, bütün müğənniləri müşayiət edə bilirsən? Cavab verirəm ki, mən müşayiət yolunu bilirəm. Bir daha vurğulamaq istəyirəm: Gərək düzgün yolla müşayiət edəsən. Tarzən xanəndəni elə yerə aparıb çıxardar ki, tərəf-müqabilin azıb qalar. Elə də edər ki, çətinliyə düşən xanəndəni astaca yoluna salar, xanəndə heç özü də bilməz. Əsas odur ki, xanəndənin səsi olsun. Qalan şeyləri yoluna qoymaq çətin olmur. Bir də uzun illərin təcrübəsi öz sözünü deyir.

***– Mizrabınızla nə vaxt sarı simlərin üzərində gəzişir?***

– Bu sualınız ürəyimdən oldu. Tarzən müğənnin səs tembrinin gözəlliyindən ehtizaza gələndə sarı simlərə toxunur. Yaqub Məmmədov “Şur” muğamı oxuya, tarzən sarı simə toxunmasın, bu, mümkün deyil.

Xalq rəssamı Toğrul Nərimanbəyovun məşhur bir tablosu var. Orada ifa zamanı ehtizaza gəlmiş muğam üçlüyü təsvir olunur. Bu əsəri muğamı dərindən duyan və sevən bir rəssam yarada bilərdi.

Demək istəyirəm ki, muğam elə bir dəryadır ki, onun dərinliklərinə baş vurmağın zövqi-səfası bir başqadır. Muğam xalqımızın böyük sərvətidir. Hörmətli Mehriban xanım Əliyeva çox sağ olsun ki, muğam sənətinin inkişafına güclü dəstək verib.

***– Uzun illərdir pedaqoji fəaliyyətlə məşğulsunuz. Yəqin ki, çox sayda yetirmələriniz var?***

– Çoxdur, əksəriyyəti artıq tanınmış tarzənlərdir. Adlarını fəxrlə çəkə bilərəm: Əliağa Sədiyev, Elçin Həşimov, Səbuhi Cəfərov və digərləri. Bölgələrimizdə də yetirmələrim var. Yaxşı ustad olmaq böyük şərtdir, amma aşıqlar demiş, “şəyirdin də gərək qabiliyyəti” olsun. Məhəmməd Hadi deyibdir:

***Elmin, mərifətin varsa, buyur gəl,***
***Yoxsa, bu aləmə olma bir əngəl...***

Bəzən valideyinlər gətirirlər uşaqlarını ki, tarzən olsun. Baxırsan ki, uşağın heç musiqi duyumu yoxdur, zorla olmur axı. Tarzənin yetişməsi üçün 15 il vaxt sərf olunur. Xanəndə olmaq daha asandır, bir müsabiqədə qalib gəldinsə, tanınmış xanəndə olursan. Tarzənlik ağır sənətdir...

***– Deyilənlərə görə, bir vaxtlar sizi Azərbaycan Dövlət Opera və Balet Teatrına işə dəvət ediblər.***

– Böyük tarzənimiz Bəhram Mansurov dünyasını dəyişəndən sonra məni ora dəvət etdilər. Amma, etiraz etdim. Bilirdim ki, Bəhram dayının oğlu, dostum Elxan oradadır. Mənim getməyim düzgün olmazdı. Mən gedib operanın incəliklərini öyrənincə vaxt keçəcəkdi, yamaq da olmaq istəmirdim. Yaxşısı budur ki, hər kəs öz yolu ilə getsin.

***– Taleyinizdən razısınızmı?***

– Taleyimdən də, ailəmdən də, dostlarımdan da çox razıyam. Bütün bunlar mənim var-dövlətimdir. Tarda həm solo, həm də müşayiət etməyi sevirəm. Xoşbəxt tarzənəm. Dünyanın bir çox böyük ölkələrinin səhnələrində olmuşam. Xalqımızın musiqisinin hər yerdə sevildiyini müşahidə etmişəm.

Həm də ona görə xoşbəxtəm ki, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyi ilə 4 il əvvəl xalqımız Qarabağı düşməndən azad edib. Bu, böyük səadətdir. Bəzən ürəyimdən keçir ki, kaş qardaşım, akademik Vasim Məmmədəliyev də bu günü görəydi! (Kövrəlir). Qarabağın xilası milli musiqimizin inkişafına yeni təkan verəcək. İstərdim ki, Şuşada milli musiqi alətləri istehsalı bərpa edilsin.

***Söhbəti qələmə aldı:***
***Ramilə QURBANLI***
***XQ***

---

**İdman**

## “İlin ən yaxşıları” kimlər olacaq?

**Avropada gimnastika üzrə 2023-cü ilin ən yaxşı idmançısı və məşqçisi adına namizədlərin siyahısı açıqlanıb. Siyahıda Azərbaycan təmsilçiləri də var.**



Tamblinq üzrə milli komandanın üzvü Mixail Malkin ilin idmançısı, yığmaya rəhbərlik edən Adil Hüseynzadə isə ilin məşqçisi adına namizəd göstərilib.

Hər nominasiya üzrə qaliblər azarkeşlər arasında keçirilən səsvermənin nəticələrinə əsasən bəlli olacaq.

Qeyd edək ki, Mixail Malkin ötən il Böyük Britaniyanın Birmingem şəhərində keçirilmiş batut gimnastikası və tamblinq üzrə dünya çempionatında qızıl medal qazanıb. Adil Hüseynzadənin başçılıq etdiyi yığma da həmin turnirdə dünya çempionu olub.

***XQ***

## Ərəblərin “Dəvə ili”

***Dost ölkənin Azərbaycandakı səfirliyinin təqdim etdiyi elektron materiallarda qeyd edilir ki, rəsmi Ər-Riyadın ötən il dekabrın 20-də qəbul etdiyi bu qərar ölkə rəhbərliyinin öz milli-mədəni irsinə qayğısının, xalqına, tarixinə, mədəniyyətinə və irsinə olan marağının davamı kimi dəyərləndirilir.***



Xatırladaq ki, Səudiyyə Ərəbistanı Dəvə Federasiyası İdarə Heyətinin sədri şahzadə Fəhd bin Haslin bu addımı dövlətin və liderlərinin dəvələrə olan böyük marağını əks etdirdiyini, rəhbərliyin “Hədəf 2030”a uyğun məqsədlərinə töhfə verdiyini bildirib. O, vəliəhdin orijinal və qədim irsi qorumaq, insanları dəvə mədəniyyətinə sadiq olmağa təşviq etmək və dəstəkləmək əzmini yüksək qiymətləndirib: “Ərəblər və səudiyyəlilər hələ də dəvələrdən bəhrələnirlər, onlara dəyər verirlər və bu günə qədər onlara sahib olmaqdan qürur duyurlar”.

***İ. QAÇAYEV***

## Çin avtobusları uçmağa hazırlaşır

**Çin mühəndisləri 7 il dayandırılan "Tranzit Ucaldılmış Avtobus" (TEB) layihəsinin yenidən icrasına başlayıblar.**



Qeyd edək ki, bu avtobuslar 1200 sərnişin tutumuna malik olduqları üçün, həm də bir növ metro funksiyasını yerinə yetirirlər. Onlar avtomobillərin üzərindən rahatlıqla keçə biləcəklər.

Məlumata görə, sabit relslər üzərində çalışacaq bu avtobusların bir ədədi təxminən 3,5 milyon funt-sterlinqə başa gələcək.

Mütəxəssislər hesab edirlər ki, avtobusların hərəkəti üçün lazım olan infrastrukturu bir il ərzində qurmaq mümkündür.

***XQ***

**HAVA**

## Yenə yağmursuz, yenə dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 9-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Arabir güclənən cənub-qərb küləyi əsəcək, səhər şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 7-12°, gündüz 13-17° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək, nisbi rütubət 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 17-22° , dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

---

***✓ Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 2005 –ci il aprelin 16-da 1105-Q4-1721 nömrə ilə dövlət qeydiyyatına alınmış “Meridian” Humanitar İctimai Birliyinə məxsus nizamnamə və dairəvi möhür itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Rüstəmov və QSC-nin kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ADPU-nun məktəbəqədər təhsil fakültəsinin əməkdaşları Nailə Hüseynova, Müseyib İlyasov, Ramiz Əliyev, Şəhla Əliyeva və Simnarə Heydərova universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynovaya anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyeva anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin kollektivi agentliyin ümumi şöbəsinin müdiri Cəmilə Abbasovaya

**ANASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3446
SİFARİŞ 287
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00